PAŞA YAQUB

DOĞRULAN ÜMİDLƏR

IV nəşr

Bakı – 2009

Redaktoru: ***Hacı Xalid***

Paşa Yaqub «**Doğrulan ümidlər**»,
«Zərdabi LTD» MMC, Bakı, 2009, 160 s.

Əlinizdəki «Doğrulan ümidlər» kitabının IV nəşri olmaqla, müəllifin sayca on beşinci əsəridir. Əvvəlki nəşrlərdən fərqli olan bu əsərdə köhnə fəsillərə düzəlişlər edilmiş və yeni fəsillər əlavə edilmişdir.

Kitabda Azərbaycanın müxtəlif bölgələrində yaşamış övliyaların həyatına nəzər salınır və onların nümunəvi əxlaqı insalara örnək göstərilir.

Y $\frac{4306021001-10}{024-2009}$ Qrifli nəşr

© Paşa Yaqub, 2009

HƏZRİ BABA

Rəhman və Rəhim olan Allahın adı ilə

«**Zülmə məruz qaldıqdan sonra Allah uğrunda hicrət edənləri dünyada gözəl bir yerdə sakin edəcəyik. Axirət mükafatı isə daha böyükdür. Kaş (**bütün insanlar bunu**) dərk edəydilər**». Quran, «Bal arısı» surəsi, 41-ci ayə

Allah uğrunda hicrət edənlərdən biri də Həzri Babadır. Onun müqəddəs qəbri-şərifi İsmayıllı rayonunun İsmayıllı kəndinin aşağı tərəfindəki qəbirstanlıqdadır. Neçə əsrlərdir ki, insanların bu qəbirləri ziyarət etməsi və bir çox sağalmaz xəstəliklərdən məhz burada şəfa tapması, Həzri Babanın Allah dərgahında məqamının ucalığına dəlalət edən əlamətlərdəndir (Yerli əhalinin tanıdığı onlarla şəxs bu günbəzə qolları bağlı dəli olaraq daxil olmuş, ziyarətgahdan ağlı başında normal insan kimi çıxmışlar. Onlardan hətta sonralar ərə gedib, ailə sahibi olanlar da bu gün kənddə yaşamaqdadırlar.)

Həzri Babanın qəbri üzərində qədim zamanlarda tikilmiş gümbəz bu günə gəlib çatmadığından, övliyanın yaşadığı tarixi də müəyyənləşdirmək mümkün olmadı.

Sovet hökuməti dağılandan sonra İsmayıllı kəndinin sakini, əməlisalehlər zümrəsindən olan Şıxəli Məhəmməd oğlu qəbrin ətrafını kol-kosdan təmizləyib və öz şəxsi vəsaiti hesabına Həzri Babanın qəbri-şərifi üzərində günbəz tikdirib. Belə əməlisaleh şəxslər haqqında Rəbbim buyurur: **«Mallarını Allah yolunda sərf edənlərin halı yeddi sünbül verən bir toxuma bənzəyir ki, bu sünbüllərin hər birində yüz ədəd dən vardır. Allah istədiyi kimsə üçün bunu qat-qat artırır. Allahın lütfü genişdir!»** Quran, «İnək» surəsi, 261-ci ayə.

Şıxalı Baba

Qeyd edim ki, xeyriyyəçiliklə məşğul olan Şıxəli Baba təkcə günbəz tikdirməklə kifayətlənməyib. Belə ki, o, həm də İsmayıllı şəhərində yeganə olan və sovetlər dönəmində anbara çevrilən məscidi də öz şəxsi vəsaiti hesabına təmir etdirib, möminlərin istifadəsinə vermişdir. Maraqlıdır ki, belə gözəl əməllərlə həyatda iz qoyub gedən Şıxəli Baba heç də böyük vəzifələrdə çalışmamış və yaxud bizneslə məşğul olmamışdır. Sadəcə 20-30 baş qoyuna, 5-6 baş qaramala, 5-10 ədəd bal arısı təknəsinə və bir neçə hektar mayvə bağına sahib olan bu əməlisaleh şəxs səxavət və comərdlik göstərərək, xeyriyyəçiliklə məşğul olar, kəndin kasıb adamlarına daim əl tutarmış. Görünür belə savablarının nəticəsidir ki, Allah onun var-dövlətinə sonsuz bərəkət verər, o da hər gün qapısına gələn möhtacların ehtiyaclarını ödəyərmiş. Bu

xeyirxahlığın nəticəsi olaraq, Şıxalı Baba el-oba arasında böyük hörmət qazanmış, dövrünün ən nüfuzlu şəxsiyyətlərindən olmuşdur. Yaşadığı dövrdə insanlar arasında hər hansı narazılıq, yaxud düşmənçilik yarananda, Şıxalı Babanın nüfuzundan istifadə edərək, bu düşmənçiliyi aradan qaldırarmışlar.

Şıxalı Baba 2005-ci ildə (80 yaşında) dünyasını dəyişsə də, ruhu yenə də Həzri Babanın gümbəzində dolaşmaqdadır. Oğlu Fəxrəddin müəllimin danışdığı əhvalat buna sübutdur: «Həzri Babanın gümbəzinin üstündən damırdı. Atam (Şıxalı Baba - müəllif) yuxuma girib, dedi gümbəzin damını düzəltdir. Gedib baxdım, gördüm tavan tamam dəyişilməlidir. Bir müddət götür-qoy etdim ki, mən bunu necə düzəltdirim. Bir gün yenə də atam yuxuma girib, soruşdu ki, gümbəzi düzəltdirmisən? Mən «yox» deyəndə gördüm kişi küsüb getdi. Səhər yuxudan duran kimi material aldım, usta gətirdim, gümbəzin üstünü dəyişdirdim.»

Həzri Babanın ziyarətinə xəstə aparanlar bir çox hallarda Şıxalı Babanı da özləri ilə götürərlərmiş. İnsanlar buna adət etdiklərindən, Şıxalı Baba Haqqa qovuşandan sonra da uzun müddət xəstələr gəib onu axtarıblar. Bu mənada Raufun danışdığı bir əhvalat çox maraqlıdır: «Kəndimizdə əsəbləri pozulmuş bir qız vardı, daim küçələri dolaşardı. Bir gün bu qız girdi bizim həyətə, dedi Şıxalı Babanı axtarıram, məni ziyarətə aparsın. Dedik Şıxalı Baba dünyasını dəyişib. Qardaşım Fəxrəddin bu qızı apardı Həzri Babanın ziyarətinə. Ziyarətdən çıxanda ağlı başında normal bir qız olub. Ondan sonra daim səliqə-sahmanla geyinib,

ədəbli davranmağa başladı. Hətta onu əvvəllər tanıyan bir oğlan gözəlliyinə, ədəb-ərkanına vurulub, o qıza elçi göndərdi. İndi gözəl ailələri, övladları var.»

Rauf danışdıqca, yadıma Mövlana Cəlaləddin Rumi ilə, karvansarada sakin olan Tavusi Gənci arasında baş verən bir əhvalat düşdü. Əhvalat belə olmuşdur:

Mövlanə Cəlaləddin Rumi vəzir Ziyaəddinin karvansarasına gəlmişdi. O karvansarada «Tavusi Gənci» adında bir qadın yaşayırdı. Mövlanə bu qadının otağının qarşısında oturdu.

Qadın Mövlananı otağının qarşısında gördükdə inanmadı. Dərhal gəlib Mövlananı öz otağına dəvət etdi.

Mövlana böyük hörmətlə bu dəvəti qəbul edib, Tavusi Gəncinin otağına girdi. Orada namaz qılmaq və dua etməklə məşğul oldu. Bu qadın üçün də dua etdi.

Çıxıb gedərkən də sarığının ucundan bir parça kəsib ona verdi. Həmin gün Əmir Şərafəddin də o karvansaraya gəldi. Tavusi Gəncini görən kimi ona aşiq oldu. Halbuki əmir bu qadını əvvəllər də tanıyırdı. Amma ilk dəfə onu gözəl görüb sevdi və ona evlənməyi təklif etdi.

Evləndikləri gecə Əmir Şərafəddin Tavusi Gəncidən soruşdu:

– Səni zamanın Rəbiəsi[1] kimi görməyimin səbəbi nədir?

Tavusi Gənci başındakı sarıq parçasını göstərərək belə dedi:

[1] Rəbiə VII əsrdə yaşamış xanım övliyadır

– Gözəlliyim məndən deyildir. Məni daxilim və xaricimlə dəyişdirən Mövlananın kərəm əlidir.

Həzri Babanın da kəramətindən faydalanıb şəfa tapan və xoşbəxtliyinə qovuşan insanlar barədə yuxarıda müəyyən qədər söhbət açdıq.

Sonda övliyanın xeyir duasının onu ziyarət edənlərin və oxucuların üzərindən əskik olmaması arzusu ilə ziyarətgahdan ayrılıram.

PİR HÜSEYN ZİYARƏTGAHI

Rəhman və Rəhim Allahın adı ilə

Pir Hüseyn ziyarətgahı Hacıqabul rayonu ərazisində, Pirsaat çayı sahilində yerləşir.

Şeyx Pir Hüseyn adıyla şöhrət tapmış əl-Hüseyn ibn Əli tarixi mənbələrdə əzəmətli, görkəmli pir, sufilikdə üçüncü dərəcəyə çatmış (əl-salik), müqəddəslərin görkəmlisi, ruhani işləri ilə məşğul olan, imam kimi dərəcələrlə qeyd edilmişdir ki, bu da onun dövrünün ən nüfuzlu şəxsiyyəti olduğunu göstərir.

Hündür bürclü divarlarla əhatə edilmiş xanəgah kompleksinin memarlıq abidələri orta əsr əzəmətini bu gün belə, saxlamışdır. Abidələrin üzərindəki XII-XV əsrlərə aid daş kitabələr bu günə qədər qalmaqdadır. Xanəgah kompleksinə orta əsr Şirvan-Abşeron memarlığının ən nadir əsərlərindən sayılan türbə, məscid, karvansara və yardımçı tikililər daxildir.

Pir Hüseyn görkəmli alim-filosof kimi Azərbaycanda elmi-fəlsəfi fikir tarixində, İslam-fəlsəfi dünyagörüşünün formalaşmasında mühüm rol oynamışdır. O, 954-cü ildən 1072-ci ilə qədər yaşamış öz böyük qardaşı

Məhəmməd Bakuvidən 25 il sonra, qocalıq dövründə vəfat etmişdir.

Xanəgahın abidələri kompleksi Pir Hüseynin məzarı ətrafında yerləşmişdir. Kompleksdə olan yazılı daşlar – kitabələr əsasında demək olar ki, xanəgah tikililərindən çoxunun əsası Şirvanşah Gərşasbin oğlu Fəribüzr və II Axıstanın oğlu II Gərşasbin vaxtında qoyulmuşdur. Vaxtilə xanəgahda tədqiqat aparmış V.A.Kraskovskaya yazırdı: «Dünyada Pir Hüseyn türbəsinin kaşı bəzəkləri ilə ancaq Məşhəddəki İmam Rza məqbərəsi rəqabət edə bilər.»

İran tarixçisi Vəssafın (1264-1334) verdiyi məlumata görə xanəgahın zəngin təsərrüfatı, kitabxanası, külli miqdarda dövləti, o cümlədən qızıl külçələri də olmuşdur. Məhz buna görə də xanəgah müxtəlif dövrlərdə dəfələrlə qarət edilmişdir. Pir Hüseyn məqbərəsinin al-əlvan yazılı-naxışlı kaşı bəzəkləri bu gün dünya muzeylərinin sərgilərini bəzəməkdədir. Peterburq Dövlət ermitrajında, Gürcüstan Dövlət Muzeyində, Moskvada Şərq Mədəniyyəti Muzeyində, Avropanın Luvr, Britaniya və başqa muzeylərində nümayiş etdirilir. Bir neçə ədəd əlvan kaşı parçası, həmçinin kompleksdəki məscidin gəcdən düzəldilmiş mehrabı Nizami adına Ədəbiyyat muzeyində saxlanılır. Xanəgah tikililəri söküldükdən sonra daş kitabələr Bakı muzeylərinə gətirilmiş və çoxusu itib getmişdir.

Şərq baştağdan düşmüş 6 parça ərəbcə kitabədə yazıldığına görə bina Şirvanşah Fəribürz ibn Gərşasb dövründə, böyük sədr Həsən ibn Məhəmmədin vəsaiti

və əmri ilə 1243-44-cü ildə tikilmişdir. Xanəgahın şərq divarında Şirvanşah I Xəlilullahın adıyla əlaqədar bir kitabə olmuşdur. Bu günə ancaq fotoşəkil gəlib çatmış kitabədən məlum olur ki, I Xəlilullah zamanı da burada tikinti işləri aparılmışdır. Əbdüssəməd adlı bir şəxs də xanəgahda bərpa işləri görmüşdür.

Minarənin səkkizgüşəli hssəsindəki kitabədən məlum olur ki, o, 1256-cı ildə tikilmişdir. Lap yuxarıda qoyulmuş iki kiçik kitabələr də minarənin Şirvanşah Əxistanın oğlu II Gərşasbin göstərişi ilə 1294-cü ildə bərpa edilməsi qeyd olunub. Həmçinin bərpa işlərini memar Şəmsəddin ibn Mahmud, inşaatçı Mahmud ibn İbrahimi aparmışlar. Minarənin ən böyük kitabəsi, onun giriş qapısı üzərindəki əhəng daşına fars dilində həkk olunmuş yazıdır. Bu yazıda qeyd olunduğuna görə, minarə böyük monqol hökmdarı Munka Buğa Qaan vaxtında, onun Azərbaycan canişini Arğun ağanın xanəgaha bəxş etdiyi daimi gəlir verən vəsaitlər hesabına və onun səyi nəticəsində bina olmuşdur. Kitabədə tarix qeyd olunmamışdır.

Tarixçi Vəssafın yazdığına görə Qızıl orda xanı Sultan Məhəmməd Özbək Pir Hüseyn xanəgahını ziyarətə gəlmiş və Qızıl Orda qoşunlarının talan etdiyi əmlakın ziyarətgaha qaytarılmasını təmin etmişdi.

Elxani hökmdarlarından əbu Səid və Məhəmməd Xudabəndə də Pir Hüseyn xanəgahını ziyarət etmişlər. Məhəmməd Xudabəndə Bakı yaxınlığındakı digər sufi xanəgahına da ziyarətə gəlmiş, onun şeyxi Əbu Səid Abdal Bakiyə bəxşişlər təklif etmişdir. Lakin

şeyx monqol hökmdarının bəxşişlərindən imtina etmişdir.

Monqolların xanəgahlara olan diqqət və münasibətlərinin əsas səbəbi Azərbaycanın həmişə Qərblə Şərqi birləşdirən bir körpü rolunu oynaması idi. İşğalların ilk dövrlərində məscidləri yandıran bütpərəst monqol hökmdarları sonralar Azərbaycana sahib olmaq uğrunda apardıqları mübarizədə İslam faktorundan istifadə etmişlər.

Bəs necə oldu ki, monqolları səcdəyə gətirmiş, onlara İslamı qəbul etdirmiş xanəgahlar XIX əsrin əvvəllərindən başlayaraq süquta uğrayıb talan edilmişdir. Təkcə Pir Hüseyn xanəgahının öyrənilməsi tarixinə nəzər salsaq, bəzi məsələləri dərk etmiş olarıq.

V.A.Kraçkovskaya xanəgahın öyrənilməsini üç dövrə bölür: birinci dövr 1858-1861-ci illərdir. Bu zaman Bartolemey, Nanıkov, Dorn kimi Rusiya Peterburq Akademiyasının akademikləri, şərqşnas alimləri Qafqazda və Kaspi sahil boyu ölkələrində hərbi qulluğa təyin olunmuşdular. Onlar eyni zamanda yerli xalqın adət-ənənəsini, etnoqrafiyasını, tarixi abidələrini və s. öyrənirdilər. Onlar bir çox əlyazmaları toplamış, kitabələri tədqiq etməklə də məşğul olmuşlar. 1858-ci ildə ilk dəfə Pir Hüseyn Xanəgahında olmuş Bartolemey (Ermitajda numizmatika ilə məşğul olurdu) kompleksi son dərəcə xaraba halında görmüşdür. Pir Hüseyn türbəsinin və məscidin al-əlvan kaşı bəzəkləri onu heyrana gətirmişdi. O, dünya mədəniyyətinin çox nadir abidəsi sayılan bu kaşı parçalarından bir neçəsinin yerindən qoparıldığını gördükdə, kompleksin

Peterburqa köçürülməsini təklif etmişdir. Sonra kompleksin Tiflisə köçürülməsini qərara almışlar. Lakin bu qərar yerinə yetirilmədi.

İkinci dövr 1907-ci ildə Tiflisdə Qafqazşünaslıq institutunun elmi katibi S.V.Ter-Avetyanın xanəgahda işə başlamasına tsadüf edir. O, kaşıların təsvirini və fotosunu çəkmişdi. Kraçkovskaya da Ter-Avetiyanın ona təqdim etdiyi materiallar əsasında kaşı parçalarının kitabələrini bir qədər bərpa edib oxumuşdu. Kraçkovskayanın yazdığına görə, məhz Ter-Avetriyanın xanəgahdakı fəaliyyətindən sonra bütün kaşı parçaları yoxa çıxmışdır. Sonralar həmin kaşı bəzəklərinin sorağı Avropanın muzeylərindən gəlmişdir.

Üçüncü dövr 1936-cı ilin oktyabrında təşkil olunmuş ekspedisiyanın işi hesab olunur. Bu zaman bütün kaşı bəzəklərinin yeri artıq boş idi. Onlardan üç ədəd kaşı parçasından, ikisi türbədən, biri isə məsciddən tapılmışlar.

Maraqlı xatirələr

Pir Hüseyn ziyarətgahında olarkən, bələdçi mənə xatirə kitabına ürək sözlərimi yazmağı təklif etdi: Yazmazdan əvvəl xatirə kitabını vrəqlədim. Məndən qabaq yazılmış xatirələr pirin kəramətinə dair maraqlı əhvalatlar olduğundan, onların bəzilərini oxuculara təqdim etmək qərarına gəldim:

«Peterburqdan mənə zəng etdilər ki, orada yaşayan qızım Leylanın ilk uşağı doğulmaq üzrədir və uşaq tərs gəldiyindən, qızın həyatı təhlükəlidir. Ya ana,

ya da uşaq ölməlidir. İki rükət «Hacət namazı» qılıb Allahdan kömək istədim və nəzir etdim ki, duam qəbul olunsun, Pir Hüseyn ziyarətgahında qurban kəsərəm. Həmin gecə yuxuda çay qırağında olduğumu və bir pirani insanın qayıqla suda gəldiyini gördüm. Qəribə idi ki, qayıq suyu axarına yox, tərsinə (üzü yuxarı) gəlirdi. Amma bu şəxs avardan (kürəkdən) istifadə etmirdi. Gəlib mənə çatanda, dedi tut bu çəlikdən. 2 dəfə təkrar edəndən sonra tutdum. Dedi sənin Pir Hüseynə dediyin nəziri Allah qəbul etdi. Sənə bir qız nəvəsi pay verildi. Mən dedim anasına bir xəta olmadı ki? Təkrar dedi ki, «Sənə deyirəm Allah nəzirini qəbul elədi. Nə anasına, nə də balasına heç bir xətər yetmədi.

Səhər açılanda xəbər gəldi ki, qızım sağ-salamat qurtarıb. Gətirib qurbanını kəsdik.»

İsmayılov Hacı Əlisalam İbrahim oğlu,
24 may 2008-ci il

«10 il bundan əvvəl qızım Günelin qəflətən dili və ayaqları tutulmuşdu. Nə danışa, nə yeriyə bilirdi. Aşura günü qızımı götürüb bu ziyarətgaha gəldim. Dua etdim ki, imamların qırxına qədər qızımın dili açılsın. Maraqlıdır ki, 40 günün tamamında, yəni imamların qırxı günü qızımın dili və ayaqları açıldı. Allaha şükür etdim ki, Pir Hüseyn ziyarətgahında etdiyimiz duanı qəbul etdi.»

Cabbarova Durna
14 avqust 2002-ci il

«Həyat yoldaşımın ağzı əyilmişdi, qə nədər həkimlərə, ocaqlara getdik, faydası olmadı. Yoldaşım

dedi daha bezmişəm, özümü öldürəcəm. Məhərrəmlik ayı idi, yuxuda anamı gördüm. Dedi: A bala nə rahat yatmısan, sən üç ildən sonra qızını, 7 ildən sonra oğlunu Pir Hüseyndən almadınmı? Niyə ərinin də şəfasını ondan almırsan?

Səhər oyanıb, yuxumu həyat yoldaşıma danışdım. Durub gəldik pirə. Ziyarət edəndən sonra sağalmağa başladı. Həmin məhərrəm ayı çıxana qədər həyat yoldaşım tamam sağaldı.»

Səmayə, Əli Bayramlı şəhəri.
14 sentyabr 2008-ci il.

«Bir neçə il bundan qabaq həyat yaddaşımla Pir Hüseyn pirini ziyarətə gəldik. Həyat yoldaşım qorxusundan pirə girmədi ki, içəridə əqrəb olar. Qayıdanda yolda dayanıb, çörək yeyərkən, bir quş dimdiyində əqrəbi gətirib ayağımızın altına atdı. Həyat yoldaşımın xahişi ilə bu sözləri xatirə kitabına yazdım.»

«60-cı illərdə Hacıqabul şəhərindən bu pirə piyada gəlmişdim. Gəlib gördüm böyük traktorlar, ekskavatorlar pirin ətrafında toplaşıb, buranı sökmək istəyirlər. İki traktor çalışdı ki, piri içəridən uçursun. Amma nə qədər cəhd etdilər, traktor yerimədi. Onlar ruslar idi. Qayıdıb getdilər.»

Məmmədov Gülbəs.
Hacıqabul

«Ailə qurandan sonra dünyaya gələn bütün uşaqlarım ölürdü. Bir gün Pir Hüseyn yuxuma girib

dedi: «Gəl qəbrimi ziyarət elə. Günbəzin astanasını şirələyib deyərsən: Mən səndən övlad istəyirəm». Dediyi kimi eləyib getdim. Ondan sonra doğulan qızım yaşadı və adını Pirxanım qoydum. İndi onun 12 yaşı var.»

B.Nazilə,
stansiya Navahi

HACI BULUD BABA

Rəhman və Rəhim olan Allahın adı ilə

Mənəviyyat həkimi olan Şeyx Hacı Bulud baba XIX əsrdə Dağıstan mahalının Axtı rayonunda doğulmuşdur. Ona Bulud adının verilməsiylə əlaqədar belə rəvayət edirlər ki, anası hamilə olarkən qızmar yay günlərinin birində camaatla bərabər zəmidə taxıl biçirmiş. İstidən nəfəsi qaralan qadın göylərə üz tutub deyir:

– Ya Rəbbim, vəziyyətim özünə əyandır, istidən nəfəsim kəsilir. Buludunu göndər, günəşin qabağını kəssin, oğlum olsa, adını Bulud qoyaram.

Anası əməlisaleh adam olduğundan duası tez qəbul olunarmış. Deyilənə görə həmin anda da göyün üzünü bulud alır. Ətrafa bir sərinlik, bir rahatlıq yayılır. Aradan bir neçə ay keçəndən sonra həmin qadının oğlu olur. Qadın əhdinə əməl edərək uşağın adını Bulud qoyur.

Haşiyə: «**İmranın zövcəsinin** (Hənnənin): «**Ey Rəbbim, bətnimdəkini sənə xidmətkar** (qul) **olmaq üçün nəzir edirəm.** (Bu nəziri) **məndən qəbul et! Əlbəttə, sən eşidənsən, bilənsən!» – dediyini xatırla!»** Qurani-Kərim, «Ali-İmran» surəsi-35.

Bulud baba Şeyx Şamilin rəhbərliyi ilə gedən Çeçen-Rus muharibəsində təqib olunduğundan gənc yaşlarında Axtı rayonundan Azərbaycanın Ağdaş rayonunun Ərəb kəndinə köçür.

Bulud baba Ərəb kəndində yaşadığı müddətdə gənc olmasına baxmayaraq, Allah-təalanın verdiyi fövqəladə

qabiliyyətə və kəramətə malik olduğu üçün yerli əhali tərəfindən sevilmiş və hörmət göstərilmişdir.

Bir müddətdən sonra Ərəb kəndindən Ağdaşın Xosrov kəndinə gələn Bulud baba burada dövrünün ilahiyyat alimi və mütəfəkkiri kimi tanınan Hacı Məhəmməd Tağı Əfəndiylə tanış olur və onun təkidli xahişi ilə elə Xosrov kəndində də məskən salır.

Hacı Bulud bir müddət Hacı Məhəmməd Tağı əfəndidən dərs alır və özünü onun şagirdi hesab edir.

Hacı Buludun mürşidi-kamil olduğunu hamıdan qabaq hiss edən Məhəmməd Tağı əfəndi ona sonsuz qayğı və ehtiram göstərir və başqalarına da bunu məsləhət görür.

Eyni zamanda Hacı Bulud da öz ustadını yüksək dəyərləndirmiş, hətta vəsiyyət etmişdir ki, məni ustadımın yanında dəfn edin. Ziyarətimə gələnlər birinci onu ziyarət etsin, sonra məni.

Hacı Bulud baba ömrü boyu evlənməmişdir. Doğulduğu tarix dəqiq məlum olmasa da, dəfn tarixi qəbrin üstündəki daşda hicri 1311 (miladi 1890) göstərilmişdir. Qəbri Ağdaş rayonunun Xosrov kənd qəbristanlığındadır.

At da bizimlə birlikdə zikr etdi

Hacı Bulud babanın doğulduğu yeri ziyarət etmək və onun haqqında məlumatlarımı zənginləşdirmək üçün 1998-ci ilin dekabrın ortalarında Dağıstan mahalının Axtı rayonuna səfər etdim. Burda bir çox adamlarla göruşdüm ki, onlardan biri də Axtı rayonunun Cümə

məscidinin imamı Həbibullayev Hacı Mirzə Zeynəddin oğlu idi. O mənə Bulud babanın kəramətləri barədə bunları danışdı:

– Təxminən 15-20 il bundan qabaq idi. Beş-altı ağsaqqal yığışıb Bulud babanın ocağını (doğulduğu evi-P.Y) ziyarət etdik. Gedənlər hamısı ibadət əhli idi. Günorta namazını qıldıq. Quran oxuduq. Sonra yoldaşlardan biri dua elədi ki, «Ya Rəbbim, bu ocaqda bizə bir möcüzə göstər». Sıra ilə oturub zikr elədik. «La ilahə İllallah» dedikcə başımızı sağa-sola əyirdik. Atlarımız kənarda otlayırdı. Birdən atların biri dəstədən ayrılıb, yanımıza gəldi və dizi üstə çökərək, bizimlə bir sırada dayandı. O da bizim kimi başını sağa-sola əyərək zikr eləməyə başladı.

Bulud babanın duası ilə yağışyağdı

Belə rəvayət edirlər ki, uzun müddət imiş Ağdaş bölgəsində yağış yağmırmış. Quraqlıq olduğundan əkin sahələri tələf olurmuş. Ağsaqqallar belə qərara gəliblər ki, uzun müddət ibadətlə məşğul olan, Quranı dərindən bilən, ağzı dualı adamlar müsəlləyə* çıxsınlar, bəlkə Allahın yazığı gəlib yağış yağdıra.

Beləliklə, Ağdaşın Cümə məscidinin imamı olur, Ərəbocağı kəndindən Yolqulu baba, Padarlı kəndindən Abdulla əfəndi, Bulaqotağı kəndindən Hacı Sadıq əfəndi, Xosrov kəndindən Hacı Məhəmməd Tağı əfəndi

* Müsəlləyə çıxmaq - Bir neçə nəfərin birlikdə hündür bir yerdən Allaha dua etməsi

gəlib otururlar Türyançayda, başlayırlar dua edib, Allaha yalvarmağa. Çox dua edirlər bir nəticə hasil olmur.

Xosrovdan gedən Tağı Əfəndi deyir ki, bizim kənddə Hacı Bulud adlı bir nəfər var, kəramətli adamdır, duası tez qəbul olunur. Gedib onu çağıraq, bizimlə birgə dua etsin. Ağdaşın baş mollası deyir ki, mən neçə illər ilahiyyat elmini öyrənmişəm, böyük ustadlardan dərs almışam, Qurani-Kərimi tərcümə edirəm. Hacı Bulud kimdir ki, mənim duam qəbul edilməyən yerdə onun duası qəbul edilə?

Çox mübahisələrdən sonra razılaşırlar ki, Bulud babanı çağırsınlar. Ağdaşın baş mollası yenə etiraz edir, lap axırda and içir ki, əgər Hacı Buludun duasıyla yağış yağsa, mən saqqalımı qırxacam.

Nə isə. Bulud baba gəlir bunların yanına və başlayır Allaha dua etməyə. Deyilənə görə ağzından sözu qurtarmamış göyün üzünü qara bulud alır. Elə bir sel gedir ki, çaylaqdan bir təhər çıxıb canlarını qurtarırlar.

Heyvan da borcunu verir

Bir nəfərin oğlu xəstələnir. Əhd edir ki, oğlum sağalsın, həyətdəki boğaz inəyim doğanda balasını Allah yolunda Hacı Bulud babanın şərəfinə qurban kəsərəm. Vaxt keçir, uşaq sağalır, inəyin balası da erkək olur. Ata əhdinə əməl etmir. Üç il keçir, heyvan böyüyür. Həmin adam qurban dediyi öküzü bazara satmağa aparır. Öküz yolda qaçıb Bulud babanın yanına gəlir. Baba onu görən kimi tanıyır ki,

bu, qurbanlıqdır. Deyir, axır ki, gəldin! Heyvanın ardınca da sahibi gəlib çıxır. Bulud baba deyir: «Ey insan, heyvan heyvanlığıyla öz borcunu yerinə yetirir, amma sən borcunu vermək istəmirsən. Mənim heç nədən ehtiyacım yoxdur, götür heyvanını da çıx get.»

QARA MOLLA

Rəhman və Rəhim Allahın adı ilə

«**Biz istədiyimiz kimsəni dərəcələrlə yüksəldərik. Hər biləndən üstün bir bilən də vardır**»» Quran, «Yusif» surəsi, 76-cı ayə.

Allah-təalanın dərəcələrlə yüksəltdiyi saleh bəndələrindən biri də Qara Molladır. Elm, iman və təqva sahibi olan Qara Molla XIX əsrdə Göyçay qəzasının Hacabəyli və yaxud Yeniarx kəndləri ərazisində yaşamışdır. Kəramət sahibi övliyalardan olmuşdur. İlahiyyat elmini dərindən bildiyindən, çoxlu sayda müridləri olmuşdur. Çox güman ki, elminin çoxluğuna, şəxsiyyətinin böyüklüyünə görə ona «Qara Molla» adı verilmişdir. Çünki «Qara» sözü böyüklük, bilginlik mənasında işlədilir.

Asiya adlı qızla ailə quran Qara Mollanın Abdulhəlim və Abdulvəli adlı iki oğlu, adını bilmədiyimiz bir qızı olmuşdur. (Yeri gəlmişkən qeyd edim ki, həmin qız Göyçay rayonunun Potu kəndində ərdə olmuş, övladı olmadan vəfat etmişdir. El arasında sınaqdan çıxmış bir inanca görə, uşağı olmayan qadınlar Qara Mollanın qızının Potu qəbirstanlığında olan qəbrinin üstünə bir

sərinc süd tökməklə, niyyətlərinə çatarlarmış. Bu gün qəbrin yeri blinmir.)

Qara Molla dünyasını dəyişməzdən öncə qohum-əqrəbalarını toplayıb bildirmişdir ki, artıq ömrü başa çatmaq üzrədir. «Həcc ziyarətinə gedirəm, orada öləcəyəm. Oğlanlarım böyüyəndə biri gəlib mənim qəbrimi tapar.» Vəsiyyətni etdikdən sonra, övliya Həcc ziyarətinə yola düşdü.

«Hacı Əfəndi»

Qara Molla dünyasını dəyişəndə yurdunda qalan iki oğlundan birinin adı Abdulhəlim olmuşdur. Həccə getdiyinə və dini təhili olduğuna görə el arasında «Hacı Əfəndi» çağrılmışdır. Atası kimi o da, kəramət sahibi övliyalardan olmuş və Göyçay rayonunun Yeniarx kəndində yaşamışdır.

Kəbəni təvat etmək və atasının qəbrini ziyarət etmək məqsədi ilə Hacı Əfəndi Həcc yolçuluğuna çıxdı. Həcc ziyarətini başa vurduqdan sonra atasının qəbrini çox axtarsa da, tapa bilmədi. Ümidini üzüb, ağlamağa başladı. Gecə yuxusunda atası Qara Mollanı gördü. Atası öz qəbrini röyyada oğluna göstərdi. Abdülhəlim Əfəndi səhər tezdən gedib atasının qəbri-şərifini ziyarət etdi.

Yeniarx kənd məscidi

Kəramətiylə başqalarından fərqlənən Hacı Abdulhəlim əfəndi 1909-cu ildə dünyasını dəyişdi. Ölümünə bir neçə gün qalmış qohum-əqrəbasına vəsiyyət etdi ki, onun məscidin həyətində basdırmasınlar. Çünki çox keçmədən hökümət başına sarı kafirlər gələcəklər ki, məscidlərə at bağlayacaqlar.

Hacı Əfəndi dünyasını dəyişən gün kənd camaatı onun vəsiyyətinə əməl etməyərək, cənazəni Yeniarx məscidinin həyətində dəfn etdilər.

Hacı Abdulhəlim Əfəndinin uzaqgörənliyi özünü doğrultdu. Ölümndən on il sonra hakimiyyətə gələn kommunistlər kənd məscidini bağlamaqla yanaşı, qohumlarından tələb etdilər ki, övliyanın qəbrini məscidin həyətindən köçürsünlər.

Qəbr açılanda isə orada Hacı əfəndinin cənazəsindən əsər-əlamət görünmədi. Bu da bir

Hacı Abdulhəlim Əfəndi və oğlu Əhməd Əfəndinin qəbrləri

möcüzə idi.

Hacı Abdulhəlim Əfəndinin kəramətinə dair Mallışıxlı kənd sakini 90 yaşlı Aydınova Güleykə Namizəd qızı uşaqlıqda şahidi olduğu maraqlı bir əhvalatı danışdı:

– 5-6 yaşlı uşaq idim. Bizim indiki həyətin yerində üzüm bağı var idi. Evimiz üzüm bağına yaxın olduğundan, üzüm yetişən vaxtı hər il gəlib üzüm yığıb yeyirdik. Bir il üzüm yetişən vaxtı tənəklərə xəstəlik düşdü. Meyvələr yetişməmiş hamısı büzüşmüşdü, yemək mümkün deyildi. Bir gün gördüm bağa bir kişi girdi. Dedilər ki, bu kişi Hacı Əfəndi (Abdulhəlim Əfəndi) babadır. Baba cərgələrin arasında getdikcə bütün tənəklərin üstünə tüpürürdü. Evimiz yaxın olduğundan mən eyvanda oturub Babaya diqqətlə fikir verdim. Bağda bir neçə adamın cərgəsi vardı və o adamlar hamısı Babadan xahiş etdilər ki, onların tənəklərinə də tüpürsün. Baba işini qurtarandan sonra bağın ortasında dəstəmaz alıb, namaz qıldı, çoxlu dua etdi. Aradan 3-4 gün keçəndən sonra, dedilər üzümlərin qırışığı açılıb. Bu xəbər böyüklərdən çox biz uşaqları sevindirdi. Həmin il bağın meyvəsi əvvəlki illərdən çox oldu.

Abdulhəlim babam məni oğlumun olacağı ilə müjdələdi

Zülfüqarov Əhmədağa Əlisahib oğlu – Abdulhəlim Əfəndinin nəticəsi:

– İki qızım olmuşdu, çox arzulayırdım ki, bir oğlum da olsn. Bir gün Abdulhəlim babam yuxuma girib, məni

bir oğlum olacağı ilə müjdələdi və tapşırdı ki, uşağa mənim adımı verərsən. Hazırda həmin uşaq XI sinifdə oxuyur.

Əhmədağa müəllim danışdıqca, İbrahim Peyğəmbərlə mələklər arasında olan dialoq yadıma düşdü: «**Onlar: «Qorxma, biz səni çox bilikli bir oğulla** (oğlun olacağı ilə) **müjdələyirik!**» **- deyə cavab verdilər.»** Quran, 15: 53.

Qeyd edim ki, Əhmədağa müəllim xeyriyyəçi kimi tanınır. Belə ki, Yeniarx kəndindəki məscid, qəbirstanlıqda ehsan vermək üçün tikili, yolların təmiri və s. gözəl əməllər onun adıyla bağlıdır.

Əhməd Əfəndi

Hacı əfəndi dünyasını dəyişəndə, onun yolunu oğlu Əhməd əfəndi davam etdirməyə başladı. Atasından mükəmməl dini təhsil alan Əhməd əfəndi Göyçay rayonunun Mallı-Şıxlı kənd məscidinin imamı vəzivəsini icra edirdi. Məleykə adlı qızla ailə quran Əfəndinin Fatimə, Məhəmməd, Mahmud və Zabitə adlı dörd övladı dünyaya gəlmiş və 1911-ci ildə həyatla vidalaşmışdır.

İbrahim Baba

Yuxarıda qeyd etdim ki, Qara Mollanın Abdulvəli adlı oğlu da olmuş və o, Hacabəyli kəndində yaşamışdır. Abdulvəli Baba da dövrünün tanınmış övliyalarından olmuşdur. Onun İbrahim adlı yeganə oğlu da atasının yolunu davam etdirmişdir.

İbrahim Baba Xəlitli kəndində yaşamaqla Xaisə adlı qızla ailə qurmuş, bu nigahdan Məhəmməd və Gülbəyim adlı iki övladı olmuşdur.

Gülbəyim xanımın oğlu, hazırda Sumqayıt şəhərində yaşayan Hüseyn həkim bir vaxtlar yaşadığı müqəddəs ocağı belə xatırlayır:

– İbrahim Babanın yurdunda Məhəmməd dayım yaşayırdı. Bu ocaq mənim anamın ata ocağı olduğundan, uşaqlığım burada keçib. Burada çox möcüzələrin, kəramətlərin şahidi olmuşam. Həyətdə böyük bir daş vardı, beş-altı kişi yerindən tərpədə bilmirdi. Bəzən səhər oyananda görürdük daş həyətdən kənardadır. Dayım deyirdi ki, həyətdə natəmizlik var. Başlayırdı həyəti təmizlətməyə. Nəsə dualar oxuyurdu. Səhəri gün yuxudan oyananda daşı həyətdə görürdük. Bu möcüzənin dəfələrlə şahidi olmuşdum. Ona görə də həyəti həmişə pak saxlayardıq.

Sehrli xalça

Yadımdadır, babalarımızdan bir xalça yadıgir qalmışdı, ailəmiz o xalçanı göz bəbəyi kimi qoruyub saxlayırdı – deyə Hüseyn həkim söhbətimi davam etdirir. Yay aylarında quraqlıq olanda, kolxoz sədri gəlib dayımdan xahiş edirdi ki, o xalçanı axar suya qoysunlar. Dayım xalçanı arxa qoyub, nə isə dualar oxuyurdu. Həmin günün axşamından yağış yağmağa başlayırdı. Ta ki, bütün əkin sahələri sü içib, doyurdu, ondan sonra dayım xalçanı sudan götürürdü.

«**Allah göydən bir yağmur endirdi, vadilər öz tutumlarına görə onunla dolub daşdı…**» Quran, «Göy gurultusu» surəsi, 17.

ÇALI PİRİ

Rəhman və rəhim olan Allahın adı ilə

«Həqiqətən Səfa və Mərvə (İsmayıl peyğəmbərin anası Həcərin gəzdiyi və dua etdiyi təpələr - müəllif) **Allahın əlamətləridir** (ibadət nişanələrindəndir)**. Evi** (Kəbəni) **həcc və ümrə yolu ilə ziyarət etdikdən sonra bunları da təvaf etməkdə** (ətrafına dolanmaqda) **heç bir günah yoxdur. Hər kəs** (vacibdən əlavə) **könüllü olaraq yaxşı bir iş görərsə, Allah** (onun etdiyi yaxşı işdən) **razı qalandır,** (onu) **biləndir.»** Quran, «İnək» surəsi, 158-ci ayə

Ayədən göründüyü kimi müqəddəs şəxslərin – kəramət sahiblərinin yaşadıqları, ibadət etdikləri və yaxud dəfn olunduqları yerləri təvaf etməkdə heç bir günah yoxdur və insana əlavə savab qazandırır.

Məkkəyə getməyə, Səfa və Mərvanı ziyarət etməyə maddi imkanı olmayanlar, yaşadıqları ərazidə olan kəramətli şəxslərin qəbirlərini və yaxud ibadət yerlərini ziyarət etməklə, əlavə savab qazanmaqdadırlar. Belə ziyarət yerlərindən biri də Çalı piridir.

Çalı piri Zərdab rayonunun Çallı kəndində yerləşir. Üstündəki türbə sovet dönəmində dağıldığından, buranın tarixini müəyyən etmək mümkün deyildir.

Pir haqqında müəyyən əhvalatlar bu günümüzə qədər gəlib çıxmışdır. Bilinən budur ki, bura Çalı adlı bir övliyanın ibadət etdiyi və qeybə çəkildiyi yerdir. Bu Allah dostu yaşadığı dövrdə övliya olduğunu xalqdan

gizlətmişdir. Bir imkanlı şəxsin heyvanlarını otararaq, güzəranını təmin edərdi. Yeri gəlmişkən qeyd edim ki, bir çox övliyalar, o cümlədən Musa Peyğəmbər və Yaqub Peyğəmbər də ömürlərinin müəyyən mərhələsində çobanlıq etməklə güzəran keçirmişlər. Bu barədə Quranda olan bir epizoda nəzər salaq:

(Şüeyb Peyğəmbər Musaya) **dedi: «Səkkiz il mənə xidmət etmək** (qoyunlarımı otarmaq) **şərti ilə qızlarımın birini sənə ərə verərəm…»** Quran, «Hekayət» surəsi, 27-ci ayə.

Qeyd etdiyim kimi, Çalı Baba da imkanlı bir şəxsə çobanlıq edərmiş. Hər səhər heyvanları götürüb kənddən uzaqlaşar, axşam qaranlıq düşəndə evə qayıdardı. Bir gün o, heyvanların qaçıb, dağılmaması üçün örüşün yanına xəndək qazmağa bel və kürək götürüb evdən çıxdı. Günortaya yaxın ağası görülən işə baxmaq üçün çobanın arxasıyca yollanıb. Örüş yerinə çatanda gördüyü mənzərədən yerindəcə donub qaldı: bel hansısa bir qüvvənin təsiri ilə torpağı qazır, kürək də o qayda ilə xəndəyin içindəki torpağı bayıra tullayırdı. Çalı Baba isə örüşün hündür bir yerində üzü qibləyə səcdə halında idi. Ağa səsini çıxarmadan geri döndü və bu möcüzəyə şahid olmaq üçün bir neçə ağsaqqal götürüb, həmin yerə yollandı. Ağsaqqallar da həmin mənzərəni görüb heyrət etdilər. Bir öynədə bir dəstə kişinin görə biləcəyi qədər iş görülmüşdü. Ağsaqqallar ziyarət üçün Çalı Babaya yaxınlaşdıqda, övliya Rəbbindən onu qeybə çəkməyini istədi.

Allah-təala öz dostunun duasını qəbul edib, onun ruhunu dərgahına götürdü. Çalı Babadan yeganə əlamət kimi çuxasının ətəyi qaldı.

Həmin gündən kənd camaatı övliyanın qeyb olduğu yerdə badət etmək üçün məscid tikmək qərarına gəldilər. Necə ki, əshabi-kəhfdən bəhs edən ayədə Rəbbim buyurur: **«… Möminlər isə: «Onların məzarı üstündə** (Allaha ibadət etmək məqsədilə) **bir məscid tikəcəyik!» - dedilər.»** Quran, «Magara» surəsi, 21-ci ayə.

Əsrlərdir ki, ətraf kəndlərin əhalisi müxtəlif xəstəliklərdən, sıxıntılardan əziyyət çəkəndə Çalı pirinə üz tutur və burada ibadət və dualar edirlər.

Allah-təala Çalı Babanın üzü hörmətinə buradan edilən duaların və niyyətlərin çoxusunu qəbul etdiyindən, övliyanın ziyarətçiləri əskik olmur.

SEYİD MİR CAVAD AĞA

Rəhman və Rəhim olan Allahın adı ilə

«Bilin ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər. O kəslər ki, iman gətirmiş və pis əməllərdən çəkinmişlər, onlara dünyada da, axirətdə də müjdə vardır». Quran, «Yunis» surəsi, 62-64-cü ayələr.

Allahın dünyada və axirətdə müjdələdiyi dostlarından biri də 28 il Göyçay rayon cümə məscidində imamlıq etmiş, kamil elm və iman sahibi seyid Mir Cavad ağadır.

Seyid Mir Cavad ağa

Şəcərəsi İmam Hüseyn əleyhissəlamın nəsil xətti ilə Həzrəti Peyğəmbərimizə qədər gedib çıxan Kazımov Cavad Mir Ələkbər oğlu 1943-cü ilin sentyabr ayının 25-də Masallı rayonunun Qızılavar kəndinin Seyidoba məhəlləsində dünyaya göz açıb.

İlk təhslinə hələ 4 yaşından Seyidoba ibtidai məktəbində başlayan balaca Mir Cavad məktəbi bitirdikdən sonra, 1957-ci ildə sənədlərini Bakı Dəmiryol Texnoloji Texnikumuna təqdim edir. Sənədləri burada yoxa çıxdığından, İlahiyyat elmini öyrənməyi qarşısına məqsəd qoyur. Molla Hüseyn Əli, Molla Fəttah, Şeyx Qüdrət, Molla Əli Nağı, molla Cəbrayıl (qaynatası), Şeyx Hüseyn

kimi ustadlardan bəhs olan Mir Cavad ağa fiqh, üsul, şəriət elmlərinin sirlərini dərindən öyrənmişdi.

Müqəddəs Qurani-Kərimin «Davar» surəsinin 83-cü ayəsində Rəbbim buyurur: **«Biz istədiyimiz şəxsi dərəcə – dərəcə yüksəldirik. Şübhəsiz ki, Rəbin hikmət, elm sahibidir».**

Allah-təala digər dostları kimi Mir Cavad ağanı da dərəcə-dərəcə yüksəldərək, böyük bir rayonun axundu (imamı) vəzifəsinə qədər çatdırmışdır. Belə ki, malik olduğu elmini, təcrübəsini, iman və təqvasını nəzərə alıb, 1978-ci ildə şeyxülislam onu Göyçay rayonuna axund təyin etmişdir.

Göyçay camaatı, ümumilikdə Şirvan eli Seyid Mir Cavad ağanın simasında yüksək intellektə, kamil imana və təqvaya malik bir alim qazanmışdılar. O, dini rəhbər olmaqla bərabər, həm də yetimlərin himayəçisi, kasıbların Allahdan aşağı ümid yeri, Allahsız kommunist rejiminin kor etdiyi insanlara haqq yolu göstərən bir çıraq idi.

Axund kimi çalışdığı illərdə respublikamızın demək olar ki, bütün bölgələrində hörmət və nüfuz qazanmış Hacı Cavad ağa, İslam dininin gözəlliklərini, əxlaqını, mənəviyyatını xalqa çatdırmaqla gərgin əmək sərf etmiş və özü bu gözəlliklərin nümunəsi olmuşdur.

Cəddim Peyğəmbər (s) dəbdəbəli evdə yaşamayıbsa, mən nə cəsarətlə yaşaya bilərəm?

Seyidin həyat yoldaşı Gülcahan xanım:

- Mircavad ağa çox nəfsi tox, insanpərvər adam idi. Həm seyid, həm də axund olduğuna görə, ona çoxlu

nəzirlər verirdilər. Deyirdim ay seyid, nə vaxta qədər məscidin verdiyi daracaq otaqda yaşayacağıq? Bir ev tikdirək, uşaqlarımız böyüyür… Deyirdi cəddim Peyğəmbər (s) dəbdəbəli evdə yaşamayıbsa, mən nə cəsarətlə elə evdə yaşaya bilərəm?

Yetim uşaqların qayğısına, öz uşaqlarından çox qalırdı. Bir gün qış vaxtı, azca odunumuz vardı, seyid onun çox hissəsini maşına yığaraq, aparıb verdi yaxınlıqdakı başçısını itirmiş bir ailəyə. Dedi qış vaxtıdır, onların uşaqları körpədir, xəstələnər. Dedim bəs bizim də uşaqlar körpədir də, onlar xəstələnməz? Dedi, bizim uşaqların üstündə mən varam, xəstələnsələr, mən müalicə etdirəcəm. Amma onların uşaqları xəstələnsə, müalicə etdirənləri yoxdur.

Mir Cavad ağanın günbəzi

Mir Cavad ağanı Kərbəlada ziyarət etdik

- Seyid dünyasını dəyişəndən sonra, əlil qızım Asiya onun üçün çox darıxırdı, sakitləşdirə bilmirdik-deyə Gülcahan xanım söhbətini davam etdirir. Həmişə deyirdi ki, ağanı Kərbəlada görürəm, məni aparın ora, ağanı orada ziyarət edəcəm. Birtəhər pul toplayıb, qızı da götürüb, getdim Kərbəlaya. Orada ağam Həzrəti Əbülfəz Abbasın qəbrini təvaf edərkən, Asiya dedi:” Mir Cavad ağanı da görürəm, deyir balaca bacın Bahar üçün də dua elə”.

Kərbəladan qayıdandan sonra Asiya sakitləşdi, daha ağlamadı.

MUSTAFA BABA

Rəhman və Rəhim olan Allahın adı ilə

«Şərq də Qərb də Allahındır: hansı tərəfə yönəl-sənizsəniz *(səfər etsəniz)* ***Allah ordadır. Şübhəsiz ki, Allah*** *(Allahın mərhəməti)* ***genişdir,*** *(O, hər şeyi) biləndir!»* Quran, «İnək» surəsi, 115-ci ayə

Şirvan mahalında hələ ta qədimdən bu günə kimi qəbri müqəddəs ziyarətgaha çevrilən, xatirəsinə ehtiram göstərilən övliyalardan biri də Mustafa babadır.

Əliyev Mustafa Alı oğlu təxminən XVIII əsrin ikinci yarısı və XIX əsrin birinci yarısında indiki Ucar rayonunun Qaradağlı kəndində yaşamışdır.

Mustafa Babanın şəcərəsi, həzrəti imam Hüseyn və Həzrəti Əli vasitəsi ilə fəxri - kainat Peyğəmbərimiz Həzrəti Məhəmməd əleyhissəlama qədər gedib çıxır.

Əcdadları Kərbəla faciəsində xəlifə Yezid tərəfindən qətlə yetirildikdən sonra, Mustafa Babanın nəsli İraqdan, İranın Xoy şəhərinə köçmüşlər. Təxminən XV-XVI əsrlərdə bu ailə, İrandan, Azərbaycanın mərkəzi – aran bölgəsinə, daha doğrusu, indiki Ucar rayonunun Qaradağlı kəndinə gəlmişlər.

Mustafa Babanın bizə məlum olan dörd qardaşının adları bunlardır: Abdulla Baba, Rəhim baba, Alı Baba (qəbri Zərdab rayonunun yuxarı Seyidlər kəndi yaxınlığında, Böyük övliya Veyis Babanın qəbrinin yanındadır), Qəhrəman Baba. Bu ailə heyvandarlıq-

la məşğul olduqlarından, qışda Qaradağlıda, yayda isə Qəbələdə yaylaqda olmuşlar.

Türkiyənin Adyaman şəhərində yaşayan və Həzrət Əlinin 32-ci nəsli olan Seyid Abdulbaqirin bildirdiyinə görə, Qara Mustafa Əli əleyhissəlamın 28-ci nəslidir. Qeyd edim ki, övliya, yaşadığı dövrdə «Qara Mustafa» adlandırılmışdır. «Qara» sözü burada böyüklük, ucalıq, ululuq və bilginlik mənalarında işlənmişdir.

Gülxar adlı qızla ailə quran Mustafa babanın bizə məlum olan Aslan və İslam adında iki oğlu, Anaqız adında bir qızı olmuşdur (Düzgününü Allah bilir).

Kəramətli övliya və seyid olan Mustafa Baba, ölümündən bir qədər əvvəl böyük oğlu Aslanı yanına alıb, Qaradağlıdan xeyli aralı, Göyçaya tərəf uzanan bir düzənlikdə, yaşıl çəmənli bir yeri göstərərək, «Mən öləndə, burada dəfn edərsiniz» - deyə vəsiyyət edib.

Vaxt tamam olub, övliya dünyasını dəyişəndə, vəsiyyətinə əməl edərək, onu dediyi yerdə dəfn edirlər. Həmin vaxt burada insan yaşamadığından, övladları, Mustafa Babanın qəbrinin tənha qalmasını məqbul saymayıblar. Odur ki, bir neçə ildən sonra, seyidin övladları tədricən həmin əraziyə köçməyə başlayıblar. Beləliklə, yaranan bu yaşayış məskəni Müskürlü adlanıb.

Hal-hazırda Göyçay rayonunun ərazisi olan Müskürlü kəndi, rayon mərkəzindən (Ucara tərəf) 18 km; Ucar rayonunun mərkəzindən isə 4 km aralı yerləşir. Ərazisi 1630 hektar, əhalisi 2009-cu ilin yanvar ayına olan məlumata görə 1086 nəfərdir.

Mustafa babanın sınağa çəkilməyi

Mustafa babanın övliyalığı, kəramətləri haqda söz-söhbətlər yayılanda, 5-6 nəfər bəyzadə bir yerə toplaşıb, onu sınamaq qərarına gəlirlər. Öz aralarında söz qoyurlar ki, buradan birbaşa gedirik Mustafanın evinə, əgər bizə dizi qara, gözü qara bir toğlu kəsib, sacda bişirsə və üstünə nar vursa, biləcəyik ki, əsl övliyadır – bizim ürəyimizdən keçənləri duyur. Onda biz hərəmiz ona altı şahı[2] nəzir verərik. Yox əgər, ürəyimizdə tutduğumuz şeyləri etməzsə, hər yerdə danışarıq ki, Mustafada kəramət yoxdur. Belə sözləşib, ata minib, düzəldilər yolarına.

Bunlar yol gəlməyində olsun, sizə kimdən deyim, Mustafa Babadan. Baba, oğlu Aslanı çağırıb, sürüdəki filan qoyunun dizi qara, gözü qara balasını gətirib, həyətə bağlamağı tapşırır. Qonaqlar həyətə daxil olanda, onların gözünün qarşısında toğlunu kəsdirib, sacda bişirtdirir. Yemək hazır olanda, Baba, Aslana deyir ki, oğul, alaçığın arxasındakı nar ağacında üç ədəd nar var, get ikisini gətir. Yaz fəsli olduğundan və nar mövsümü olmadığından, Aslan duruxur, getmək istəmir. Atası deyir oğlum, dediyimi elə. Aslan alaçığın arxasındakı ağacda üç dənə nar görəndə, heyrətindən donub qalır. İkisini qırıb gətirib hazır yeməyin üzərinə vurur.

---

[2] Şahı – pul vahididir.

Qonaqlar yeməklərini yeyib, qurtardıqdan sonra biri o birilərinin qulağına pıçıldayır ki, nəzirimizi verməyək, görək onu da biləcəkmi?

Qonaqlar yola düşmək istəyəndə Mustafa baba deyir, əgər nəfsim üçün deyirəmsə, nəfsim yansın, ilhamla deyirəmsə, müsəlman olan inansın! Sizin hərənizin altı şahı borcunuz var, istəyirsiniz verin, istəmirsiniz verməyin.

Bəyzadələr övliyanın nəzirini verib, yollarına düzəlirlər.

İndi bildik ki, övliyasan

Mustafa Babadan sonra oğlu İslam Babada kəramət özünü büruzə verməyə başlamışdır. Xalq arasında İslam Babanın övliyalığına dəlalət edən bir çox əhvalatlar danışırlar ki, onlardan birini diqqətinizə çatdırmağı lazım bildim.

Müskürlü Məşədi kişi söhbət edərmiş ki, bir gün arabayla gəlirdim, yolda iki nəfər yad adam görüb onları da arabaya mindirdim. Onlar başladılar öz aralarında danışmağa ki, gəl İslam Babanı sınayaq. Ürəyimizdə tutaq ki, əgər İslam Baba bizə xəşil bişirib, üstünə bal töksə biləcəyik ki, ürəkdən keçənləri bilir. Yox əgər xəşil bişirməsə, deməli övliya deyil.

Qonaqlar yol gəlməyində olsun, sizə kimdən deyim İslam Babadan. Həyat yoldaşı Gülzarı səsləyir ki, dur xəşilin suyunu as ocağa, qonaqlarım gəlir, məndən xəşil istəyirlər.

Məşədi kişi danışırmış ki, mən də bunlarla birlikdə gəldik İslam Babagilə. Süfrəyə birinci çay, ardıyca isə xəşil gəldi. Baldan, bəhməzdən töküb, yedik. Yeyib qurtarandan sonra, qonaqlardan biri dedi ay İslam, qapında toyuqdan, çolpadan, bir şey yox idi, kəsib bişirəydin? Bu nədi, yayın günündə xəşilnən bəhməzi verdin bizə, ürəyimizi bulandırdın?

İslam Baba dedi ə, istədiyiniz zəhər bu idi də, çolpa istəyəydiniz, onu bişirəydik.

Qonaqlar gülüşürlər. Durub İslam Babanın əllərini öpürlər. Deyirlər, bağışla, səni sınamaq istəyirdik ki, görək övliyalığın haqqında deyilənlər düzgündürmü? İndi bildik ki, həqiqi övliyasan.

SEYİD MİR FAZİL AĞA

Rəhman və Rəhim olan Allahın adı ilə

«Qulum elə bir hala gələr ki, mən onun görən gözü, eşidən qulağı olaram». Allah-təala, Qüdsi hədis-lərindən.

Allahın saleh və sadiq bəndələrindən biri də, Seyid Mir Fazil ağadır.

Seyid Mir Fazil ağa

Yeddinci imamımız həzrəti Museyi Kazımın nəslindən olan Seyid Mir Fazil, Mir Abutalıb oğlu XIX əsrin 60-cı illərində Şamaxı şəhərində anadan olmuşdur. Anasının adı Xanım olub. Ömrünün 30 ilini ilahiyyat elmlərinin öyrənilməsinə sərf etmişdir. Təhsilini əvvəl Nəcəfdə, sonra Türkiyədə, daha sonra isə, yenidən Nəcəfdə tamamlamışdır. Ayətullah dərəcəsinə qədər yüksəlmişdir.

Nəcəfdə təhsilini başa vurduqdan sonra həmin şəhərdə Raziyə adlı, ərəb mənşəli möminə bir qızla ailə qurub.

1906-cı ildə seyid Mir Fazil ağa doğulduğu Şamaxı şəhərinə gəlir. 1918-ci ildə ermənilər Şamaxı müsəlmanlarına qarşı gətliyam törəndəndə isə, Göyçay şəhərinə köçür. Burada, əvvəlcə Potu kənd məscidinin, sonra isə Göyçay şəhər cümə məscidinin axundu olur.

Öz elmi və imanı ilə kamillik zirvəsinə ucalan Mir Fazil ağa, nümunəvi bir əxlaq sahibi idi. Hətta o, küçəyə çıxanda üzünə rübənd örtərmiş ki, naməhrəm görməsin.

Mir Fazil ağa həddən ziyadə səxavət əhli olub. Belə ki, gündüzlər ziyarətçilərin gətirdikləri nəzirlərini, gecələr torbaya yığıb, oğlanlarının çiyninə qoyarmış, özü də yanlarıyla gedərmiş kasıbların, yetimlərin, xəstələrin qapısına. Heç kəs görmədən ərzağı qapıdan içəri qoyub əsayla qapını döyərmiş. İçəridən səs gələndə, tez oradan aralanıb, gedərmiş ki, azuqənin kim tərəfindən gətirildiyini bilən olmasın. Çünki, ağa istəmirdi ki, kimsə onu görəndə utansın və yaxud gözükölgəli olsun.

Raziyə nənə uşaqlarına söhbət edərmiş ki, bəzən elə olurdu ki, yay fəslində, səhər tezdən yuxudan duranda, Seyid Mir Fazil ağanın başmaqlarında qar görürmüş. Haradan gəldiyini soruşduqda, ağa tapşırarmış ki, bu barədə heç kəsə bir kəlmə deməsin. Raziyə nənə də həyat yoldaşı qeyb olana qədər bu barədə heç kəsə danışmır.

Seyid Mir Fazil ağa övliyalıq dərəcəsinə yüksəlmiş kəramət sahiblərindən olub. Onun haqqında bir çox maraqlı əhvalatlar, möcüzələr bu günə qədər də dillər əzbəridir. Yaşlı adamlar söhbət edirlər ki, sovet hökuməti yeni qurulanda, məscidlərdə dini mərasimləri, o cümlədən aşura mərasimini də qeyd etməyi qadağan edibmiş. Aşuradan bir gün qabaq Mir Fazil ağa minbərdən elan edib ki, sabah aşura mərasimini çox sakit qeyd edəcəyik. Mərsiyə demək, zəncir vurmaq olmayacaq. Axşam ağa evinə gedəndə,

arxadan bir səs onu: - «Fazil» - deyə çağırıb. Seyid dönüb, arxaya baxanda, heç kəsi görməyib. Amma hiss edib ki, səs qeybdəndir. Çünki burada hamı onu «Seyid Mir Fazil ağa» deyə çağırır. Seyid yoluna davam edəndə, həmin səs bir də: -«Fazil» - deyə çağırır. Mir Fazil ağa «Bəli» - deyə cavab verir. Həmin səs: «Sən mənim övladlarımın matəm mərasiminə qarışma» - deyib.

Səhəri gün tezdən ağa bu əhvalatı minbərdən camaata danışır və elan edir ki, dünən dediyi sözü geri götürür. Aşuranı əvvəllər necə keçirmişiksə, bu gün də elə keçirəcəyik.

Balam Hüseynin əzadarlığına gəlmişəm

Mir Fazil ağa yaxın adamlarına söhbət edərmiş ki, aşura günü sübh namazını qılmaq üçün məscidə gəldim. Məscidin qapısının ağzında əynində uzun libas, üzü örtülü bir qadının oturduğunu gördüm. “Sübh tezdən bura qadın gəlmir, siz burada nə gəzirsiniz?» - deyə, soruşdum. Qadın cavabında «Balam Hüseynin əzadarlığına gəlmişəm» - dedi və qeyb oldu.

1930-cu illərdə Raziyə nənə yuxuda görür ki, bir müctəhid vəfat edib, cənazəsini aparanlar da hamısı müctəhidlərdir. O cümlədən, həyat yoldaşı da buradadır. Müctəhidlərdən biri digərinə deyir: Seyid Mir Fazil ağanı görürsən? O da cəddi Həzrəti Museyi Kazım kimi, ömrünü zindanda başa vuracaq.

Nə maşın, nə də at seyidi zindana aparmadı

1941-ci ilin iyun ayının 23-də (müharibə başlayanın səhəri günü) Mir Fazil ağanı həbs etməyə gəlirlər. Ağanı dustaq maşınına qoyurlar ki, aparsınlar. Maşının motoru sönür. Çox çalışsalar da, motoru işə sala bilmirlər. Seyid maşından düşəndə, motor işləyirmiş, maşına minəndə isə, sönürmüş. «NKVD» işçilərinin əlacları kəsilib, fayton gətiriblər. Mir Fazil ağa faytona minəndə indi də at yerindən tərpənməyib. Atı nə qədər qamçılasalar da hərəkət etməyib. Seyid deyib: ata nahaq əziyyət verməyin, onsuz da getməyəcək. Yaxşısı budur mən düşüm, piyada gedim.”

Hamısı bir yerdə piyada gəlirlər «NKVD» -nin Göyçay rayon şöbəsinə. Seyid bir müddət burada yaşayan rusların və qeyri millətlərin təşkilatçılığı ilə həbsxana qarşısında tez-tez mitinq, piket keçirilir. Hökumətin əlacı kəsilir, Mir Fazil ağanı Bakıya – Bayıl türməsinə göndərirlər.

Mir Fazil ağaya hökm oxuyan hakim, məhkəmə zalındaca öldü

Mir Fazil ağanın 80 yaşı olduğuna görə, o dövrün qanunları ilə, həbs oluna, sürgünə göndərilə bilməzmiş. Ona görə də, istintaqçılar saxtakarlıq edərək, onun yaşını 20 il azaldıblar.

Məhkəmə hakimi isə, yalançı şahidlərə istinad edərək, nahaqdan seyidə on il iş kəsir. Hökmü elan edəndə, Mir Fazil ağa bu ədalətsizliyə etiraz olaraq, haqq dərgahına üz tutur və başqalarının eşitməyəcəyi bir

səslə dua edir. Şahidələrin dediyinə görə, bu vaxt hakim, iclas zalındaca yıxılaraq, canını tapşırır.

Bu hadisədən bir neçə gün sonra isə, ağaya cəza istəyən prokuror faciəli surətdə həlak olur.

Seyidin üzünə duran yalançı şahidlərin də sonu faciə ilə bitdi

Yuxarıda qeyd etdim ki, hakim öz hökmünü oxuyarkən, yalançı şahidlərə istinad etmişdi. Odur ki, şahidlərin də həyatı müxtəlif faciələrlə sona yetmişdi. Onlardan biri, ömrünü hürə-hürə başa vurmuşdur.

Seyidin möcüzələri həbsxana rəisini çaş-baş salmışdı

Bayıl həbsxanasının keşikçiləri də Mir Fazil ağanın çox möcüzələrinin şahidi olurlar. Belə ki, hər gün sübh tezdən nəzarətçilər görürlər ki, seydin kamerasının qapısı açıqdır, özü isə həyətdə dəstəmaz alır, yaxud namaz qılır.

Bu hadisə hər gün təkrar olunurmuş və həbsxana rəisi çox çalışsa da bunun qarşısını ala bilmirmiş. Həm də, rəis elə bilirmiş ki, keşikçilərdən kimsə kameranın qapısını açıb, seyidi çölə buraxır.

Odur ki, tez-tez nəzarətçiləri dəyişirmiş. Amma bir faydası olmurmuş. Yenə də sübh namazında seyidi həyətdə görürmüşlər.

Ermənini Mir Fazil ağaya nəzarətçi qoydular

Bayıl həbsxanasının rəisi belə qərara gəlir ki, Mir Fazil ağanın nəzarətçisi müsəlman yox, erməni olmalıdır. Belə olsa, onun qapısının qıfılı açılmaz. Belə də etdi. Ağanın kamerasının keşiyini çəkməyi erməni nadzora tapşırdı. Amma nə fayda, yenə də sübh namazlarında seyidi həyətdə namaz qılan gördülər.

Nəhayət 1942-ci ilin aprelində seyid Mir Fazil ağanın saxlandığı kameranın qapısını açanda, içəridə ancaq başmaqlarını tapdılar. Seyid özü qeyb olmuşdu. Həbsxana rəisi yenə də bu möcüzəyə inanmadı. Həbsxana nadzorlarını bu işdə müqəssir bilib, həbs etdilər. Ağanın keşiyini çəkən erməni keşikçisi isə istintaq olunmaq üçün Tiblisiyə hərbi tribunala göndərildi.

Erməni nadzor seyidi yuxusunda gördü

1947-ci ildə həmin erməni nadzor, Mir Fazil ağanın ocağını ziyarət etmək üçün həyat yoldaşı ilə birlikdə Tibilisidən Göyçaya gəlir və yuxarıda qeyd etdiym möcuzələri də seyidin ailə üzvlərinə o danışır. Həmçinin bildirir ki, 1942-ci ildə Tbilisiyə Tribunala göndərilərkən, yolda dustaq vaqonunda ağa yuxusuna girib. Seyid nadzora deyib ki, sən mənim haqqımda pis söz danışmadın. Ona görə də qorxma, sənə heç nə etməyəcəklər. Əksinə sənə orada vəzifə verəcəklər. Belə də olur. İstintaq müəyyən edr ki, seyidin qeyb olması sirri-İlahidir və bu işdə erməni nəzarətçinin heç bir günahı yoxdur. Beləliklə də, işə xitam verib, həmin ermənini də orada yüksək vəzifəyə təyin edirlər.

Seyid Mir Fazil ağanın, Teymurağa və Mahmudağa adlı iki oğlu, Sara, Dəryanur və Rübabə adlı üç qızı olmuşdur.

SEYİD MİR SƏDİ AĞA

Rəhman və Pəhim olan Allahın adı ilə

«İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda (*Allah rizası üçün****) öz canını fəda edər. Allah öz bəndələrinə qarşı çox mehribandır!»***
Quran, «Bəqərə» surəsi, 207-ci ayə.

Allahın razılığını qazanmaq yolunda malını və canını fəda edənlərdən biri də Seyid Mir Sədi ağadır.

Mir Sədi Seyid Müslüm oğlu 1908-ci ildə Göyçay rayonunda doğulub. Atası, əvvəlki fəsildə kəramətlərindən bəhs etdiyim Seyid Mir Fazil ağa ilə əmioğlu olmaqla, nəsilləri VII İmam Musa Kazım Əleyhissəlam vasitəsi ilə Həzrəti Peyğəmbərimizə qədər gedib çıxır.

1934-cü ildə 25 yaşında əmisi Seyid Mirsahibin qızı Tutu xanımla ailə qurub.

Mir Sədi ağa 1937-ci ildən 1953-cü ilə qədər Dövlət Taxıl Tədarükü İdarəsinin müdiri olub.

Səxavəti, əliaçıqlığı və comərdliyi ilə insanlığa nümunə olan Seyid Mir Sədi, müharibəyə gedən qohum-əqrəba uşaqlarının, həmçinin Göyçayın bütün kasıb və yetim uşaqlarının Allahdan aşağı ümid yeri idi. O, aclığın tüğyan etdiyi müharibə illərində və müharibədən sonrakı dövrdə bir çox başsız ailələrin sağ qalması üçün Allahın göndərdiyi bir vasitə idi. Allah

yolunda payladıqlarını gizli etməyi sevirdi. Çalışırdı pay verdiyi adamlar onun etdiklərini görməsinlər ki, sonradan rastlaşanda xəcalət çəkməsinlər.

Tutu xanım söhbət edərmiş ki, axşamüstü həyətdə inək sağırmış. Əri də yanında dayanıb ona kömək edirmiş. Birdən həyət qapısı döyülür və yarıaralanmış qapıdan içəri bir torba uzadılır. Qapının arxasında dayanıb, üzünü göstərməyən bir şəxs: «Ağamın qapısına gəlmişəm, məni boş qaytarmaz» -.deyir. Mir Sədi ağa həyat yoldaşına deyir o torbanı unla doldur, üstünə iki çörək qoy, başqa bir torbaya da buğda doldur, qoy qapının ağzına. Amma qapını aralayıb, gələnin kimliyinə baxma ki, utanmasın.

Tutu xanım ərinin bütün tapşırıqlarına əməl edir. Lakin, qapıya çatanda, səbri tükənir və qapını aralayıb, gələnin üzünə baxır. Bu vaxt əri əlindəki mundarça ağacından düzəldilmiş dəyənəyi arxadan onun kürəyinə vurur.

Aldığı zərbənin təsirindən yerə yıxılan Tutu xanım sonralar bu hadisəni xatırlayaraq söhbət edirmiş ki, «yaşadığımız 21 ildə əmioğlum məni bircə həmin gün vurdu. Amma haqlı da vurdu. Filankəs bəyin (adını heç kəsə deməyib – müəllif) oğlunu dilənən görmək, məni kürəyimə dəyən mundarça ağacından çox ağrıtdı».

Tutu xanım onu da söhbət edirmiş ki, həmin hadisədən sonra əri həftədə bir dəfə ərzaq bağlaması düzəltdirib, həmin bəy oğlunun evinə xəlvət gön-

dərirmiş ki, kimsədən çörək istəyib, qürurunu sındırmasın.

Seyid məscidi satın aldı

«Haram olan ayda döyüş haqqında səndən soruşanlara söylə: «O ayda döyüşmək böyük günahdır. Lakin Allah yolunu qapamaq, onu inkar etmək, Məscidülhərama girməyə mane olmaq və oradakıları kənara çıxarmaq Allah yanında daha böyük günahdır.» *Quran, «İnək» surəsi, 217-ci ayə.*

Sovetlər dönəmində hər yerdə olduğu kimi, Göyçayda da məscidi mömünlərin üzünə bağlamışdılar. Bu azmış kimi, 1942-ci ildə xəbər yayıldı ki, məscidi kazarma edirlər, sabahdan sovet əsgərləri oraya yerləşdiriləcək. Bu xəbər Mir Sədi ağaya çatanda, günorta yeməyini yarımçıq qoyub, cəld ayağa durdu. Tutu xanıma dedi: «Mən gedirəm, axşam nökər Nəcəfqulunu göndərəcəm, nə desə verərsən!. Qoymaram ki,

Göyçay rayon Əbülfəz-il Abbas məscidi

ata- babalarımızın tikdirdiyi Allah evində rus, erməni əsgərləri qalsın».

Axşam həyət qapısı döyüldü. Gələn nökər Nəcəf-qulu idi. «Ağa bir kilo qızıl gətirməyimi istədi»- dedi. Tutu xanım bir kilo qızılı çəkib, Nəcəfquluya verdi.

Axşamdan bir qədər keçmiş, Seyid Mir Sədi ağa evə qayıtdı. Sevincək idi. «Allah, sənə şükür, məscid kafirlərə qismət olmadı». - dedi. Həyat yoldaşı: «Bunu necə elədin,» - deyəndə, «Məscidi bir kilo qızıla aldım. Tədarük idarəsi üçün taxıl anbarı adıyla aldım. Vaxt gələr qaytararam mömünlərə».

Onu da qeyd edim ki, Göyçay qəzasında yeganə olan bu məscid 1906-cı ildə bişmiş kərpicdən tikilib. Bura istifadə olunan 124 min kərpici Mir Səidi ağanın atası və əmiləri – üç qardaş- Seyid Müslüm, Seyid Mirsahib və Seyid Əşrəf alıb veriblər. Lahıclı Mola Əliqulu isə camaatdan ianə toplayaraq, ustaların və işlənən digər materialların pulunu verdi.

… Nəhayət Mir Sədi ağanın gözlədiyi zaman gəlib çatdı. 1953-cü ildə Seyid məscidi mömünlərin ixtiyarına verə bildi. Tabeliyində olan müddətdə ağa məscidin torpaq döşəməsini taxta ilə əvəzləmiş, minarəni təmir etdirmiş və ora çıxmaq üçün pilləkən tikdirmiş, pəncərələrə içəridən əlavə taxta pəncərələr düzəltdirmiş, həyətdə dəstəmazxana tikdirmiş, həyət qapısına taxta darvaza bağlatdırmış, daimi su ehtiyatı olmaq üçün, yerdən hovuz qazdırıb, içərisini betonlatdırmışdı.

Seyid Mir Sədi ağa 1954-cü ildə 47 yaşında dünyasını dəyişdi. Yurdunda Mir Sənan, Mir Vaqif, Miraəli,

Mirağa, adında dörd oğlu, Zərifə, Mələk, Məlahət və Dilşad adında dörd qızı qalmışdır, Övladlarının hamısı ali təhsilli olmaqla, Mir Sənan dünyasını dəyişmiş, qalanları isə müxtəlif elm ocaqlarında çalışmaqdadırlar.

SEYİD MİR SƏYYAF AĞA

Rəhman və Rəhim olan Allahın adı ilə

«Allah istədiyi şəxsə hikmət (elm, mərifət, müdriklik) **bəxş edir. Kimə hikmət bəxş edilmişsə, ona çoxlu xeyir** (əbədi səadət) **verilmişdir. Bunu ancaq ağıllı adamlar dərk edə bilər!»** «Bəqərə» surəsi, 269-cu ayə.

Allahın hikmət bəxş edərək şərəfləndirdiyi saleh bəndələrindən biri də seyid Mir Səyyaf ağadır.



Seyid Mir Səyyaf Mir Həşim oğlu 1900-cu ildə Kürdəmir rayonunun Köhüllü kəndində dünyaya gəlib. Həm ata tərəfdən, həm də anası Seyid Suma tərəfdən olmaqla, iki tərəfli seyiddir. Əcdadları İordaniyada yaşayıblar. Əbdürəzaq adlı ulu babası Azərbaycanın Cəlilabad bölgəsinə köçüb. Ondan sonrakı nəsillərin sıralanması aşağıdakı kimidir:

Əbdürəzaq → Mirzə → Cəfər → Mirzə → Seyid Cəfər → Mirabbas → Mirhəşim → Mir Səyyaf

Seyid Mir Səyyaf ağa, dini təhsilini əvvəlcə öz kəndlərində axund yanında almış, 1928 ildən 1935-ci ilə qədər isə Türkiyədə Ali Ruhani məktəbində tamamlamışdır. Bundan sonra, elmini daha da təkmilləşdirmək üçün bir qədər də Səmərqənddə, Təbrizdə, Tehranda tanınmış alimlər yanında qalaraq, fiqh, üsul,

şəriət elmlərinin sirlərini dərindən öyrənərək, kamil bir elmə sahib olmuşdur. 1935-ci ildə vətəninə qayıdaraq, axund kimi fəaliyyətə başlamışdır.

Mir Səyyaf ağa seyid Fatimə adlı əmisi qızı ilə ailə qurmuş, Yaxşı və Xədicə adlı iki qızları dünyaya gəldikdən sonra, həyat yoldaşı rəhmətə getmişdir.

Bir müddətdən sonra, Zöhrə adlı digər əmisi qızıyla ailə quran Mir Səyyaf ağanın bu nigahdan doqquz övladı dünyaya gəlmişdir.

Savadlı və düzgün adam olduğu üçün seyidi müharibə dövrü istehlak cəmiyyətinə anbardar qoyublar. Sonralar suvarma sistemləri idarəsində su kanallarına nəzarətçi vəzifəsinə təyin edilib. Daim vəzifəli adamlara hörmətlə yanaşıb. Rəhbərlər də ona ehtiram göstəriblər.

Kamil elmə yiyələnən Mir Səyyaf ağa, həm də kamil iman və təqva sahibi idi. Odur ki, duaları Allah dərgahında rədd olunmurdu. Beləliklə, kəramət sahibi seyidlərdən olan Mir Səyyaf ağa, insanların arzusunu, istəyini Allaha çatdıran və xoş niyyətlərin Tanrı dərgahında qəbul edilməsi üçün gecə-gündüz dualar edən bir vasitəçiyə çevrilmişdir. Xəstələr şəfa üçün, çarəsizlər dərdlərinin çarəsi üçün seyidə müraciət edər və onun evindən əliboş qayıtmazdılar.

Seyid Mir Səyyaf ağa 1995-ci ildə dünyasını dəyişməsinə baxmayaraq, yenə də insanlar onun ocağına üz tutur və bu ocağın kəramətlərindən faydalanırlar.

NƏQŞİBƏNDİLİK MƏKTƏBİ

Azərbaycanda nəqşibəniliyin kökləri

İslam dininin yarandığı ilk vaxtlarda meydana gələn sufilik cərəyanının əsas dayağı nəqşibənlik olmuşdur. Orta əsrlərdə nəqşibəndilik məktəbi Azərbaycanda da yaranmağa başlamışdır. Tarixi mənbələrdə bu məktəbin yaradıcısı olaraq, XIII əsrdə yaşamış Əfşar Babanın adı çəkilir. XV əsrdə isə böyük ustad Nemətullah Naxçıvani Azərbaycanda nəqşibəndliyin daha da inkişaf edib yayılmasında böyük xidmətlər göstərmişdir.

Nəqşibəndiyyə məktəbinə mənsub azərbaycanlı sufilərdən biri də, 1514-cü ildə Təbrizdə anadan olmuş Əbu Səid ibn Sunullahdır.

XVI əsrdən başlayaraq dövlət rəhbərlərinin və mollaların çoxsaylı təzyiqləri səbəbindən, bir çox sufi mütəfəkkirləri Azərbaycanı tərk edərək, Hindistan, Anadolu, Misir, Türküstan kimi bölgələrdə məskunlaşmışlar. Bu da öz növbəsində Azərbaycanda təsəvvüfün zəifləməsinə səbəb olmuşdur.

XIX əsrdə Kürdəmirli Mövlanə İsmayıl Şirvaninin Bağdaddan Kürdəmirə qayıtması ilə Azərbaycanın təsəvvüf tarixində önəmli bir mərhələ başlamışdır. Belə ki, 1817-ci ildə ustadı Mövlanə Xaliddən icazə alaraq, Kürdəmirə gələn **İsmayıl Şirvani**, Nəqşibəndliyi Qafqazda yayaraq, milli mübarizə ideologiyasınınmüridizmin formalaşmasında əsas rol oynamışdır.

Odur ki, bu həzrətin həyat və fəaliyyətini araşdırıb oxuculara (növbəti səhifədə) məlumat verməyi özümə borc bildim.

MÖVLANƏ İSMAYIL SİRACƏDDİN ŞİRVANİ

Mövlanə İsmayıl Siracəddin əl-Kürdəmiri əş-Şirvani 1782/-83-cü illərdə Şirvan xanlığının Bölükət mahalının Kürdəmir kəndində anadan olmuşdur. Bəzi mənbələrdə atasının adının Şeyx Ənvər Şirvani olduğu bildirilir.

İsmayıl Şirvani ilk təhsilini Şamaxıda Məhəmməd Nuri Əfəndidən almışdır. 1800-cü ildə Ərzincana gedərək, dövrünün məşhur alimlərindən olan Övliyazadə Əbdürrəhman Əfəndidən bir neçə il təhsil alaraq, oradan Toqata gedir və bir neçə il də burada elmi biliklərini təkmilləşdirir.

İsmayıl Şirvani Məscidi və Türbəsi. Amasiya

İsmayıl Şirvani Bağdadda Şeyx Yəhya Mərvəzi əl-İmadidən hədis elmini, Molla Məhəmməd ibn Adəmdən hikəmiyyə elmini öyrənir. 1805-ci ildə Burdura gələrək, fiqh elmindən dərs alır və 1806-cı ildə vətəninə qayıdır.

Burada yeddi il elmi biliklərin tədrisi ilə məşğul olduqdan sonra, Həcc ziyarətinə gedir.

İsmayıl Şirvani mənəvi elmlərdə yüksələrək, kamillik məqamına yetişmək üçün kamil bir mürşid-övliya axtarır, bu mürşidə bağlanmaq istəyirdi. Odur ki, zamanın ən məşhur vəlilərindən, feyz mənbəyi, Nəqşibəndi Şeyx Abdullah əd-Dəhləvi həzrətlərinə mürid olmaq üçün Hindistana yola düşür. Bəsrəyə çatanda, Abdullah əd-Dəhləvidən mənəvi işarə aldı: "Sənin Şeyx Xalidlə sirlərin var, onu təqib edə-cəksən". Odur ki, yarı yoldan qayıdaraq, Bağdada – Mövlanə Xalidin məqamına getdi və ondan zahiri və batini elmləri öyrənməyə başladı.

Qeyd edim ki, Mövlanə Xalidin mürşidi nəqşibəndi Şeyxi Abdullah Əd-Dəhləvi olmaqla, təfsir, hədis, fiqh, təsəvvüf, əqidə, ərəb dili morfologiyası və sintaksisi, bəyan, məna, nəsihət, ədəb, əruz, üsul, məntiq, hikmət, astronomiya, həndəsə, hesab, bəlağət, kəlam, üstürlab elmlərini mükəmməl bilmişdir.

İsmayıl Siracəddin elmdə və təsəvvüf məktəblərində kamal dərəcəsinə çatdıqdan sonra, ona tələbə yetişdirmək üçün icazənamə vermişdir. Qeyd edim ki, Mövlanə Xalid özünün on minlərlə müridindən yalnız bir neçəsinə icazənamə vermişdir ki, onlardan da biri İsmayıl Şirvanidir. 1821-ci ildə verilən və hazırda Amasiyadakı türbəsinin divarından asılan ərəbcə yazılmış bu icazənamənin tərcüməsi belədir:

"Həmd sadəcə Allaha məxsusdur. Salavat və salam, vəhyinə seçdiyi Həzrəti Məhəmmədə (s.ə.s.), onun davamçılarına və səhabəsinə olsun.

Bundan sonra Allahın xəlifəsi olaraq şəfqətli, sadiq dost, alimim, fazil, ariflərin və fəzilətlilərin mənbəyi, sədatı-təriqi-nəqşibəndiyyənin əmri ilə qüvvətləndirilmiş qardaşım, sevdiyimiz, uca və kərəmli Hacı İsmayıl Əfəndiyə icazə verdim. Allah-təala bərəkətini, dərəcələrini və hallarını artırsın, tələbələrinə feyzlərini yağdırsın. Ona Nəqşibəndiyyə təriqətində irşad, zikr və tövhid təlqini ilə, taliblərə nəzərinin təsirini, nurları müəyyən etməkdəki və pərdələri qaldırmaqdakı iqtidarını təcrübə etdikdən sonra icazə verdim. Bu icazəni silsileyi-aliyyənin böyüklərindən aldığım müsaidə və peyğəmbərin sünnəsi üzərinə istixarədən sonra verdim.

Övliyanın yoluna təşəbbüs edən hər kəs onun söhbətini qənimət bilsin...

Ona Quran müəllimlərinə, fiqh alimlərinə, sufilərə hörmət etməyi, qəlb səlaməti, nəfs səmahəti, comərdlik, gülərüzlük, əziyyət verməkdən çəkinmək, qardaşların qüsurlarını əfv etmək, böyüklərə və kiçiklərə nəsihət, düşmənlikləri tərk etmək, tamahı tərk etmək, ehtiyacının yerinə yetiriləcəyi xüsusunda Allaha etimad etməyi (Allah özünə etimad edənləri darda qoymaz) vəsiyyət edirəm. Qurtuluşun ancaq doğruluqda olduğundan əsla ayrılmamaq və Allaha vasil olmaq ki, bu, ancaq Həzrəti Məhəmmməd əleyhissəlama tabe olmaqdır. Özünün heç kimsədən daha üstün olduğunu zənn etməyib, öz nəfsini hər kəsdən aşağı görsün. Əleyhində danışmağı davam edəni və həsəd edəni Allaha həvalə etsin. Başına gələn şəri qeyrəti ilə dəf etməyə çalışmasın. Bu təriqəti – Aliyənin şeyxləri dağlar kimi hümmətləri ilə

sənə yetişəcəklər. Əgər istərsə, Allah-təalanın qüdrəti ilə fəsadı o anda maddi olaraq bağlarlar.

Bəndələrinin sayısınca, razı olduğu nəfslər ədədincə, ərşinin zinəti və kəlmələrinin mürəkkəbləri sayınca Allahın salavat və salamı yenə Nəbiyyi-Ümmisi Məhəmmədin özünün və davamçılarının üzərinə olsun.

Aləmlərin Rəbbinə həmd olsun.

Mən fəqir və misgin Xalid ən Nəqşibəndi, əl Mücəddidi.

Mövlayi -Kərimin böyük fəzlinə yetişmiş.

Möhrü -Şərif:

əl-Xalidi

ən-Nəqşibəndi

əl-Mücəddidi

əl-Qadiri

əl-Kübrəvi

əs-Sührəverdi

əl-Çişti.

Bu cür icazənamələr təriqətin sağlam əsaslar vasitəsilə davam etməsi, yalançı şeyxlərin meydana çıxmasının qarşısının alınması, ən başlıcası isə, o şəxsin mürşidliyə layiq olduğunu sübut etməsi baxımından əhəmiyyətli sənəddir.

İsmayıl Şirvani, Mövlanə Xaliddən aldığı mürşidlik vasitəsi ilə Şirvanda Nəqşibəndiyyə məktəbini təlim edən ilk şeyxdir. Onun təlimi, sufiliyi, dünya malından çəkinməyi, özünü tamamilə Allaha həsr etməyi təbliğ edirdi.

Mövlanə İsmayıl Şirvaninin təlimi, imanı və kəramətləri haqqında xəbərlər bütün Qafqaza yayıldı. Onun

yanına qonşu kənd və obalardan, Zərdabdan, İlisudan, Dağıstandan müridlər toplaşmağa başladı. Bu müridlər içərisində Kürdəmirdən Hacı Mahmud Baba, Dağıstandan Molla Məhəmməd Yaraqlı, Xas Məhəmməd, Şeyx Şamil, Qarasubasar mahalının Zərdab kəndindən Hacı Əhməd Əfəndi, Qaracallıdan Hacı Abdı Əfəndi, Qarabağ xanlığının Bərgüşad mahalının Cicimli kəndindən Mir Həmzə Seyid Nigari kimi tanınmış şəxslər vardır. Mövlanənin təlimi sayəsində bu müridlər sonralar övliyalıq səviyyəsinə qədər yüksəlmiş və xalq tərəfindən sevilən şəxsiyyətlər olmaqla bərabər, hər birinin çoxlu sayda müridləri olmuşdur.

1813-cü ildə Rusiya ilə İran arasında Gülüstan müqaviləsi bağlandıqdan və Azərbaycan bu iki dövlət arasında bölündükdən sonra, Mövlanə və onun müridlərinə qarşı təzyiqlər başlandı. 1825-ci ildə Qafqaz canişini Yermolovun əmri ilə İsmayıl Şirvaninin iki müridi - Bölükənd mahalı Cəyli kəndlindən Hacı Məmməd Nəbi Əfəndi və Zərdablı molla Əhməd əfəndi Rusiyanın mərkəzi vilayətlərinə sürgün edildilər. (Sonralar molla Əhməd Əfəndi sürgündən qaçaraq, Türkiyədə şeyxinə yetişmiş və burada Hacı Əhməd Qiyasi Əfəndi Şirvani kimi tanınmışdır).

Bu hadisələrdən sonra Mövlanə İsmayıl Şirvani Kürdəmirin Şıxımlı kəndindən, Türkiyənin Axıska vilayətinə, 1828-ci ildə isə, Amasiya şəhərinə köçdü. Bu zaman onu çoxlu sayda müridi müşayət edirdi.

İsmayıl Şirvani 1848-ci ildə vəba xəstəliyindən vəfat etdi. Amasiya yaxınlığındakı Şamlar qəbirstanlığında dəfn olundu. Hazırda qəbri üzərində 1869-cu ildə oğlu

Ştirvanzadə Mehmet Rüşdi Paşa tərəfindən tikilən türbə və məscid kompleksi hələ də qalmaqdadır.

Mövlanə dünyasını dəyişəndə, dörd oğlu, bir qızı qalmışdır ki, adları aşağıdakı kimidir:

1. Şirvanzadə Mehmet Rüşdi Paşa - 1828-ci ildə Amasiyada anadan olmuşdur. Müxtəlif illərdə Şam valisi, Suriya valisi, Maliyyə Naziri, Daxiliyyə Naziri, nəhayət Osmanlı sultanı Sultan Əbdüləzizin hakimiyyəti dövründə Baş Nazir vəzifəsinə qədər yüksəlmişdir.

2. Əbdülhəmid Əfəndi-Kürdəmirdə doğulmuş, 1846-cı ildə Amasiyada suda boğularaq ölmüşdür.

3. Əhməd Hülusi Əfəndi -1833-cü ildə Şirvanda anadan olmuş, İstanbul qazisi vəzifəsinə qədər yüksəlmiş, 1888-ci ildə Amasiyada vəfat etmişdir.

4. Mustafa Nuri bəy – 1844-cü ildə Amasiyada anadan olmuş, 1897-ci ildə vəfat edərək, Fateh qəbirsanlığında dəfn edilmişdir.

5. Hacı Şərifə Fatma xanım-Hacı İsa Ruhi Əfəndinin zövcəsi olmuşdur.

Müəllifdən: Kitabın bu fəsli, Məhəmməd Məhəmmədcəlil və Fariz Xəlillinin müəllifləri olduqları "Mövlanə İsmayıl Siracəddin Şirvani" kitabının əsasında yazılmışdır. Bakı, "Adiloğlu" nəşriyyatı, 2003.

MİR HƏMZƏ SEYİD NİGARİ

«Şübhəsiz ki, Yaqub onu (*vəhylə****) öyrətdiyimiz üçün bir elm sahibi idi. Lakin insanların əksəriyyəti (****Allahın sevib-seçdiyi zatlara vəhy, ilham yolu ilə elm öyrətməsini)*** ***bilməz.*** Quran, «Yusif surəsi», 68-ci ayə.

Allahın elm bəxş edərək, şərəfləndirdiyi sevimli bəndələrindən biri də Mir Həmzə Seyid Nigaridir.

Həmzə Nigari

Həmzə Nigari 1805-ci ildə Qarabağ xanlığının Bərgüşad mahalının (indiki Laçın rayonunun) Cicimli kəndində dünyaya gəlmişdir. Atası Mir Rüknəddin Əfəndi, Mir Paşa təxəllüsü ilə tanınmışdır. (Türk mənbələrində isə Seyid Paşa kimi göstərilmişdir.) Anası Xeyransa xanım isə Qızxanım adı ilə tanınmışdır.

Şəcərəsi Ağabalım və Malikəjdər Baba vasitəsi ilə Həzrəti Peyğəmbərimizə qədər gedib çıxır.

Elm ardınca diyar-diyar gəzən Seyid Mir Həmzə ona bu yolda maddi və mənəvi dəstək olan iman və səxavət sahibi Nigar xanımın şərəfinə «Nigari» təxəllüsünü götürmüşdür. (Nigar xanım zəngin bir şəxsin həyat yoldaşı olmaqla Mir Həmzəylə ölüncə dostluq etmişdir).

Həmzə Nigari təhsilini Şəkinin Dəhnə kəndində almışdır. Sonra isə böyük sufi mütəfəkkiri Mövlanə Xaliddən dərs almaq üçün səyahətə çıxmışdır. Xarputa çatanda Xalidin vəfat etdiyini eşitmiş, oradan Sivasa getmişdir.

Həmzə Nigari Sivasda olarkən, Mövlanə İsmayıl Siracəddin Şirvaninin adını eşitmiş, ona mürid olmaq üçün yola çıxmışdır. O Azərbaycanda olarkən, Rus dövlətinin təzyiqləri ilə üzləşmiş, yenidən Türkiyəyə - Sivas şəhərinə qayıtmışdır. Mürşidi Siracəddin Şirvaniyə də burada yetişmişdir. Həmzə Nigari burada təsəvvüf elminin sirlərini öyrəndikdən sonra, mürşidindən icazə alaraq, ziyarət səfərinə çıxmışdır. Əvvəlcə Konyaya gedib, Mövlanə Cəlaləddin Ruminin türbəsini ziyarət etmiş, sonra isə Məkkə, Mədinə, Şam, Qüds şəhərlərinə gedərək, müqəddəs yerləri ziyarət etmişdir.

Ziyarətini tamamlayıb, Amasiyadan dönən Həmzə Nigari, irşad fəaliyyəti göstərmək üçün mürşidi Siracəddin Şirvanidən icazənamə almışdır.

Malik Əjdər türbə kompleksi.
Laçın rayonu, Cicimli kəndi

Həmzə Nigari İrşad fəaliyyətinə Bərgüşad və Bərdə ərazisində başladı. Daha sonra Qazax bölgəsində geniş fəaliyyət göstərmiş, ətrafına minlərlə mürşid toplamışdır. (Qarabağ mahalında «Şıx əfəndi» Qazax bölgəsində isə «Həzrət Pir» təxəllüsü ilə məşhur olmuşdur.

VVətənpərvər və azadlıqsevər olan Mir Həmzə Azərbaycanın Rusiya dövlətinin əsarətində qalmasına dözə bilmirdi. Xalqı çar hökumətinə qarşı üsyana qaldırmaq üçün təbliğat aparır və əqidədaşı Şeyx Şamilin ruslara qarşı apardığı müharibəyə canlı qüvvə və maddi yardımla vaxtaşırı dəstək olurdu. Çar hökuməti bunu bildiyindən, Mir Həmzə Seyid Nigarinin gizli şəkildə ölümünə qərar verir. Bir neçə dəfə Şeyxə qarşı sui-qəsd təşkil edilsə də Allah öz dostunu bütün təhlükələrdən hifz etmişdir. Nəhayət, bu böyük sufi mütəfəkkiri mühacirət etmək məcburiyyətində qalır. Bir neçə ay Qubadlı rayonunun Çələbi kəndi yaxınlığında

Hərtiz dağındakı mağarada gizlənir. Burada ona Səfər adlı mömin bir şəxs qulluq edir.

Nəhayət, gizli yollarla Osmanlı dövlətinə mühacirət edən Nəqşibəndi Şeyxi Həmzə Nigari Krım müharibəsindən sonra, Ərzurumun Bakurlar məhəlləsinin məscidindəki dərsxanada üç il dərs verdi.

Həmzə Nigariyə müraciət edənlərdən Kim olursa-olsun, əvvəlcə müraciət edənin halını, səviyyəsini diqqətlə tədqiq edər, ona görə də rəftar edərdi. Yəni, misal üçün dərviş olmaq istəyən şəxsin fitri qabiliyyətini tədqiq etdikdən sonra, ona istedadına görə tapşırıq verərdi. Bəzisinə də fərz olan ibadət etməsini və haramdan çəkinməsini tapşırmaqla kifayətlənərdi.

İnabətdəki təlim üsulu

Müridin idrak və zəkasına uyğun onun anlaya biləcəyi səviyyədə mütaliə tapşırar, artıq yükləmədən çəkinərdi. Müridinin anlamaqda çətinlik çəkəcəyi ifadələri işlətmirdi. Onun qüdsi nəfəsləri o qədər təsirli idi ki, ən bəsit ifadələri belə dinləyicisinə zövq verər və anlaşılardı.

Başına ürfan tacını qoyub dərsə və ya ibadətə girərkən, bam-başqa bir hal alarmış. Üzünü bir nur, bir işıq haləsi bürüyər, riqqətdən tələbələrinin bir çoxunun ürəyi gedərmiş.

Ərzurumdan İstanbula gələn Həmzə Nigari bir müddətdən sonra Amasiyada məskunlaşmış, təfsir və hədis elmlərini tədris etməklə yanaşı, təsəvvüfü fəaliyyətlə də məşğul olmuşdur.

Nəqşibəndi şeyxi kimi tanınan və ətrafına çoxsaylı müridlər toplanan Həmzə Nigarinin nüfuzundan narahat olan Sultan Əbdülhəmid onun Xarputa sürgün edilməsinə fərman verir.

Həmzə Nigari 1886-cı ildə dünyasını dəyişdi.

Vəfatından əvvəl Xarput valisindən Amasiyada dəfn olunmasını xahiş etdi. Vali Amasiyanın 8 günə dəf ediləcək bir məsafədə olmasını və bu müddətdə cəsədin iylənəcəyini əsas gətirib, vəsiyyətə etiraz etmək istədi. Şeyx cavabında: «80 il «Allah-Allah» deyən bu bədən 8 günə qoxuyacaqsa, qoy qoxusun»-deyir. Vəsiyyətinə uyğun olaraq, cənazəsi Amasiyaya gətirilərək, burada dəfn olunmuşdur. Qarabağdakı müridlərinin yardımı ilə türbəsi və Şeyxin adına məscid inşa edilmişdir.

Həmzə Nigarinin «Fütuhati-məkkiyyə»yə yazdığı «Təvzihat», türkcə və farsca Divanı, «Nigarnamə» və «Saqinamə» adlı əsərləri vardır.

Aşağıda adları çəkilən məşhur övliyalar şeyx Həmzə Nigaridən dərs almışlar.

1) Hacı Mahmud əfəndi Qərani (Qazax rayonu)
2) Mir Seyid Həsən Hüsnü əfəndi əd-Dağıstani
3) Ağarəhim Ağa Dilbazi
4) Qazi Osman əfəndi
5) Şahnigar Xanım Rəncur
6) Hacı Teyyub əfəndi
7) Hacı Zəkəriyyə əfəndi
8) Hacı Mustafa əfəndi
9) Postlu Hacı Mahmud əfəndi

HACI MAHMUD ƏFƏNDİ ASLANBƏYLİ

Rəhman və Rəhim olan Allahın adı ilə

«Allaha və peyğəmbərlərinə iman gətirən və onların heç birini digərindən ayırmayan şəxslərə Allah özü mükafatlarını verəcəkdir. Şübhəsiz ki, Allah bağışlayandır, rəhm edəndir!» *Quran, «Qadınlar» surəsi, 152-ci ayə.*

Allahın mükafatlandıraraq övliyalıq mərtəbəsinə yüksəltdiyi mömin bəndələrindən biri də Hacı Mahmud Əfəndidir.

Hacı Mahmud Veysəl Qərani oğlu 1835-ci ildə Qazax rayonunun Aslanbəyli kəndində anadan olub. Soy kökü VII əsrdə yaşamış, Həzrəti Peyğəmbərimizin yaxın dostu, böyük övliya Uveys əl-Qəraniyə (Veyis Babaya) qədər gedib çatdığı bildirilir.

İlk təhsilini atasından alan Hacı Mahmud Əfəndi, sonralar ərəb və fars dillərini dərindən öyrənmişdir. Təhsilini artırmaq məqsədilə bir müddət Şəkidə zahiri və batini elmləri öyrənir. Təhsilini tamamladıqdan sonra, yenidən Qazaxın Aslanbəyli kəndinə qayıdır. Burada elmi bilikləri təbliğ etmək üçün mədrəsə tikdirir. Bu mədrəsəyə tezliklə ətraf rayonlardan çoxlu sayda tələbələr toplaşır.

1870-ci illərdə Hacı Mahmud Əfəndi Türkiyənin Amasiya şəhərinə gedərək, orada nəqşibəndi şeyxi Mir Həmzə Seyid Nigariyə intisab etmişdir. Seyr və sülukunu tamamladıqdan sonra Həmzə Nigari Hacı

Mahmud əfəndiyə icazənamə vermiş və Qazax bölgəsində irşad fəaliyyəti göstərməsini tapşırmışdır.

Mahmud Əfəndi Aslanbəylidə bir müddət irşad fəaliyyəti göstərdikdən sonra Həcc ziyarətinə getmişdir.

Həzrəti Peyğəmbərimiz buyurur: «Bir neçə şəxsə qibtə etmək olar: elminə əməl edib onu xalqa öyrədənə və var –dövlətini Allah yolunda sərf edənə». Hər iki halı Hacı Mahmud Əfəndinin həyatında müşahidə etmək mümkündür. Belə ki, o, həm elmə əməl edərək onu təbliğ edir, həm də var-dövlətindən Allah yolunda İslam dininin dirçəlişi üçün istifadə edirdi.

Qərbi Azərbaycandan – Qaraçöp mahalından, Zəngəzur mahalından, Göyçə mahalından çoxlu sayda müridlər, Hacı Mahmud Əfəndinin tikdirdiyi məktəbdə təhsil almışlar ki, bu müddətdə onların yemək və yaşamaq xərclərinin hamısını Əfəndi öz üzərinə götürmüşdür.

Hacı Mahmud Əfəndinin yaşadığı və fəaliyyət göstərdiyi ev

O, müridlərinin yemək və yaşayış xərclərini ödəmək üçün meyvə bağı salmış, İncə çaydan böyük xərc hesabına kəndə su çəkdirmişdir. (Bu gün də Aslanbəyli kənd camaatı həmin sudan istifadə edir.) Hacı Mahmud Əfəndi xanəgahın bütün təsərrüfat və maliyyə işlərini ən etibarlı və təqvalı müridi Əhməd Qaramana tapşırmışdı.

Çar Rusiyasının əleyhinə danışdığına görə iki dəfə qısa müddətə həbs olunub. Əvvəlcə Qazaxda «Şəkərin qalası» deyilən qalada saxlanılıb. (İndi həmin yer əsəb xəstəlikləri xəstəxanasıdır). Sonra Tibilisidə «Tamara qalası» deyilən qalada saxlanılıb. Həbsxanada olarkən bir çox kəramətləri üzə çıxıb. Belə ki, hər namaz vaxtı çatanda həbsxana kamerasının qapısındakı qıfıl qüdrəti-İlahidən açılarmış və Hacı Mahmud Əfəndi çıxıb, çöldə dəstəmaz alıb, namaz qılıb, sonra qayıdarmış. Həbsxana gözətçilərini tez-tez dəyişsələr də, bunun qabağını ala bilmirlər.

Hacı Mahmud Əfəndi Həmzə Nigariyə çox böyük sayğı və hörmət bəsləmişdir. Nigarinin qəbri üzərindəki türbə və məscidin tikilməsi də bilavasitə Hacı Mahmudun təşəbbüsü və səyi ilə olmuşdur.

Hacı Mahmud Əfəndi 1891-ci ildə dünyasını dəyişdi. Vəfatından əvvəl rus məmurları ona osmanlı dövlətinə köçməyi tövsiyə etmişdilər. Hacı Mahmud Əfəndi vəsiyyətinə uyğun olaraq, Aslanbəyli kəndində müridi Seyid Yasin adlı şəxsin yanında dəfn edildi. Kürəkəni Mustafa ağa Miralayevin və müridlərinin köməyi ilə qəbri üzərində günbəz tikilib. Hacı Mahmud Əfəndinin məzar daşında «Ya Allah, Ya Seyid Nigari, Ya Həzrət Mövlanə» və Şeyxin öz adı yazılmışdır. Həmçinin günbəzdəki Daş kitabələrdə

Hacı Mahmud Əfəndinin qəbirüstü günbəzi

Füzulinin və Həmzə Nigarinin qəzəllərindən parçalar həkk olunmuşdur.

Hacı Mahmud əfəndinin Məhəmməd, Əhməd və Veyis adlı üç oğlu, Aişə və Sayalı adlı iki qızı olmuşdur.

Nəqşibəndiyyə təriqətinin əsas prinsipləri

Əbdulxaliq Gücdüvani tərəfindən tənzim edilən on bir əsas prinsip Nəqşibəndiyyə təriqətinin təməlini təşkil edir.

1.Vukufı-Zamani: hər an və hər halın qiymətini bilmək

Belə ki, mənəvi yolçuluğa çıxmış olan müridin davamlı olaraq keçən zamanı dəyərləndirməsi, ona vaqif olmasıdır. Mürid bütün varlığı ilə boş vaxt keçirməməyə çalışmalı, bütün zamanını yaxşı dəyərləndirməlidir. Hər zaman Haqqı düşünməli, Ona qafil olmamalıdır. Sözünə, işinə və bütün hallarına nəzarət etməli, hətta Allah-Təalanın özünü müraqəbə etdiyini hiss etməlidir.

2.Vukufı-Ədədi: zikr əsnasında saya riayət etmək.

Mürid verilən dərsin ədədinə də vaqif olmalıdır. Zikrdən məqsəd insanın özünü Haqqa yaxınlaşdırmasıdır. Zikrdən gözlənilən əsas qayə, zikr edənin qəlbinin Allah-Təala ilə hüzura yetişməsidir. Zikrdə saya diqqətin üstünlüyü olmaqla birlikdə əsl olan kəmiyyət deyil, keyfiyyətdir. Mürid zikr sayı az olsa da zikr edilən zata qarşı qəlb hüzuruna sahib olmalıdır.

3. Vukufı-Qəlbi: qəlbi oyaq saxlamaq.

Zikr edən adam hər zaman könlünü Allaha qarşı oyanıq saxlamalıdır. Həmçinin qəlbi vukuf zikrin şüuruna varmaqdır. İnsan bu şüur sayəsində etdiyi zikrin faydasını görə bilər. Nəqşibəndiyyə təriqətində zikr edənin zikr anında sol döşünün altına baxmasından murad, «Lafzai-Cəlal»ı o məhəkdə müşahidə imkanı axtarmasının vüsul məqsədi üçün faydalı qəbul edilməsindəndir. Qəlbə nəzarət ora Haqqın təcəllilərinin dolmasına zəmin hazırlamaqdır.

4. Hus Der Dəm: nəfəs alıb verərkən qəflətdə olmamaq.

Huş, ağıl mənasındadır, dəm isə nəfəs deməkdir. Huş der dəm isə nəfəs alıb verilmə əsnasında oyanıq olmaq, qəflətdən qorunmaqdır. Nəfəsləri qəflətdən qorumaq qəlbi hüzura qovuşdurur. Hüzurda alınan hər nəfəs Allah-Təalanın «Hayy» adının bir təcəllisidir. Nəfəs alıb verilmələrdə qəflətdən uzaqlaşmaq çox çətin işdir. Müridin bir tərəfdən tövbə-istiğfar edərək qəflət hallarından təmizlənməyə çalışması da seyr və süluk üçün lazımlıdır.

5. Nəzər Ber Qədəm: ayağa nəzər

Mənəvi yolçu (salik) varlıq məsafələrini tamamlamaq üçün qeyrət sərf etməlidir. Nəzər ber qədəmin sosial həyatımızda böyük faydaları vardır. Yeriyərkən özünə baxan adam masiva ilə çox məşğul ola bilməsi, ətrafa baxıb dalmaq qəlbi pərdələyər. Önünə baxan insanda alçaq könüllülük xüsusiyyətləri qüvvətlənir.

Nəzər Ber qədəm davranışının üstün qeyrətdən yarandığı da düşünülmüşdür. Zira Peyğəmbər (s.a.s) yeriyərkən sağa-sola baxmazdı. Ayağa baxmaqda

ədəb vardır, həddini bilmək vardır, Rəsulallahın (s.a.s) sünnətinə uymaq vardır.

6. Səfə Dər Vətən: Xalqdan haqqa səfər

Bədən yerli-yerində olduğu halda ruhən seyr və süluk səfərinə çıxmaqdır. Səfər dər vətən müridin xalq aləmindən Haqq aləminə səfəridir.

Dərvişlərin feyz ala biləcəkləri bir insanı tapıncaya qədər səfər etməsinə də bu ad verilmişdir. Mürşid axtarmaq üçün edilən bu səfər zahiri səfərdir. Bu təriqət mənsubları müridlərini – zərurət xaricində – zahir səfərdən azad edirlər. Çünki bu hal müridin müxtəlif çətinlikləri qarşısında ümidsizliyə qapılıb mənəvi yolçuluğunu tamamlanmasına mane ola biləcəyi kimi, yolçuluq anında fərz və sünnətləri tərk etməsinə də səbəb ola bilər.

7. Xəlvət Dər Əncümən: camaat içərisində xəlvətdə olmaq

Xəlvət dər əncümən, müridin maddi varlığını xalq ilə məşğul olarkən könlünün Haqq ilə hüzur tapmasıdır. Bəhaəddin Nəqşibəndiyyə təriqətinin xəlvət dər əncümən təməli üzərində qurulduğunu söyləyərək bu əsasın üstünlüyünü nəzərə çarpdırmışdır. İnsanın qəlbi zikr sayəsində son dərəcəyə çatdığı zaman daimi zikr halı meydana gəlir. Görəcəyi hər işdə Allah Təalanın rizasını qazanmağa çalışır.

Bu təriqət söhbət təriqətidir. Əsl mömin xalqa qarışan, çətinliklər qarşısında səbr göstərən, gücün nisbətində möhtacların əlindən tutan, bir sözlə, Haqq üçün xalqa xidmət edən insandır.

8. Yad Kərd: zikr etmək

İnsanın müraqəbə mərtəbəsinə yetişdikdən sonra isbatı müəyyən miqdarda dillə etməsidir. Ney ilə isbatdan meydana gələn tövhid dodaqlardan riyasız tökülərsə qəlbi parladır. Mövlanə Sadəddin Qaşqari (ö. 860/1456-57) zikr əsnasında şeyxin qəlbi ilə «La ilahə İllallah, Məhəmmədün Rəsulallah» deyərkən, müridin də özünü hüzurla şeyxinin könlü qarşısında göstərib gözünü qapayıb, ağzını sağlam tutub, dilini damağına yapışdıraraq, dişlərini bir-birinin üzərinə qoyub, nəfəsini saxlayaraq, ixlasla bu hala davam etməsi, qəlbi ilə söyləyib dili ilə susmasının lazımlığına işarə edi**r.**

9. Baz Geşt: qayıdış

Baz geşt nəfəsini saxlayıb nefy və isbat zikrini etdikdən sonra nəfəsini sıxan zaman «İlahi əntə məqsudi və rizakə matlubi» cümləsindəki mənanı düşünməkdir. Bu düşüncə nefy və isbatın mənasını qəlbə nəqş edir. Zikr edənin könlündə tövhid sirri təcəssüm edir, beləcə xalqın varlığı gözlərdən silinir, məqsəd olan gerçək vahid aşkar olur.

10. Nigah Daşt: mühafizə

Haqqın təcəlligahı olan qəlb evinə, onun uca zatına uyğun olmayan xatirələrin girməsinin qarşısını almaqdır. İnsandakı xəyal gücünün öz-özünü vəzifəsindən azad etməsidi

11. Yad Daşt: nigah daştı dərinliyinə qədər anlamaq

Dil ilə demədən Allaha dönüş halını mühafizə etməkdir. Zikrdə hüzur halına girmək və şuhud halına çatmaqdır.

HACI MAHMUD BABA KÜRDƏMİRLİ

Hacı Mahmud Tahir oğlu Şirvan xanlığının Bölükət mahalının Kürdəmir kəndində anadan olmuşdur.

Hacı Mahmud Baba hələ gənc yaşlarından Mövlanə İsmayıl Şirvaninin müridi olmuşdur. Onun Kürdəmirdə təşkil etdiyi nəqşibəndiyyə mərasimlərində seyr və sülukunu tamamlamış, Şeyxi Türkiyəyə hicrət etdiyi vaxt, onun verdiyi icazənamə ilə Kürdəmirdə irşad məqamına keçmişdir. Mövlanə mühacirət edərkən, Şirvandakı müridlərinin irşadını və qohumlarına nəzarət etməyi Hacı Mahmud Babaya tapşırmışdır.

İsmayıl Şirvani ardıcıllarından olan, Nəqşibəndiyyə Şeyxi Cəmaləddin əl-Qumuği "Nəqşibəndliyin Qızıl Silsiləsini" belə açıqlayır

".....Sizə mənşəyindən günümüzə qədər gələn başlıca şeyxləri sayaraq, Nəqşibəndiyyə təriqətinin silsiləsini anladacağam (Allah sənə bilmədiklərini öyrətsin).

Mömin şəxslər əvvəllər də müridlərinə möminliyi öyrətmək üçün şeyxlərinin və onların soyundan gələnlərin əxlaqlarını öyrətməyi də adət etmişdilər.

Mən də Nəqşibəndiyyə silsiləsini anladacağam və bu işə ruhumu, məxluqatın əfəndisi, peyğəmbərlərin qütbü, dindar insanların qəlbi, bütün islami təriqətlərin ustadı, bu təriqətləri Cəbrayıl vasitəsi ilə uca Allahdan alan, Allahın bütün insanların arasında seçdiyi Həzrəti Məhəmmədə (s.a.s.) yönəldərək başlayıram.

Həzrəti Peyğəmbər (s.a.s.) bu yolu əfəndimiz xəlifələrin ən şərəflisi və möminlikdə birinci durumda olan Həzrəti Əbu Bəkirə ötürdü. Həzrəti Əbu Bəkr bu yolu Həzrəti Peyğəmbərin (s.a.s.) ailəsinin bir üzvü qəbul edilən Əl-Hac Salman Farisiyə ötürdü.

Salman Farisi də təriqəti, son dərəcə dindar və Allahın lütflərinə yetişmiş, hicrətin II əsrində Mədinədə vəfat edərək Baqi qəbiristanlığında dəfn edilən imam Qasıma ötürdü. Qasım da onu Həqiqətə görə hərəkət edən imamların imamı, Cəfəri-Sadiqə ötürdü.

Cəfər-Sadiq Həzrəti Əli əleyhissəlamın soyundan olub, hicrətin 148-ci ilində Mədinədə vəfat etmiş və Baqidə atasının və babasının yanında dəfn edilmişdir.

Cəfəri-Sadiq Allahın gücü ilə gücləndirilmiş, imam, Allahı tanıyanların şahı Bayəzid Bistamiyə ötürdü.

Bəyazid Bistami də təriqəti, Allahın dostu və Onu diləyənlərin sığınağı Əbül Həsən Harakaniyə ötürdü.

Əbül Həsən də onu, qütblərin qütbü, imam Əbu Əli Fəramədiyə ötürdü.

Əbu Əli də Şeyx (Əbu Yaqub Yusif) Həmədaniyə ötürdü.

Yusif Həmədani də xalqın sığınağı Əbdülxaliq Gücdüvaniyə ötürdü.

Əbdülxaliq Gücdüvani də onu insan sifətindən təmizlənmiş, imam, övliyaların qütbü, şeyx Arif Rivgeriyə ötürdü.

Arif Rivgeri də dünyəvi qayələrdən tamamilə sıyrılmış olan, şeyxlərin şeyxi Mahmud İncir əl-Fağneviyə ötürdü.

Mahmud İncir də özünü Allah eşqinə həsr etmiş, imam Həzrət Əzizan adı ilə tanınan Əli ər-Ramiteniyə ötürdü.

Əli də tamamilə Allaha yönəlib, digər hər şeyi unudan imam, övliyaların qütbü, Məhəmməd Baba əs-Səmmasiyə ötürdü.

Məhəmməd Baba da Allahı tanıma qabiliyyətlərinin qaynağı, böyük insanların şahı, imam Seyid Əmir Külalə ötürdü.

Seyid əmir də onu təriqətin imamı, insanların sığınağı, böyük ilham sahibi Şah Nəqşibənd adı ilə tanınan Məhəmməd Üveys əl-Buxariyə ötürdü.

Məhəmməd də sirlər xəzinəsinin sahibi, qütblərin qütbü Əlaəddin Əttar adı ilə tanınan Şeyx Məhəmməd əl-Buxariyə ötürdü.

O da əfəndimiz (mövlanə) Hisarlı İmam Yaqub Cərhiyə ötürdü.

O da Xacə Əhrar adı ilə tanınan Səmərqəndli Şeyx Abdullaha ötürdü.

O da şeyxlərin şeyxi, mövlanə Məhəmməd Zahidə ötürdü.

O da əmisioğlu, şeyx, imam, mövlanə Dərviş Məhəmmədə ötürdü.

O da möhtərəm oğlu mövlanə Xacə əs-Səmərqəndi əl-Amlanakiyə ötürdü.

O da ilahi eşq qədəhinin doldurucusu, güclü iman sahibi, qütb Şeyx Məhəmməd Baqiyə ötürdü.

O da təriqəti kəramətlər sahibi, sirlərin qaynağı, İmam Rəbbani ismi ilə tanınan Şeyx Əhməd Faruqi Sirhindiyə ötürdü.

O da öz sirlərini əlində saxlayan oğlu, şeyxlərin şeyxi Məhəmməd Məsuma ötürdü.

O da həqiqət dənizində boğulan, oğlu, haqq dostlarının şahı Şeyx Səfiəddinə ötürdü.

O da ilahi müşahidə və haqqı tamaşa sahibi, böyüklərin şahı, imam Bədvanlı Seyid Nur Məhəmmədə ötürdü.

O da böyük imam, həqiqət günəşinin seçilmişi Həbibullah Maravcaniyə ötürdü.

O da qütbül-övliya, təmizlik nümunəsi, zahiri və batini mükəmməlliyə sahib olan Dehlili Şeyx Abdullaha ötürdü.

O da doğruluğun qütbü, Allah aşiqi, əfəndimiz, imanın nuru Süleymaniyyəli Şeyx Xalidə ötürdü.

O da xalqın sığınağı və həqiqət xəzinələrinin sahibi, böyük imam Kürdəmirli Şeyx İsmayıla ötürdü...

Yuxarıda qeyd etdim ki, Mövlanə İsmayıl Şirvani Türkiyəyə mühacipət edərkən, Kürdəmirdə irşad fəaliyyəti göstərmək üçün öz yerinə Şeyx Hacı Mahmud Babanı təyin etmişdir.

Hacı Mahmud Baba 1859-cu il iyulun 26-da Bakı hərbi qubernatorunun 9157 nömrəli sərəncamı əsasında, müridi Molla Mirzə Usta Kərim oğlu ilə birlikdə Bakı şəhərinə məcburən göndərilmişdir. Məqsəd onun müəyyən müddət polisin nəzarəti altında yaşaması idi. Lakin həmin ilin oktyabrın 28-də qubernator onun Kürdəmirə qayıtmasına icazə vermişdir.

Bakı quberniyasının qazisi Diyallı Hacı Məcid Əfəndi Ömər Faiq Nemanzadəyə Hacı Mahmud Baba haqqında belə nəql etmişdir:

"*Bir gün evdə oturmuşdum. Birdən ürəyimə düşdü ki, filan Hacı ilə birlikdə Şeyx Mahmudun ziyarətinə gedim. Arzumu Hacıya bildirdim. On beş dəqiqədən sonra qapıda hazır olan köhlən atlara minib, yola düşdük. Yolda Hacıya dedim ki, atları bir az daha yeyin sürək, Şeyx babamı gözlətməyək. Bir az sonra qurban olduğum babamın evi önündəki bağçaya yaxınlaşdıq. Gördük ki, eyvanda qolları çirməkli bizi gözləyir. Ona yaxınlaşar-yaxınlaşmaz Mahmud Baba dedi: "Sizi gözləyirdim ki, günorta namazını birlikdə qılaq! Sizin üçün hazırlatdırdığım aşı da bərabər yeyək". Doğrudan da namazı bərabər qıldıq, aşı da bərabər yedik*".

Şeyxlərin var-dövlətindən bəhs edən və 1863-cü ildə tərtib edilən rəsmi sənəddə Hacı Mahmud Baba Kürdəmirli ən kasıb şeyx kimi qeyd olunub. Göstərilir ki, 80 yaşı olmasına baxmayaraq, hələ də fiziki işlə məşğul olur. Bu səbəbdən şeyxin xalq arasında nüfuzu daha güclüdür.

Şeyx Hacı Mahmud Babanın müridləri haqqında tərtib edilən arayışlarda onların siyahısına da rast gəlinir:

1. Sufi Bəkir
2. Sufi Məhəmməd
3. Sufi Əyyub Mahmud oğlu
4. Osman Əhməd oğlu
5. Mehmed (Mahmud)
6. Manaf Hüseyn oğlu
7. Ömər İbrahimxəlil oğlu
8. Molla Əhməd Manaf oğlu
9. Sufi Qasım Hacı Məmməd oğlu və s.

Şeyxin əksəriyyəti Şamaxı qəzasından və Qəbələ dairəsindən olan 500-ə qədər müridi vardı.

Hacı Mahmud Baba 1864-cü ildə vəfat etmiş, Kürdəmir rayonunun Şahsevən qəbiristanlığında dəfn olunmuşdur. Qəbri üzərindəki ağ gümbəz 1870-ci ildə oğlu Hacı Mustafa Əfəndi tərəfindən tikilmişdir.

Şıx Mahmud Babanın günbəzi. Kürdəmir rayonu, Şahsevən kəndi

Şeyx Mahmud Babanın Hacı Murad, Hacı Yəhya və Hacı Mustafa adında üç oğlu vardı.

Hacı Mahmud Baba dünyasını dəyişdikdən sonra, oğlu Hacı Mustafa Əfəndi irşad fəaliyyəti göstərmişdir. O, öz şəxsi vəsaiti ilə Yenikənddə məscid tikdirmiş, sovet dövrünə qədər həmin məsciddə zahiri və batini elmlər tədris olunmuşdur.

Hacı Mustafa Əfəndi 1320 hicri ilində dünyasını dəyişəndə yerində irşad məqamına oğlu Molla İbrahim keçmişdir.

ŞEYX MAHMUD BABA

Rəhman və Rəhim olan Allahın adı ilə

Kəraməti və fəziləti ilə bütün Şirvanda məşhur olan Şıx (Şeyx) Mahmud Baba, Göyçayın Mallı-şıxlı kəndində yaşayıb. Şeyx maldarlıqla məşğul olduğundan, kəndin adı da buradan götürülmüşdür. Mahmud Baba qışda Mallı-Şıxlıda, yayda isə Şamaxı rayonunun Kalaxana kəndində yaşamışdır. Şeyxin qəbri Kalxanadakı "yeddi günbəz" adlanan ziyarətgahdakı günbəzlərdən birindəndir. Akademik B.Dornun yazdığına görə, bu günbəzlərdə dəfn olunanlar Şeyx Dursunun nəslindəndirlər.



Yeddi günbəz. Şamaxı, Kələxana kəndi

eyx Dursunun məqbərəsi Ağsu şəhəri yaxınlığında yerləşir və xalq tərəfindən daim ziyarət olunur. Məqbərənin üzərindəki daş lövhədə ərəbcə aşağıdakı sözlər yazılmışdır:

"Bu xoş ziyarəti – müqəddəs (ziyarətgah) və işıqlı məqbərə, övliyaların görkəmlisi Şeyx Dursun ibn Əhməd Padarındır. Onun ölümü haram zilhiccə ayı, səkkiz yüz birinci ildə (miladi 1399) baş vermişdir".

(Tərcümə tarixçi Alim Məşədixanım Nemətə məxsusdur).

Daş kitabə xarab olduğundan, çətin oxunur. Odur ki, tarixçi alim C.Aleksondroviçin kitabında kitabənin rusca

məzmunu verilmiş və Şeyx Dursun "müctəhid", atası Əhməd "Gilani", Şeyxin ölüm tarixi isə hicri 806-cı il

Şeyx Dursunun qəbrinin kitabəsi

yazılmışdır.

Şeyx Dursun türbəsi haqqında akademik B.Dornun fondunda da məlumat verilir. Məlumatda Şeyxin ölüm tarixi hicri 781-ci il kimi göstərilir. Məlumatda daha sonra deyilir: "Şeyx Dursunun əsli Şirvan əhlindəndir. Xançobanı mahalından, padar tayfasındandır. Şeyx Dursun ibn Əhməd padar şərəfli bir adam olub ki, qoşun hissəsindən Kalaxana qəryəsinin vaqe olan məşhur yeddi günbəzlər bu Şeyx Dursunun övladlarındandır".

Yuxarıda qeyd etdim ki, Kalaxanadakı yeddi günbəzdən biri Şeyx Mahmuda məxsusdur. Digər günbəzlərdən birinin üzərindəki kitabədə Gilğari şeyxlərindən Şeyx İsrafilin oğlu Əmir Əhmədin oğlu Şeyx İbrahimin adı çəkilir. O, hicri 1074-cü ildə (miladi 1663-1664-ci illərdə) vəfat etmişdir.

Bəzi məlumatlara görə, Şeyx Mahmud Babanının nəsli Şirvanşahlar dövlətinin şahı Şirvanşah Şeyx İbrahim Xəlilullaha qədər gəlib çıxır. Qeyd edim ki, 1382-1417-ci illər ərzində Şirvanşahlar dövlətinin şahı olan Şeyx İbrahim Xəlilullah, Teymurlənglə müttəfiq olmuş və öz hakimiyyəti dövründə Azərbaycandakı xanlıqları birləşdirməyə nail olmuşdur.

Möcüzəli əsa

Yuxarıda qeyd etdim ki, Şıx Mahmud Babanın qəbri Şamaxı rayonunun Kalaxanı kəndində olsa da, nəslindən olanlar Göyçay rayonunun Mallı-Şıxlı kəndində yaşamaqdadırlar. Kənddə olarkən, Şeyxin törəmələri ilə görüşdüm. Ulu babalarının kəramətinə dair maraqlı əhvalatlar danışdılar ki, onlardan bəzilərini diqqətinizə çatdırıram.

İsmayılov Tofiq Hacı oğlu-Mallı-Şıxlı məktəbinin direktoru:

Şirvanşah I İbrahim Xəlilullah

– Şeyxin yaşadığı kənddə su gəlmədiyindən, camaat çox əziyyət çəkirmiş. Baba görür ki, camaat toplaşıb çayın qırağına kəndə tərəf arx qazırlar. Amma ərazi dağlıq təpəlik olduğundan nə qədər çalışsalar da, suyu kəndə tərəf yönəldə bilmirlər. Şeyx Mahmud camaata deyir, siz qabaq da gedin, mən də arxanızca

Şeyxin əsası

gəlirəm. Heç kim geri baxmasın. Beləcə camaat qabaqda, Şeyx isə arxada, çaydan kəndə doğru hərəkət edirlər. Birdən adamlardan biri geri baxır və görür ki, Baba əlindəki əsanı arxasıyca sürüyür, əsanın süründüyü yerdən, kənlə doğru su gəlir. Adam sevincindən özünü saxlaya bilməyib, qışqırır. Camaat geri baxanda, gördükləri möcüzədən heyrətlənirlər və elə həmin andaca Şıx Mahmud Babanın əlindəki əsa ortadan qırılıb.

Şeyxin əsasının qırığı bu günə qədər Göyçay rayonunun Mallı-Şıxlı kəndində, nəslindən olan adamın evində saxlanılır.

Ulağı xilas edən şeyxin qıçı qırıldı

İsmayılov Elsəvər Mahmud oğlu Mallı-şıxlı kənd sakini, Şeyxin törəməsi:

– Deyilənə görə, Şamaxı rayonunun Kələxanı kəndindən olan bir nəfər ulağının belinə buğda kisələrini yükləyib, ensiz dağ cığırı ilə irəliləyirmiş. Birdən ulağın ayağı sürüşür, dərəyə tərəf sürüşməyə başlayır. Bu vaxt ulaq sahibi qışqırır ki, «Ay Şıx Mahmud baba köməyə çat». Kişi belə demişdir ki, hansı bunları yüklə bərabər qaldırır cığıra qoyur və yollarını davam edirlər. Rəvayət edirlər ki, həmin anda evindəki taxta uzanan Şıx Mahmud baba qəflətən qışqırır, həyat yoldaşını çağırır ki, qıçım qırıldı. Həyat yoldaşı yaxınlaşır, əlini vurur görür ki, həqiqətən yatdığı yerdə ərinin qıçı qırılıb.

Hacı Əziz Baba

Şıx Mahmud baba dünyasını dəyişəndən sonra, onun yolunu oğlu (və yaxud nəvəsi) Hacı Əziz Baba davam etdirmişdir.

XIX əsrdə yaşayan Hacı Əziz Baba kəramət sahibi olmaqla yanaşı, həm də böyük sərvətə malik olmuşdur. Deyilənə gör o, hm də yüzbaşı olmuşdur.

Öz elmi, imanı və səxavətiylə Allaha yaxınlaşan Əziz Baba, övliyalıq məqamına qədər yüksəlmişdir. Sərvətini Allah yolunda sərf etməkdən çəkinməzdi. Doğma kəndi Mall-şıxlı çökəkdə yerlşdiyindən, buranın qəbirstanlığından su çıxarmış. Odur ki, Hacı Əziz Baba Potu kəndində Nuh adlı bir mülkədardan qəbirstanlıq üçün torpaq sahəsi alıb. Bu günə qədər də kənd camaatı həmin qəbirstanlıqdan istifadə edir.

Bundan əlavə övliyanın öz şəxsi vəsaiti hesabına tikdirdiyi su dəyirmanı son dövrlərə qədər xalqın istifadəsində olmuşdur. Hacı Əziz Babanın tikdirdiyi məscid isə, sovet dönəmində baxımsızlıqdan, uçulub dağılmışdır.

Hacı Əziz Baba ilə Həcc yolçuluğuna çıxanlar söhbət edirlərmiş ki, isti yay günündə Ərəbistan səhrasında dəvə ilə gedərkən, karvanın su ehtiyatı tükəndi. Zərvarlar susuzluqdan əziyyət çəkmişlər. Əziz Baba adamlardan aralanıb namaz qılır və Hacı Mahmud Babadan ona miras qalan möcüzəli əsanı yerə vurur. Bu vaxt Qüdrəti-İlahidən yerdən su qaynamağa başlayır. Karvan əhli bu sudan doyunca içir və qablarını doldurub, yola düzəlirlər. Həcc yolçuluğu və mərasimi vaxtı göstərdiyi bu və digər

möcüzələri, kəramətləri görən Səudiyyə Ərəbistanın kralı şəxsən Hacı Əziz Babanı qəbul edir və ona qızıl suyu ilə yazılmış çox nadir və qiymətli Quran kitabı hədiyyə edir. (Sonralar bu kitab oğlu Hüseynə qalır. Onun ölümündən sonra isə Mallışıxlı kəndinin mollası Hacı Məmməd həmin kitabı bir neçə günlüyə götürmüş, amma geri qaytarmamışdır. O da rəhmətə gedndən sonra, deyilənə görə həmin kitab Xəlitli kəndində kiminsə əlinə düşmüş, lakin üzə çıxarmamışdır.) Hacı Əziz Baba üç dəfə Həcc ziyarətində olmuşdur.

Mülkücahan adlı qızla ailə quran övliyanın Hüseyn və Ağakərim adlı iki oğlu, Sədəf, Zəhra, Balaş, Bahar, Səfurə, Məleykə adlı altı qızı olmuşdur.

Hüseyn Baba

Hacı Əziz Baba dünyasını dəyişəndə, yolunu oğlu Hüseyn Baba davam etdirmişdir.

İsmayılov Hüseyn Hacı Əziz oğlu 1890-cı illərdə Göyçay rayonunun Mallı-Şıxlı kəndində doğulub. Ata-babalarının tutduğu yola sadiq qalan Hüseyn kişi dövrünün sayılıb-seçilən ağsaqqalarından olmuşdur. Onun xalq arasındakı hörmətini nəzərə alıb, II Dünya müharibəsi dövründə kəndə kolxoz sədri təyin ediblər. Uzun müddət bu və digər vəzifələrdə xalqına və dövlətinə can-başla xidmət edib.

Hüseyn Baba İsmayılova (Quliyeva) Asiya İbrahimxəlil qızı ilə ailə qurub. Bu nigahdan Əziz adlı bir oğlu, Zərif və Hənifə adlı iki qızı olmuşdur.

Əziz Hüseyn oğlu

İsmayılov Əziz Hüseyn oğlu 1974-cü ildə Mallı-Şıxlıda doğulub. Quranı atasından öyrənmişdi. Öz halallığı, düzgünlüyü və təqvası ilə babaları Şıx Mahmud Babanın, Hacı Əziz Babanın, atası Hüseyn Babanın yolunda olduğunu sübut edirdi. Kənd təsərrüfatı ilə məşğul olaraq, halal qazancı ilə yaşayardı.

Gənc olmasına baxmayaraq, Quranı dövrünün adamlarından daha yaxşı bildiyindən, ağsaqqallar onun başına toplaşar, zikr məclislərində Əzizi başda oturdardılar. Səlim şıx, Yolçu dayı, Soltan dayı və sair kənd ağsaqqalları hər gecə növbə ilə birinin evində zikr məclisləri təşkil edərdilər. Əziz belə məclisləri evində təşkil etməkdən zövq alardı. Siyara qarı onlardan xahiş edəndə ki, «Tənhayam, qapımı açan yoxdur, hərdən mənim də evimdə zikr edin, qoy bu evdən də «Allah-Allah» səsi gəlsin», onun xahişini yerə salmayıb, hərdən onun da evində zikr edirdilər.

Əziz Hüseyn oğlu

1968-ci ildə İsmayılova Xanım Mikayıl qızı ilə ailə quran Əzizin Zülfü adlı bir qızı, Möhlət, İmaməddin adlı iki oğlu dünyaya gəldikdən sonra, 28 yaşında dünyadan köçmüşdür.

Əziz öldüyü günü bilirdi

Əzizdə övliyalıq əlaməti olan uzaqgörənlik, duyum bəsirət güclü inkişaf etdiyindən, öldüyü günü hiss etmişdir. Həmin günü onun həyat yoldaşı Xanım Mikayıl qızı belə xatırlayır:

– Bir səhər yuxudan durdu, dedi bu gün mənin axırıncı günümdür, gedəcəm. İnanmadıq, dedik zarafat edir. Çünki 28 yaşı vardı, sağlam adam idi, onun öləcəyi heç kimin ağlına gəlməzdi. Həmin gün həyət-bacadakı yarımçıq işlərini görüb, qurtardı. Qızı Zülfinün saçını darayıb, hördü, oğlu Möhlətin başını sığallayıb, tapşırdı ki, ananı, nənəni incitmə, cücələrimizi öldürmə. Yüyürükdə yatan körpə oğlu İmamməddinin üzündən öpdü, dedi mən bu gün getməliyəm, tələsirəm, babalarımız məni gözləyir. Heç onu bu qədər tələsən, həyətdə bu qədər səliqə-sahman yaradan görməmişdim. Sən demə əcəlinə tələsirmiş, axşamüstü qəflətən keçindi.

– *Xanım xala, eşitdiyimizə görə gənc olmasına baxmayaraq, həyat yoldaşınız Əzizdə də kəramət olub. Bunu özünüz müşahidə etmişdinizmi?*

– Kənd yerlərində adətdir ki, qış gecələrində qohum-qonşu hər axşam bir evdə toplaşıb, söhbət edərlərdi. Bir axşam da qohumlar bizə toplaşmışdılar. Söhbət övliyalardan, onların kəramətlərindən düşdü. Qohumumun biri dedi övliyalarda heç bir üstünlük ola bilməz, onlar da bizim kimi adamlardır, bizdən fərqli deyillər. Əziz buna etiraz etdi, dedi adi adamlardan fərqli olaraq övliyalarda kəramət var, onların etdiklərini

siz edə bilməzsiniz. Mübahisə edən yenə də öz fikrindən dönmədi. Əziz hirsləndi, durdu ayağa, paltartikən iynəni götürdü əlinə, evdə odun peçi yanırdı, adi peç deyildi – həm peçin özü, həm də turbaları qalın dəmirdən «svarka» ilə bağlanmışdı. Əziz əlindəki iynəni sancdı peçin turbasına, iynə görünmədi. O qədər rahat sancdı ki, elə bil qarşısındakı pambıqdı. Mübahisə edən adam inanmadı, dedi iynəni ovcunda gizlətdin. Barmaqlarını araladı, ovcunu göstərdi, dedi indi gəl barmağını sürt turbaya, iynəni hiss edəcəksən. Adam turbadakı iynənin ucunu hiss etdi, amma nə qədər dartdı, çıxarda bilmədi. Dedi yəqin iynə əyilib. Əziz dedi əyilməyib, mən çıxararam. Çəkən kimi iynə rahatlıqla çıxdı, nə ucu qırılmışdı, nə də əyilmişdi. Bundan sonra mübahisə kəsildi. Qaynanam dedi ay Əziz turbanı niyə deşdin, peçim tüstü eləyəcək. Əziz əlini çəkdi turbaya, dedi ay ana, narahat olma, yeri bağlandı. Həqiqətən də həmin deşikdən heç vaxt tüstü çıxmadı.

– *Xanım xala, böyük övliya Hacı Bulud Babanın başmağı bu günədək sizdə qalır. Onun tarixçəsini danışa bilərsinizmi?*

– Qaynanamın babası Məmmədqulu kişi Hacı Bulud Babanın müdiri olub. O, öz mürşidindən yadigar bir şey istəyib. Baba da başmağının bir tayını çıxarıb verib Məmmədqulu kişiyə. O vaxtdan bu nəsil həmin başmağı qoruyub saxlayır.

Sovet hakimiyyəti övliyanın nəslini sürgün etmişdi

Yuxarıda qeyd etdim ki, Hacı Əziz Babanın iki oğlu, altı qızı olmuşdur. Sovet dövlətinin represiya küləyi övliyanın övladlarından da yan keçməmişdir. Belə ki, altı qızdan biri olan Balaş xanım həyat yoldaşı Əziz və qızları Zeynəb, Ayna, Züleyxa ilə birlikdə (onda hələ Əsmə adlı qızları anadan olmamışdı) Qazaxstana «mədəni» sürgün olunmuşdur. Ona görə «mədəni» yazıram ki, onları sürgün etmək üçün heç bir səbəb tapmadıqlarından, sənədlərində guya öz xahişləri ilə Qazaxstana köçdükləri qeyd edilmişdir. Nəhayət bu cür haqsızlıqlar Stalinin öz başında çatlamış və onun çərxi dönəndən sonra, övliyanın övladları da doğmalarına qovuşa bilmişlər.

Hacı Əziz Babanın getdiyi müqəddəs Həcc yolunu bu gün onun törəmələri gedirlər

Aqillər deyib ki, övladların ən xeyirlisi öz ata-babalarının yolu ilə gedənlərdir. Belə xeyirli davamçılardan biri də Hacı Əziz Babanın törəməsi olan Göyçay şəhər sakini Hacı Mələk xanımdır. İman, həya və təqva sahibi olan bu xanım, ata babalarının yoluna sadiq qalaraq, dinimizin bütün şərtlərinə əməl edir. Onunla görüşəndə müqəddəs Həcc ziyarətindən təzə qayıtmışdı. Hacı xanım söhbətə elə bu mövzudan başladı:

– Rəbbim «Qurani-Kərim»də buyurur: «**Həqiqətən insanlar üçün lk bina olunan ev Bəkkədəki evdir ki, o, şübhəsiz, bütün aləmlərdən ötrü bərəkət və doğru yol qaynağıdır. Orada aydın nişanələr –**

İbrahimin məqamı vardır. Ora daxil olan şəxs əmin-amanlıqdadır. Onun yoluna gücü çatan hər bir kəsin Həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur». (Quran, «İmran ailəsi» surəsi, 96-97-ci ayələr). Bu müqəddəs məkanı ziyarət etmək mənim çoxdankı arzum idi. Babalarımın getdiyi o müqəddəs yolu mənə də qismət etdiyinə görə Rəbbimə həmişə şükürlər edirəm.

ƏHMƏD ƏFƏNDİ BABA

Rəhman və Rəhim olan Allahın adı ilə

«Həqiqətən, iman gətirib, yaxşı işlər görənlər üçün Rəhman** (ürəklərdə) **bir sevgi yaradacaq. (Allah həm özü onları dost tutacaq, həm də onların məhəbbətini hamının, o cümlədən möminlərin qəlbinə salacaqdır). Quran, «Məryəm» surəsi, 96-cı ayə.

Allahın sevdiyi və sevdirdiyi dostlarından biri də böyük övliya Əhməd Əfəndi Babadır.

Əhməd Əfəndi Baba XIX əsrdə indiki Ucar rayonunun Ramal kəndində yaşayıb. Allahın bəxş etdiyi kəramət sayəsində, həm sağlığında, həm də ölümündən sonra (qəbri) ziyarətgaha çevrilib

Aradan neçə əsrlər keçməsinə baxmayarq, bu gün də insanlar Allaha etdiyi dualarda Əhməd Əfəndi babanı vəsilə edirlər və dualarının bir çox hallarda qəbul edilməsi, övliyanın qəbrinin və yaşadığı evin daimi ziyarət olunmasına səbəb olur.

Deyilənə görə, günorta namazı vaxtı Əhməd Əfəndi Baba həyətindəki bağa girərmiş və burada bir müddət görünməz olarmış. Həyat yoldaşı orabura baxsa da, ərini görə bilməzmiş. Bir azdan görərmiş ki, Əfəndi Baba bağdan gəlir. Bir gün qadın uşaqlardan birini tovlayıb, ərini pusmağı tapşırır ki, gör kişi namazı harada qılır. Bir azdan uşaq həyəcanlı halda qayıdıb gəlir ki, atam əsasını yerə vurdu, əsa qaldı orada, amma özü yox oldu.

Aradan bir az keçəndən sonra, görürlər Əhməd Əfəndi Baba gəlir. Arvadı soruşur ki, ay kişi, hardaydın, başmağındakı bu qar nədi bu vaxtı? Əhməd Baba duruxur və sirri açıldığına görə hirslənir. Deyir sizi kor olasınız, gərək mənim arxamca baxasınız?

Deyilənə görə, həmin gündən Babamın arvadının və uşağının gözündə şikəstlik yaranır. Maraqlıdır ki, həmin nəslin bugünkü nümayəndələrində də bu problem zaman-zaman özünü büruzə verməkdədir.

Mələklər Əhməd Əfəndi Babanı ziyarət edirdilər

Ramal kəndində olarkən, Əhməd Əfəndi Baba ilə bağlı çoxlu maraqlı söhbətlər eşitdim. Belə maraqlı söhbətlərdən birini, Ramal kənd məscidinin imamı Hacı Sahib Əfəndi danışır:

- Bir neçə il bundan qabaq, gecə gözümə yuxu getmədi. Çox çalışsam da yata bilmədim. Gecə yarı durub dəstəmaz alıb namaz qıldım. Namazdan sonra, pəncərənin qabağında dayanıb səmaya baxırdım. Birdən gördüm ki, Əhməd Əfəndi Babanın qəbrinin üstünə göydən işıq zolağı düşüb. Ulduzlar zolaq şəklində düzülüb, üç şaquli xətt yaratmışdılar və bu xəttlərin bir ucu göydə, bir ucu da Əhməd Əfəndi Babanın qəbrinin üstündə idi. Ətraf nura boyanmışdı. Ulduzlar elektrik lampası kimi düzülüb, işıq saçırdılar. Sonra fikirləşdim ki, ulduz belə balaca-balaca olmaz, yəqin bu mələklərdir ki, qüdrəti – İlahi ilə nur saçırlar. Birdən ağlıma gəldi ki, bəlkə bu görünənlər heç yoxdur, mənim gözümə

illüziya kimi görünür və yaxud, bəlkə mən qızdırmalıyam? Odur ki, qonşu otaqda yatan anamla bacımı çağırdım. Onlar gələndə, dedim ziyarətgah tərəfə baxın, görün nə görürsünüz? Heyrət içində dedilər: «Ulduzlar zolaq kimi düzülüblər Əhməd Əfəndinin qəbri üstünə. Üç xətt boyunca düzülüblər». Bundan sonra əmin oldum ki, gördüyum möcüzə həqiqətdir.

Abdullayev İsax İbniyamən oğlu – Ramal kənd sakini:

- Zavodda işləyəndə, üstümə dəmir düşmüşdü. Qolum, qıçım, daxili orqanlarım, qabırğalarım əzilmiş, sınmışdı. Sağ ayağım isə tamamilə qıçımdan aralanmışdı. Yataqdan qalxa bilmirdim. Bir neçə ay idi ki, dəhşətli ağrıdan yata bilmirdim. Özümə ölüm arzulayırdım. Bir gecə məni yuxu apardı. Yuxuda gördüm qapı açıldı, iki nəfər içəri girdi. Qabaqda gələn ağ paltarlı, ağ saqqallı, ağ saçlı nurani bir kişi idi. Arxasınca da Molla Mecid babam gədi. Qarşıda gələn kişi yanımda dayanıb, dedi mən sənin Əhməd Əfəndi Babanam, nə olub sənə?

Dedim Baba, görürsən də, vəziyyətimi, neçə aydı ağrıdan yata bilmirəm. Başıma gələnləri olduğu kimi babama danışdım.

Sözümü qurtaranda, Əhməd Əfəndi babam, üstümdəki ağ mələfəni götürüb, qoydu qırağa. Yaralarıma baxıb, qıraqda Molla Mecid babamla nə isə danışdı. Əlini üç dəfə başımdan ayağımadək çəkib, dedi qorxma, sənə heç nə olmayacaq, anadan olduğun kimi, durub, gəzəcəksən.

Bu anda bədənim ani olaraq alovlanan kimi oldu, sanki kibrit kimi yanıb, söndü. Sonra gördüm ayağımın

qırılan yerinə sanki köz basıldı, alışıb yanır. Yuxudan ayıldım, qışqırdım, tibb bacıları gəldi. Dedim üstümü açın, alışıb yanıram. Üstümü açanda, gördülər barmaqlarım tərpənir. Ona qədər barmaqlarım tərpənməmişdi, Həkimlər ayağımı kəsmək istəyirdilər.

Tibb bacıları heyrət içində baxdıqları vaxt, onların gözünün qabağında, ayaqlarımda nə qədər mil vardısa, hamısı hansısa bir qüvvənin təsiriylə, çıxıb tökküldü yerə. Ayaqlarımdan daşlar asmışdılar, onlar da qırılıb tökküldü. Həkimi çağırdılar, o da heyrətləndi ki, bu nə işdi belə, mən ömrümdə belə hadisə görməmişəm. Dedi bunun əlin, ayağın sarıyın çarpayıya. Sarıdılar, amma qurtaran kimi məni hansısa qüvvə silkələyirdi, o saat da əl-ayağımdakı kəndirlər qırılıb tökülürdü. Bu hal üç dəfə təkrar olundu, hər üçündə kəndirlər qırılıb yerə tökküldü. Daha sarımadılar.

Sonradan qeyri-adi bir qüvvə başladı məni idman elətdirməyə. Qolumu, qılçamı büküb – açırdı. Neçə aylardı ki, onları tərpətməmişdim. İndi bükülüb, açıldıqca, şak-şak edirdi. Beləcə, bir neçə gündən sonra mən yeriməyə başladım. İlahinin qüdrəti və Əhməd Əfəndi Babanın kəramətiylə bədənimin bütün sınan, əzilən hissələri bir neçə günün içində bitişib, anadangəlmə kimi oldu.

Bu söhbət yadıma Mövlananın tələbələrinə vəsiyyətini saldı.

Hədis: *Mövlana Cəlaləddin Rumi vəfatından əvvəl tələbələrini topladı, şəfqətlə onlara baxdı və:*

- Vəfatımdan sonra pərişan və hüzursuz olacaqsınız deyə düşünməyin. Hansı halda olursunuz olun,

mənimlə olun! Məni xatırlayın, Allahın izni ilə üzümü sizə göstərər, maddi və mənəvi yardımlar edərəm. Quruda və dənizdə Allahın izni ilə yardımınıza çataram. Sözlərimi yaxşı dinləyin! Sizə bəzi tövsiyələr edəcəyəm. Bunları eşidənlər eşitməyənlərə söyləsin! Gizli və aşkar Allahdan qorxun! Günahlardan çəkinin! Az yeyib, az yatıb, az danışın! Çox oruc tutun! Zamanınızı namaz qılaraq dəyərləndirin! Şəhvəti tərk edib, səfeh və cahillərlə mücadilə etməyin! Onlarla oturub-durmayın! Onları özünüzə həmsöhbət, etməyin daima yaxşı insanlarla bərabər olun! Ya xeyirli danışın, ya da susun! İnsanların sıxıntılarına səbr edin və bilin ki, insanların ən xeyirlisi insanlara ən faydalı olandır.

ABUZƏR BABA

Rəhman və Rəhim olan Allahın adı ilə

«İman gətirib yaxşı əməllər edənlər isə yaradılmışların ən yaxşılarıdır. Onların öz Rəbi yanındakı mükafatı *(ağacları)* ***altından çaylar axan Ədn cənnətləridir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan razıdır. Onlar da Allahdan. Bu*** *(nemətlər)* ***Rəbbindən qorxanlar üçündür!»*** Quran, «Açıq-aydın dəlil» surəsi, 7-8-ci ayələr

Allah dərgahında əbədi səadət qazanan övliyalardan biri də Abuzər Babadır.

Abuzər Baba 1891-1945-ci illərdə Göyçay qəzasının İnçə kəndində yaşayıb. Atası Həzrətqulu Baba dövrünün tanınış övliyalarından olub. Anası isə Durnisə adında möminə qadın olub.

Ümumiyyətlə, bu nəsil Şamaxıda məşhur ziyarətgah olan Şıx Eyyub babanın nəslinin bir qoludur.

Abuzər Babanın babası Şıx Məmmədiyim Baba Şamaxıdan İsmayıllı rayonunun Mizan kəndinə köçmüşdür. Kəramət sahibi olduğundan Mizan kəndində olan qəbri bu gün də ziyarət olunur.

Həzrətqulu Babanın kəramətlərindən bəhs edən əhvalatlar bu gün də dillər əzbəridir.

Bir gün bir nəfər arabayala odun gətirirmiş. Körpüdən keçərkən, kəlin ayağı dizə qədər körpünün deşiyinə düşür. Çox çalışsa da, kəl qalxa bilmir. Bu vaxt kəl

sahibi sidq ürəkdən Həzrətqulu Babanı çağırır. Kəl çox asanlıqla ayağını deşikdən çıxarıb, yoluna davam edir.

Həmin axşam Həzrətqulu Baba həyat yoldaşı Durnisə xanıma deyir ki, kürəyim ağrayır, məni bir az ovxala. Dürnisə xanım ərinin kürəyini ovxalayanda, çiynində heyvan ləpiri görür və təəcüblə soruşur ki, bu ləpir bura necə düşüb. Baba xanımının əl çəkmədiyini görüb, yuxarıdakı əhvalatı danışır.

«Yağış yağsa bilərəm ki, övliyasan»

Həzrətqulu Babada olan kəramət övladlarının bəzisində, o cümlədən oğlu Abuzər Babada da özünü biruzə vermişdir. Bu barədə İnçədə eşitdiyim əhvalatlardan birini diqqətinizə çatdırıram.

Quliyeva Durnisə Abuzər qızı – Göyçay rayonu, İnçə kənd sakini:

- Sovet dövründə, isti yay günündə pambıq tarlasında idik. Hava həddən artıq isti olduğundan işləmək çətin idi. Kolxoz sədri ilə Abuzər Baba da yanımızda idi. Sədr Babaya dedi ki, indi sən dua edib, yağış yağdıra bilsən, bilərəm ki, övliyasan.

Abuzər Baba dedi, hər şey Allahın əlindədir. İnşallah, biz işdən çıxana qədər bir yağış yağdırar.

Həqiqətən də günorta elə bir yağış yağdı ki, ikinci öynəni işləyə bilməlik. Sədr dedi ay Baba, mən belə demədim ha.

ŞIX SƏDİ BABA

Rəhman və Rəhim olan Allahın adı ilə

«Sən də ağlını başına topla, övliyaların öyüd və nəsihətlərini canla-başla dinlə!» üzüntü və qorxudan qurtul, mənəvi rhatlığa qovuş! Vəlilərin sözləri abı-həyat dolu camdır ondan doya-doya iç ki, qəlbində mənəvi çiçəklər, güllər açılsın! (Mövlanə Cəlaləddin Rumi)

Şıx (Şeyx) Sədi Baba kəramət sahibi övliyalardandır. 1885-ci ildə Göyçay qəzasının Çaxırlı kəndində anadan olub. Atası Zadə Baba və babası Qəni Baba öz dövrlərinin kəramət sahiblərindən olduqlarından, xalq tərəfindən həm işə ziyarət olunublar. Sədi Babanın anası Güləndam möminə bir qadın olmuşdur.

Şıx Sədi Baba

Ümumiyyətlə, bu nəsil VII əsrdə yaşamış böyük övliya Həsən Bəsrinin törəmələridir.

Çaxırlı kəndində olarkən, Şıx Sədi Babanın kəramətinə şahid olanlar, övliya haqqında maraqlı xatirələrini danışdılar. Onlardan bəzilərini diqqətinizə çatdırıram.

Şıx Sədi Babanın hüzurunda qaynar samovar körpə uşağı yandırmadı

Qonşu kənddən Şıx Sədi Babanın ziyarətçiləri gəlibmiş. Günorta vaxtı, Baba qonaqlarla bərabər, eyvanda süfrə başında əyləşiblərmiş. Birdən qonağın körpə uşağı iməkləyərək, süfrənin başındakı qaynar samovarı özünə tərəf çəkir. Samovar, üstündəki dəm çayniki ilə barabər uşağın üstünə tükülür. Oturanların hamısını dəhşət birüyür. Hamı uşaqdan əlini üzür. Bu vaxt Şıx Sədi Baba uşağı qucağına götürüb, paltarını çıxarır və qaynar su tökülən yerə əlini çəkir. Uşaq, heç nə olmamış kimi oynamağında davam edir.

Od Şıx Sədi Babanı yandırmadı

Sovet dövründə Göyçayın birinci katibi Çaxırlı kəndinə gəlir. Görür pambıq tarlasında camaat bir ağsaqqal kişinin başına toplaşıb, söhbət eləyirlər. Camaatın işdən ayrılması katibin xoşuna gəlmir. Hirslənir ki, bu kişi kimdirsə. Deyirlər övliyadır. Deyir mən onun övliyalığına o vaxt inanaram ki, tonqal qalasın və o tonqalın içinə əlini salıb, bir köz götürsün.

Şıx Sədi Baba cavanlara deyir gedin bir qom odun gətirin… Tonqal qalanır və köz düşəndə, Sədi Baba əlini tonqala salıb, ən iri közü ovcuna götürüb, hamının gözünün qabağında közü ovcunda sıxır.

Bu hikməti görən həmin birinci katib, sonralar Şıx Sədi babanın ziyarətinə gəlir.

Şıx Sədi Baba dadıma yetdi

Süleymanova Çinarə – Ucar rayonu Qaracallı kəndi:

– Axşam vaxtı həyətdə gəzişirdim. Ağacın altından keçəndə kürəyimdən nəsə vurdu. Əhəmiyyət vermədən gedib yatdım. Səhər çörək yemək istəyəndə, çörəyin bir qəlpəsi nəfəs yoluma toxundu, çeçədim. Ondan sonra halım pisləşdi, 12 gün çörək yeyə bilmədim. Arabir bir qurtum suyu çətinliklə içirdim. Bu müddətdə respublikanın müxtəlif klinikalarında müayinə olunsam da heç bir əhəmiyyəti olmurdu.

Nəhayət Şıx Sədi babanın ruhuna üz tutub, ondan yardım etməsini istədim. Allahın izni ilə babam dadıma yetdi. Yuxuda olanda kürəyimə və boğazıma əl çəkdi. Bu vaxt yuxudan ayıldım. Su içdim, gördüm heç bir problem yoxdur. Başladım çörək yeməyə. Hamı heyrət etdi ki, qəflətən bu necə sağaldı?!

Sonra Sədi babam yuxuda mənə Quranı ərəbcə oxumağı öyrətdi. Gecə yuxuda hansı hərfləri mənə öyrədirdisə, heç vaxt yadımdan çıxmırdı. Mən də öyrəndiklərimi kənddə tay-tuşlarıma öyrədirəm.

KƏRBƏLAYİ SEYİD MİR HƏBİ AĞA

Rəhman və Rəhim olan Allahın adı ilə

«Allah göylərin və yerin nurudur. Onun nuru, içində çıraq olan bir taxçaya bənzər: taxçadakı o çıraq bir qəndilin içindədir, o qəndil isə sanki parlaq bir ulduzdur. O çıraq nə şərqdə, nə də qərbdə olan mübarək bir zeytun ağacından yandırılır. Onun yağı özünə od toxunmasa, sanki işıq saçır. O, nur üstündə nurdur. Allah dilədiyini öz nuruna qovuşdurur». *Quran, «Nur» surəsi, 35-ci ayə.*

Seyid Mir Həbi ağa

Allahın nuru ilə nurlanan möminlərdən biri də Kərbəlayi seyid Mir Həbi ağadır. Onun əcdadları Kərbəla faciəsindən sonra İrana köçüblər. İrandan isə XIX əsrin sonlarında Azərbaycanın indiki Ucar rayonunun Qəzyan kəndinə köçüblər.

Qəzyana köçəndə Mir Həbi ağanın beş qardaşı, bir bacısı olub. Burada onun kəramət sahibi olduğunu görüb, yerli əhali ona çox böyük ehtiram göstərib. Xəstələnənlər, problemi olanlar, dara düşənlər Seyidə üz tutar, onun duasıyla dərdlərinə çarə taparmışlar. Hətta ilanlar da Kərbəlayi Mir Həbi ağanın əsrlərinə tabe olar, onun tapşırığı ilə yuva qurduqları yaşayış evlərini tərk edərmişlər.

Tibb elminin inkişaf etmədiyi və kimyəvi dərmanların olmadığı bir dövrdə Seyid Mir Həbi ağa ilan vuranları, sonsuzları, əsəb xəstələrini və sair ağır xəstəlikləri öz kəramətiylə, Allaha etdiyi dualarla sağaldarmış.

Gecələr Mirhəbi babanın qəbri üzərində nur görürəm

Mirhəbi ağanını dəfn olunduğu Qəzyan kənd qəbristanlığının qonşuluğunda yaşayan Əliyeva Xavər Soltan qızı:

- Bu həyətə təzə göçmüşdük, bir gecə həyətə düşmüşdüm. Birdən hasarın o biri üzündən Seyid Mirhəbi ağanın qəbri üstündən bir işığın qalxdığını gördüm. Qırmızı Alova bənzər işıq idi, arxa tərəfi yaşıla çalırdı. Hər tərəfə nur saçırdı. Qəbrin üstündən göyə qalxdı və uçdu getdi.

- Atam pambıq briqadiri işləyirdi – deyə Xavər xala söhbətini davam etdirir: Çoxdandır yağış yağmırdı. Pambıq tarlası susuzluqdan yanırdı. Atam Mirhəbi ağanın qızı Seyid Xanımdan xahiş etdi ki, yağış üçün dua etsin. Seyid xanım atasının qəbrinin torpağından dəsmalla büküb, su arxına – axar suya suda qoydu, və yağış üçün dua etdi. Həmin gündən başlayaraq, üç gün aramsız yağış yağdı. Üç gündən sonra atam Seyid Xanıma dedi daha bəsdir, get torpağı sudan çıxart.

Bizim nəsli ilan vurmur

- Zərdab rayonunun Gəlmə kəndində yaşayan Mirhəbi ağanın nəvəsi seyid Gülnisə xanımın atası Seyid Mirhüseyn ağa haqqında danışdğı xatirələr maraqlıdır:

- Bir dəfə həyətdə getdiyim yerdə, birdən ayağım sarmaşığa ilişdi, ağzı aşağı yıxıldım otluğa. Yıxılanda gördum qarnımın altında ilan var. Qorxumdan tərpənə bilmirəm ki, ilan vuracaq məni. Gördüm ilan üzü yuxarı sinəmə tərəf gəlir. Gəldi çənəmin yanından keçdi, qulağımın dibindən çıxıb getdi. Onda yadıma düşdü ki, ağam deyirdi bizim nəsli ilan vurmur, mən inanmırdım, deyirdim gürzə nə bilir mən kimin qızıyam. İndi inandım ki, ağam düz deyirmiş.

Kərbəlayi Seyid Mirhəbi ağa 1933-cü ildə dünyasını dəyişib. Qəbri Qəzyan kəndinin qəbristanlığındadır. Seyidin Həbib və Mirhüseyn adında iki oğlu, Minayə, Güllü, Seyidxanım, Gülnisə, Güldəstə adında beş qızı olmuşdur.

Seyid Fatimə

Seyid Fatimə Mirfəttah qızı 1891-ci ildə indiki Ucar rayonunun Qəzyan kəndində doğulub. Atası Seyid Mir Fəttah yuxarıda haqqında bəhs etdiyim Seyid Mir Həbi ağanın qardaşı olmaqla, Seyid Mir Əlinin oğludur. (Ümumiyyətlə Seyid Mir Əlinin Mir Nəbi, Mir Fəttah və Mir Yusif adında üç oğlu olmuşdur.)

Seyid Mir Fəttah XIX əsrin ortalarından XX əsrin əvvəllərinə qədər Qəzyan kəndində yaşamışdır. Onun Sona adlı qızla nigahından Fatimə, Mir İsmayıl, Mir

Sahib, Mir Qədir, Surə, Mir Heydər, Məmməd adında yeddi övladı olmuşdur.

Ata-babalarında olan kəramət bu övladlarının bir çoxunda, o cümlədən Seyid Fatimədə özünü qabarıq biruzə vermişdir. O, öz kəramətiylə ilanları ram edər, hətta ilanlar bir çox hallarda ona pənah gətirərmişlər. Həmin hadisələrin canlı şahidi hal-hazırda Ucar şəhərində yaşayan Alagöz xanım anasının kəramətini belə xatırlayır:

– Bir gün ailəlikcə eyvanda oturub çay içirdik. Birdən gördük həyətə bir sürü ilan daxil oldu, çoxusu da yaralı idi. Anam dedi onlara toxunmayın, davadan gəlirlər. Anam onlara çərəklə yağ, bal verdi, yedilər, bir az dincəlib, getdilər.

Yay vaxtı eyvanda yatırdıq – deyə Alagöz xanım söhbətini davam etdirir – səhər yuxudan oyananda görürdük yatağımızın ətrafında ilanlar yatıblar. Anam ilanları yığırdı mənim donumun ətəyinə, deyirdi apar boşalt narlığa.

1986-cı il idi, ailəlikcə hamımız oturmuşduq evdə, axşam yeməyini yeməyə hazırlaşırdıq. Anam dedi tez olun çörəyinizi yeyin, əzrayıl mənə gözünü ağardıb getdi, bu saat qayıdacaq. Həqiqətən də aradan təxminən yarım saat keçmiş anamın halı pisləşdi. Üzünü qbləyə çevirib, növbə ilə Quran oxumağa başladıq. Quran sədası altında da canını tapşırdı.

Seyid Fatimə Əhəd Cəfərqulu oğlu ilə ailə qurmuş, bu nigahdan Cəfər və Ağamusa adında iki oğlu, Eminə, Alagöz, Mələk və Zuleyxa adında dörd qızı olmuşdur. Övladlarının hamısına Quranı öyrətmişdir.

Seyid Fatimənin qızı Züleyxa xanım 1941-ci il təvəllüdlü Hacı Ağababa ilə ailə qurmuş, bu nigahdan Hacı Elçin və Hacı Əliyar adlı iki oğlu, Hicranə, Tehranə, Pərvanə və Afaq adlı dörd qızı olmuşdur.

Hacı Elçinin Reyhan xanımla nigahından Elvin və Nərmin adlı iki övladı var.

Hacı Əlyarın isə Bahar xanımla nigahından Arzu və Anar adlı iki oğlu var.

SEYİD MİR ƏHMƏD AĞA

Rəhman və Rəhim olan Allahın adı ilə

«Şübhəsiz ki, insanların İbrahimə ən yaxın olanı onun ardınca gedənlər, bu Peyğəmbər və ona iman gətirənlərdir. Allah möminlərin dostudur!» Quran

Allaha könül verərək, dost olan möminlərdən biri də Seyid Mirəhməd ağadır.

Seyid Mirəhməd Mircəfər oğlu 1865-ci ildə Masallı rayonunun Borandigah kəndində doğulub. Nəsil şəcərəsi VII imam Musa Kazım əleyhissəlama qədər gedib çıxır.

Seyid Mirəhməd mükəmməl təhsil alaraq, İlahiyyət elmini dərindən öyrənmiş və ömrünün sonunadək bu elmin təbliği ilə məşğul olmuşdur.

Mirəhməd ağa kəramət əhli olaraq, Azərbaycanda tanınmış seyidlərdən olmuşdur. Vaxtilə onun şagirdi olmuş Qəzyanlı Alı kişi sonralar söhbət edərmiş ki, ustadımızdan dərs almağa gedəndə, bəzən yay fəslində səhər tezdən onun başmağında qar olduğunu görərdik. Tələbələri bu barədə ona sual verəndə, cavab verməkdən yayınardı.

Seyid Mirəhməd 15-16 yaşına çatdıqda, atası Mircəfər ağa onu evləndirmək qərarına gəlir. Fikrini oğluna bildirdikdə, uşaq utandığından, bu təklifdən imtina edir. Valideynlər bir qədər təkid etdikdə, seyid Mirəhməd, yaşadığı Boradigah kəndindən qaçaraq Bakı şəhərinə gəlir. Orada bir baqqal

dükanına işə düzələrək, bir müddət işləyir. Bu müddətdə valideynləri onun harada olduğunu öyrənə bilmirlər. Bir gün Boradigah kəndindən bir nəfər Bakıya gəlir və baqqal dükanında seyid Mirəhmədi görür. Həmkəndlisi valideynlərinin onu axtardığını deyir və kəndə qayıtmağını tapşırır. Vəziyyətin belə olduğunu görən seyid Mirəhməd bazardan Şirvan bölgəsinin Qəzyan kəndinə gələn bir arabaya minir. Qəzyanda Seyid Mir İsmayıl ağa qəribliyini nəzərə alıb, onu bir neçə günlüyə evində qonaq saxlayır. Bu müddətdə ev sahibi qonağın tərbiyəli və mərifətli bir gənc olduğunu görür və seyid olduğunu bilir. Mir İsmayıl ağanın üç qızı olsa da, oğlu yox idi. Odur ki, qonağı Seyid Mirəhmədi özünə oğulluğa götürdü. Və yetkinlik yaşına çatanda, üç qızının ən gözəli olan Rübabəni ona ərə verdi. Öz həyətində gənc ailə üçün ev də tikdirdi.

Seyid Mirəhmədin Rübabə ilə nigahından İlyas, Mirismayıl, Mirhüseyn, Mirzeynal, Mircəfər adında beş oğlu, Ələviyyə, Fərəhnisə və Zəhra adında üç qızı dünyaya gəlmişdir.

Seyid Mirəhməd ağa kəramət sahibi idi

Zaman keçdikcə, Seyid Mirəhməd ağada olan kəramət özünü biruzə verir və kənd-kənd, el-el, oba-oba yayılırdı. Artıq Azərbaycanın hər yerindən onun ziyarətinə adamlar gəlir, sağalması müşkül olan müxtəlif xəstələri onun yanına gətirirdilər. Seyid hansı xəstənin başına əl çəkib, dua edərdisə, Qüdrəti-İlahidən həmin xəstəyə şəfa verilərdi. Odur ki,

ziyarətinə gələnlərin ardı-arası kəsilməzdi. Elmin – ələlxüsus da tibb elminin inkişaf etmədiyi bir dövrdə Mirəhməd ağa Allahın insanlara göndərdiyi bir şəfa mənbəyi idi. Onun Rəbbinə etdiyi dualar sağalmaz dərdlərin məlhəmi idi. Mirəhməd ağa seyid olmaqla yanaşı, həm də dövrünün həkimi idi.

Seyid Mirəhməd ağa 1941-ci ildə 77 yaşında dünyasını dəyişib. Qəbri Qəzyan kəndinin aşağı qəbristanlığındadır.

PİRCAHAN

Rəhman və Rəhim olan Allahın adı ilə

«Xatırla ki, bir zamanlar mələklər belə demişdilər: «Ya Məryəm, həqiqətən, Allah səni seçmiş, (*eyblərdən****) təmizləmiş, (****cəmi****) aləmlərin*** *(bütün cahanın)* ***qadınlarından üstün tutmuşdur. Ya Məryəm, öz Rəbbinə itaət et, səcdəyə qapan və ruku edənlərlə birlikdə ruku et!*** *(Namaz qılanlarla bir yerdə namaz qıl!)». Quran, «İmran ailəsi» surəsi. 42-43-cü ayələr.*

Quran ayəsindən də göründüyü kimi, Rəbbim insanlar arasından bəzi qadınları, seçmiş, hikmət bəxş edərək, onları şərəfləndirmişdir. Belə qadınlara misal olaraq Peyğəmbərlərin analarını, əhli-əyalını, qızlarını göstərmək olar. Onların bəzilərinin (Həzrəti Peyğəmbərimizin qızları Zeynəb xanımın, Ruqiyyə xanımın, Ümmü Gülsüm xanımın, Fatimə

xanımın) həyatlarını bu kitabda oxumusunuz (Yaxud oxuyacaqsınız). Azərbaycanda da bu günədək qəbirləri ziyarətgaha çevirilən hikmətli xanımlar olmuşlar ki, onlardan bəzilərinin (VII İmam Həzrəti Müseyi Kazımın qızları Leyla xanımın, Rəhimə xanımın, Hökümə xanımın) həyatlarını öyrənib, «Peyğəmbər Nəvələri Azərbaycanda» adlı kitabımda oxuculara məlumat vermişdim. Yuxarıda adlarını çəkdiyim (və çəkmədiyim) bütün hikmətli və kəramətli xanımların ruhlarına salam və Salavat göndərərək, bu fəsildə sizləri belə kəramətli xanımlardan olan Pircahanla tanış etmək istəyirəm.

Pircahan piri Azərbaycanın Zərdab rayonunun Lələağacı kəndi ilə, Yarməmmədbağı kəndinin arasında yerləşir. Tarixi dəqiq bilinməyən bu pir. əsirlərdir ki, ətraf kəndlərin əhalisi tərəfindən daim ziyarət olunur, kəramətinə ehtiram göstərilir.

Pirdə iki qəbir vardır ki, onlardan birinin - Cahan adlı qadının qəbrinin müqəddəs olduğunu və qorunmasının vacibliyini Külüllü Hacı Əhməd Əfəndi XIX əsrin ortalarında Yarməmmədbağı kənd sakini Soltanəhməd kişiyə tapşırmışdır. Həmin əhvalat belə olmuşdur: Soltanəhməd kişi kəndin qırağındakı ağaclıqda olan iki qəbrin yanından keçərkən, burada yad bir pirani insanla rastlaşır. Kimliyi ilə maraqlandıqda, qonaq Külüllü Hacı Əhməd Əfəndi olduğunu və hökumətin təqibindən qaçaraq, bura sığındığını bildirir. Soltanəhməd baba ona çay və çörək gətirir. Bu minvalla təxminən altı ay və yaxud bir qədər çox Hacı Əhməd Əfəndi burada qalır və bu müddətdə

Soltanəhməd baba ona xidmət göstərir. Sonuncu görüşündə Əfəndi bildirir ki, bu yer Pircahandır və burada dəfn olunan xanım övliyadır. Buranı qorumağı Soltan Əhməd kişidən xahiş edən Hacı Əhməd Əfəndi sözünü bitirən kimi uçaraq, oradan uzaqlaşmış və bir daha pirdə görünməmişdir.

Tarixi mənbələr göstərir ki, Hacı Əhməd Əfəndi, kitabın əvvəlində haqqında bəhs etdiyim Nəqşibəndi şeyxi Mövlanə İsmayıl Siracəddin Şirvaninin müridi olmaqla, Ağsu rayonunun Külüllü kəndində yaşamışdır. Azərbaycan iki yerə bölündükdən sonra, Rus hökumətinin Müridizim hərəkatına qarşı təzyiqləri Hacı Əhməd Əfəndidən də yan keçməmişdir. Belə ki, Rus rəsmi sənədlərində 1849-cu ildə Şamaxı quberniyasından kütləvi sürgün hallarının olması haqqında qeydlər vardır. Sürgünlərin səbəbi kimi, Şirvan əhalisinin yeni təlim-müridizm bayrağı altında mübarizəyə başlamaları göstərilir. Hərəkatın rəhbərinin Külüllü Hacı Əhməd Əfəndi olduğu göstərilir. Hadisədən yeddi il sonra knyaz Behbudov təəssüf edirdi ki, 1849-cu il sürgünləri zamanı Hacı Əhməd Əfəndinin kənarda qalması 1855-56-cı illərdə yeni Şirvan üsyanının başlanmasına səbəb olmuşdur.

1855-ci ilin yanvarından etibarən, çar məmurları Şeyx Əhməd Əfəndinin fəaliyyətindən narahat olur və onu təqib etməyə başlayırlar. Knyaz Behbudov 1856-cı il 6 sentyabr tarixində Daxili İşlər Nazirliyinə göndərdiyi 552 saylı rəsmi məktubda Hacı Əhməd Əfəndinin və Qaraqoyunlu Qəhrəman Bəyin həbs edilərək, Tambov quberniyasına sürgün olunduğunu qeyd edir.

Hacı Əhməd Əfəndi 1856-cı il dekabrın 24-də Tambov şəhərində vəfat etmiş, orada dəfn olunmuşdur.

Tarixi sənədlərdən də göründüyü kimi, Külüllü Hacı Əhməd Əfəndi XIX əsrin ortalarında çar hökuməti tərəfindən həqiqətən də təqib olunmuş və bir müddət haradasa qaçıb gizlənmişdir. Qeyd edim ki, Soltanəhməd kişi də XIX əsrin ortalarında yaşadığından, onun Pircahanda xidmət etdiyi şəxsin həqiqətən də Şeyx Əhməd Əfəndi olduğu inandırıcıdır.

Həmin vaxtdan etibarən, Ləleağacı, Yarməmmədbağı, Pərvanlı və digər ətraf kəndlərin əhalisi Pircahanı daim ziyarət edir və kəramətindən faydalanırlar. Bu kəndlərin əhalisi zaman-zaman pirin ətrafında möcüzələrin şahidi olmuşlar. Belə ki, müxtəlif dövrlərdə yaşamış bir çox adamlar burada orta yaşlı kişi və qadın görmüşlər. Şahidlərin söhbətləri biri-birinə bənzəyir. Belə ki, adi gözlə gördükləri bu kişi və qadın qədim geyimdə olmaqla, bir anlıq görünərək, yox olmuşlar. Danışılan bütün söhbətləri təhlil etdikdə, belə qənaətə gəlmək olur ki, Pircahanda olan iki qəbirdə dəfn olunanlardan biri qadın, biri kişi olmaqla, orta yaşlı iki müqəddəs şəxs olmuşdur. (Düzgünün Allah bilir). 2007-ci ildə pirin ətrafında olan taxıl sahəsində yanğın baş verərkən, pirə də alov keçmiş, bu səbəbdən burada olan iki qəbrin yeri itmişdir.

Bu sətirlərin müəllifi də Ləleağacı kəndində doğulduğundan hələ uşaq yaşlarından ziyarətçilərə qoşularaq, cüməaxşamları Pircahanı ziyarət etmiş və bu gün də imkan daxilində bu ənənəni davam etdirir.

Gələcəkdə Allah imkan verərsə, buraya su çəkdirmək və abadlıq işləri görmək arzusundadır.

Lələağacı kəndi

Yuxarıda qeyd etdim ki, Pircahan Lələağacı kəndinin yaxınlığında yerləşdiyindən, hər dəfə ziyarətə gedərkən, bu kənddən keçirəm və yolun qırağında yeni tikilmiş Lələağacı məscidini də ziyarət etməyi özümə borc bilirəm. Bu yazını yazarkan da, adətimə sadiq qaldım. Odur ki, doğulduğum bu kəndin tarixi şəxsiyyətləri haqqında da qısaca məlumat verməyi özümə borc bilirəm.

Əvvəlcə qeyd edim ki, Lələağacı kəndi Zərdab rayonunda üç qədim kənddən (Əlvənd və Körpükəndlə yanaşı) biri, bəlkə də birincisidir. Bu ərazilərdə məktəb və məscid ilk dəfə məhz bu kəndlərdə olmuş və ətraf kəndlərin əhalisi də onlardan istifadə etmişlər. XVI əsrin əvvəllərində Şah İsmayıl Xətai bu yerlərə yürüş edəndə, bu ərazilərdə adlarını çəkdiyim üç kənd olmuşdur.

XIX əsrdə bu kənddə böyük tarixi şəxsiyyətlər olmuşlar ki, onlardan da biri Hacı Yaqub olmuşdur. Sənəti tacir olan bu şəxs özünə məxsus torpaq sahələrində pambıq əkdirib, məhsulunu Poti limanından gəmi vasitəsilə Fransaya aparar, orada satdıqdan sonra, əldə etdiyi pula şirniyyat və ərəb tacirlərinin ora gətirdikləri ipək, zərgərlik məmulatları və digər ticarət malları alaraq, gəmiyə yükləyib, geri qayıdarmış. Qayıdan baş həmin malların bir hissəsini Odessa

limanında tacirlərə verər, digər hissəsini isə Azərbaycana gətirərək buradakı bazarların xarici mala olan tələbatını ödəyərmiş.

Hacı Yaqubun evi əvvəlcə kəndin «Bəylik» və yaxud «Dolanbaba» adlanan məhəlləsində, Səlim bəylə (Tanınmış jurnalist Həsən bəy Zərdabinin atası) qonşu olmuşdur. Sonralar «Yuxarı bağ» adlanan ərazidəki torpaq sahəsinə nəzarət etmək üçün orada 12 otaqdan ibarət imarət tikdirmişdir. Sovet dönəmində bu imarətdən məktəb kimi istifadə olunmuşdur.

Hacı Yaqubun Paşa, Mahmud, Xanım adlı üç övladı olmuşdur ki, onların da törəmələri bu gün kənddə yaşamaqdadırlar.

Lələağacı kəndi özü qədim olduğu kimi, buranın tarixi də qədim və zəngindir. XIX əsrin sonları, XX əsrin əvvəllərində kənd məscidinin İmamı İsa Əfəndi olmuşdur. Süleyman Əfəndinin oğlu olan İsa Əfəndi ilk təhsilini Şamaxı mədrəsəsində almış, sonralar Şam şəhərində davam etdirmiş, nəhayət İstanbul Ali Ruhani məktəbində İlahiyyət elmiin incəliklərini öyrənərək, elmi biliklərini tamamlamışdır. Bir mədrəsə, iki universitet səviyyəli, dünya şöhrətli məktəb bitirdikdən sonra İsa Əfəndiyə Lələağacı kənd məscidində imamlıq etməyə, dini təbliğ etməyə icazə verilmişdir.

İsa Əfəndi əvvəlcə Yetər adlı qızla ailə qurmuş, ondan Süleyman və Hüseyn adlı iki oğlu doğulduqdan sonra, həyat yoldaşı vəfat etmişdir. 1913-cü ildə Fatimə adlı qızla ailə quran İsa Əfəndinin Üzeyir və Əli adlı iki oğlu dünyaya gəldikdən sonra 1930-cu illərin

əvvəllərində həyat yoldaşı yenə də rəhmətə getmişdir. 30-cu illərin ortalarında Bikə adlı qızla ailə quran İsa Əfəndinin Muxtar, Bəhlul, Şamil adlı üç oğlu dünyaya gəlmişdir. Yuxarıda adlarını çəkdiyim əvvəlki iki nigahdan törəyən dörd oğlu ahıl yaşlarında dünyalarını dəyişsələr də, sonuncu nigahdan olan üç oğlu bu günədək yaşamaqdadırlar.

1937-ci illərin repressiyası İsa Əfəndidən də yan keçmədi. Bir ilə yaxın zindanda yatan İsa Əfəndinin bütün qiymətli kitabları, əlyazmaları, şeirləri və qəzəlləri məhv edildi.

İsa Əfəndi böyük övliya Soltan Baba ilə yaxın dost olmuşdur. 1943-cü ildə vəfat edən. Əfəndinin cənazəsini Soltan Baba qolları üstünə alaraq, qəbristanlığa qədər heç kəsi yaxın buraxmadan, tək aparmışdır.

Övliya Soltan Babanın həyatı və kəramətləri haqqında «Mənəviyyat həkimləri» kitabımda geniş bəhs etdiyimdən, burada yalnız bu Allah dostunun mübarək ruhuna salam və salavat göndərməklə kifayətlənirəm.

Lələağacı kəndinin tarixi şəxsiyyətlərindən söz açılarkən, böyük övliya Surxay Babanı yaddan çıxarmaq olmaz. Həm sağlığında, həm də ölümündən sonra öz kəraməti ilə kənd əhalisinin və onu sevənlərin dadına yetən Surxay Baba Şıx Abdu Baba oğlu 1906-cı ildə Ucar rayonunun Qaracallı kəndində doğulmuşdur. Böyük Övliya və nəqşibəndi şeyxi Hacı Abdu Əfəndinin nəticəsidir. Bir qədər Zərdab rayonunun Alıbəyli kəndində yaşadıqdan sonra, 1957-ci ildə

Ləleağacı kəndinə köçmüşdür. Kəndin övliyasevər əhalisi Surxay Babanın xətrini əziz tutmuş, onu daim ziyarət edərək, kəramətindən faydalanmışlar. Surxay Babanın mənalı ömür yolu və kəramətləri barədə «Allahın dostları» kitabımda geniş bəhs etdiyimdən burada onun mübarək ruhunu yad edərək, salam və salavat göndərməklə kifayətlənirəm.

PEYĞƏMBƏR BAĞÇASININ GÜLLƏRİ

Rəhman və Rəhim olan Allahın adı ilə

«Həqiqətən biz sənə Kövsər bəxş etdik! Ona görə də (bu nemətlərə şükr edərək) **Rəbbin üçün namaz qıl və qurban kəs!** (Oğlanların vəfat etdiyi zaman sənə sonsuz deyən) **düşmənin özü sonsuzdur!** (Sənin nəslin qiymətə qədər törəyib artaraq, adına isə həmişə rəhmət oxunacaqdır!)**».** Quran, «Kövsər» surəsi

Fəxri-kainat Peyğəmbərimiz Məhəmməd əleyhissəlamın (ona Allahın salamı olsun) Həzrət Xədicədən Qasım və Abdullah adında iki oğlu, Mariya adlı kənizindən isə İbrahim adında bir oğlu olsa da, hər üçü körpə yaşında vəfat etmişlər. Odur ki, Peyğəmbərimizin nəsli qızları vasitəsi ilə davam etmişdir. Bunu nəzərə alıb Məhəmməd əleyhissəlamın qızlarının həyatını araşdırıb, onların gözəl əxlaqını və mənalı həyat yolunu insanlığa nümunə göstərmək qərarına gəldim.

Həzrət Peyğəmbərin qızlarını çox sevməsinin və onları yüksək dəyərləndirməsinin o dövrün sosial-mənəvi mühiti üçün böyük önəmi var idi. Qadınların bütün hüquqlardan məhrum olduğu bir zamanda Allah Rəsulunun qızlarına bəslədiyi dərin sayqı və ata sevgisi, onları nümayişkəranə şəkildə yüksək qiymətləndirməsi cəmiyyətin mənəvi-etik dünyagörüşündə əsl inqilab idi.

Qeyd edim ki, İslam Peyğəmbərinin Zeynəb, Ruqiyə, Ümmü Gülsüm və Fatimə adında dörd gözəl qızı olub ki, bunların hamısının anaları möminlərin anası Həzrət Xədicəyi Kübradır (ona Allahın salamı olsun!).

Peyğəmbər qızı Zeynəb

Həzrət Zeynəb Peyğəmbər (s) bağçasının ilk gülü olmaqla, qızlarının ən böyüyüdür. Hicrətdən iyirmi iki il əvvəl doğulmuşdur. Dayısı oğlu (anası Həzrət Xədicənin qardaşı oğlu) Əbu Asla evlənmişdir. Evlilikləri İslamdan əvvəl olduğundan, İslamın ilk illərində əriylə özü arasında müəyyən problemlər yaşanmışdır. Belə ki, müsəlmanlar Mədinəyə hicrət edərkən, bütpərəst əri Zeynəbi köçmyə qoymadı. Peyğəmbərin kürəkəninin İslamı qəbul etməməsi möminləri nə qədər məyus edirdisə, Məkkə müşriklərini bir o qədər sevindirirdi. Hətta bir dəstə müşrik, əbu Asın yanına gələrək təklif etdilər ki, Məhəmmədin qızını boşamaq şərti ilə ona Məkkə zadəganlarından kimin qızını istəsə, ala bilərlər. Əbu As onları dinlədikdən sonra belə cavab verdi: «Mən belə bir işi görə bilmərəm. Zeynəbi çox sevirəm, onu heç bir qadına dəyişmərəm. Təklifinizi rədd edirəm».

Allah Rəsulu bu əhvalatı eşitdikdə, kürəkəninin ağlını təqdir etmişdir.

Zeynəbin hicrətinə izn verməyən Əbu As Bədr döyüşündə bütpərətslərin tərəfində vuruşmuş və müsəlmanlara əsir düşmüşdü. Xəbəri alan Zeynəb, İslam qanunlarına uyğun olaraq, fidyə müqabilində

ərini azad etmək üçün, Mədinəyə adam göndərdi. Fidyə Allah Rəsulunun önünə qoyulduqda, o, qəmləndi və mübarək gözləri yaşla doldu. Çünki fidyə olaraq göndərilən, Həzrəti Xədicənin, qızı Zeynəbə evlilik hədiyyəsi olaraq verdiyi gərdənlik idi. Allah Elçisi əshabələrinə dönərək dedi: «Bu fidyəni almaq sizin haqqınızdır, fəqət mən sizdən rica etsəm, Əbu Ası fidyə almadan buraxarmısız?» Əshab bunu sevərək qəbul etdi və Əbu Ası sərbəst buraxaraq, gərdanlıqla birlikdə Məkkəyə yola saldılar. Rəsul, ondan Zeynəbi Mədinəyə göndərmək vədini almağı da unutmadı.

Əbu As vədinə əməl edərək Zeynəbi, Peyğəmbərin göndərdiyi elçilərə qoşaraq, Mədinəyə yola saldı. Fəqət yolda Məkkə müşrikləri Peyğəmbər qızına hücüm etdilər. Həbbar adlı bir büdpərəstin zərbəsi ilə dərədən yıxılan Zeynəb, bətnində olan körpəsini itirdi. Həmçinin bu yıxılmadan aldığı xəsarət, bir neçə ildən sonra Zeynəbin ölümünə səbəb olacaqdır.

Zeynəb, Mədinədə Peyğəmbər atasının yanında xoşbəxt həyat sürməkdə ikən, hicrətin altıncı ilində Əbu As bir ticarət karvanının başında Mədinə yaxınlığından keçirdi. Bu vaxt İslam ordusu, büdpərəstlərin karvanına hücum etdi və bütün malları ələ keçirdi. Bu vaxt Əbu As birtəhər canını qurtararaq, Mədinəyə girdi və Zeynəbi taparaq, ondan sığınacaq istədi. Peyğəmbər Əfəndimiz qızının verdiyi amanı qəbul etsə də, ona belə tapşırdı: Qızım, Allah, müsəlman qadınların müşrik kişilərlə təmasını qadağan etmişdir. Nigahda da, olsan, Əbu Asa yaxınlaşma».

Bütün bunlardan sonra rəsulullah, əshablara xitab edərək buyurdu ki: «Sizlər əl qoydunuz karvan mallarının sahibisiniz. O mallar, sizin ən təbii haqqınız olan qənimətlərdir. Ancaq mən rica etsəm öz razılığınızla o malları əvvəlki sahibinə vermə cömərdliyini göstərərsinizmi?» Onlar hamısı bir ağızdan «məmnuniyyətlə» deyə cavab verdilər və karvan mallarından əllərinə keçən hər şeyi Allah elçisinin önünə qoydular.

Əbu Asa mallarıyla birlikdə Məkkəyə dönməkdə sərbəst olduğu bildirildi. Bu anda Əbu As əshaba xitabən dedi ki: «Sizlər mənim bütün mallarımı gətirib mənə qaytardınız və azad olduğumu da bildirdiniz. Artıq rahat gedə bilərəm. Ancaq mən belə etmirəm, hüzurunuzda Kəlmeyi Şəhadət gətirərək müsəlmanlığımı elan edirəm. Bunu az öncə etsəydim, malları almaq üçün bəhanə olduğunu düşünərdiniz». Bu bəyanat hər kəsi, ən çox da Zeynəbi sevindirdi. Həzrət Peyğəmbər qızını dərhal yanına çağıraraq, bu əmri verdi: «Artıq yeni nigah mərasiminə lüzum qalmadan, ərinə təslim ola bilərsən».

Əbu Asın Həzrət Zeynəbə çox böyük bir sevgi və sayqıyla bağlı olduğu bəlli olur. Ayrı qaldıqları illər həmişə Zeynəbi anmış və onun eşq və xatirəsini müqəddəs bir əmanət kimi qorumuşdur. Mənbələr Əbu Asın ticarət yolçuluqlarında xanım Zeynəb üçün həsrət şerləri tərənnüm etdiyini bildirirlər. Nəhayət, bu təmiz yaradılışlı insan, səbrinin və sədaqətinin mükafatını görərək, həm xanımına, həm də İslama qovuşdu.

Həzrət Zeynəbin Əbu Asla nigahından Əli adında bir oğlu, Ümamə adında bir qızı dünyaya gəldi. Əli körpə yaşda vəfat etdi. Ümamə isə, xalası Həzrət Fatimənin vəfatından sonra Həzrət Əli ilə evlənəcək, Əli əleyhissəlamın şəhadətindən sonra isə Əbdülmütəllibin nəvələrindən olan Müğirə ibn Nöfəl ibn Harislə həyatını birləşdirəcəkdir.

Peyğəmbər qızı Ruqiyyə

Ruqiyyə xanım Peyğəmbər bağçasının ikinci gülüdür. Həyatı barədə məlumatlar çox azdır. Zeynəbdən 2 yaş balacadır.

İlk evliliyi Əbu Ləhəbin oğu Ütbə ilə olmuşdur. Həzrəti Məhəmməd əleyhissəlam Peyğəmbərliyini bəyan edəndə, Əbu Ləhəb ona qarşı çıxmış və ömrü boyu Peyğəmbərlə mübarizə aparmışdır. Bu səbəbdən oğlundan tələb etmişdir ki, Məhəmmədin (s.ə.v) qızını boşasın. Oğlu da Peyğəmbərin qızını boşayıb, Kafirlərdən birinin qızı ilə evlənmişdir.

Qeyd edim ki, Quranın 111-ci surəsi Əbu Ləhəb haqqında nazil olmuş və surədə Əbu Ləhəb lənətlənərək, Peyğəmbərə verdiyi əziyyətə görə əllərinin quruması hökm olunmuşdur. Surə nazil olandan bir qədər sonra, həqiqətən də Əbu Ləhəbin əlləri qurumuşdur.

Həzrət Ruqiyyə bundan sonra Peyğəmbər Əleyhissəlamın yaxın dostu və silahdaşı Həzrət Osmanla ailə qurmuşdur. Onların nigahından Abdullah adında bir

oğul dünyaya gəlmiş, altı yaşında gözünü xoruz dişləmiş, aldığı yaradan vəfat etmişdir.

Həzrət Ruqiyyə hicrətin ikinci ilində 22 yaşında vəfat etmiş, Baqi qəbiristanlığında dəfn edilmişdir.

Peyğəmbər qızı Ümmü Gülsüm

Peyğəmbər bağçasının üçüncü gülü Həzrət Ümmü Gülsüm Zeynəbdən beş, Ruqiyyədən iki il sonra dünyaya gəlmişdir.

İlk evliliyi Əbu Ləhəbin digər oğlu Üteybə ilə olmuşdur. Lakin İslamın ilk illərində Əbu Ləhəbin təkidi ilə Üteybə də digər qardaşı kimi hərəkət edərək, Peyğəmbər qızını boşayıb, kafir qızı ilə evlənmişdir.

Həya, əxlaq və iman sahibi olan Ümmü Gülsüm xanım, bacısı Ruqiyyənin vəfatından sonra Həzrət Osmanla evləndi. Onun üçün də Həzrət Osmana «Zinnureyn» yəni, iki nur sahibi ləqəbi verilmişdir.

Həzrət Ümmü Gülsüm vəfat edərkən, Peyğəmbər Əfəndimiz, Həzrət Osmana xitabən: «Üçüncü qızım olsaydı, yenə sənə verərdim» buyurmuşdur.

Həzrət Ümmü Gülsüm Mədinədəki Baqi qəbristanlığında, bacılarının yanında dəfn olunmuşdur.

Peyğəmbər qızı Fatimə

Nəbilər əfəndisinin son çiçəyi Həzrət Fatimeyi Zəhradır. Peyğəmbərimizi əhatə edən insanlar arasında onun öz yeri vardır. Allah elçisinin sevimli qızını «Cənnət xanımlarının Seyidəsi» adlandırması fikrimizi təsdiq edir.

Həzrət Fatimə miladi tarixlə 609-cu ildə doğuldu. Ona Fatimə adını verməsinin səbəbini ucalar ucası, Həzrəti Peyğəmbərimiz şəxsən belə açıqladı: «Onu sevənləri Allah cəhənnəmindən uzaqlaşdıracağı üçün qızıma Fatimə adını verdim».

Həzrəti Fatimə, Həzrət Əli ilə ailə qurdu.

Bir gün Rəsuullah (s.ə.v) Həzrət Əlidən soruşdu:

- Ey Əli! Ciyərimi yer üzündə gəzən görsən, nə edərsən?

Əli əleyhissəlam «Bilmirəm, ey Allahın Rəsulu!» deyə cavab verir.

Allah Rəsulu sorduğu sualın cavabını belə açıqladı:

- Övladlarımız bizim yer üzərində gəzən ciyərlərimizdir. Fatimə ilə də məhz ona görə davran.

Həzrət Fatimənin ləqəbi Zəhradır. Mənası «Ağ üzlü» deməkdir. Peyğəmbərimizin xanımlarından biri Həzrət - Aişə ögey qızı Fatimə haqqında belə demişdir: «Fatimənin üzü o qədər ağ, o qədər aydındır ki, gecələr onun yanında iynə saplayırdım». Daha sonra «Allah Rəsulu yanında insanların ən sevimlisi Fatimə və onun əri idi» deyə, bildirmişdi. Onun başqa bir ləqəbi də Betüldür. Mənası «Tayı-bərabəri olmayan» deməkdir.

Həzrəti Fatimənin Həsən, Hüseyn, Munsin adlı üç oğlu, Ümmü Gülsüm, Zeynəb, Ruqiyyə adlı üç qızı olmuşdur. (Qızlarına bacılarının adını qoymuşdur).

Həzrəti Həsən hicrətin üçüncü ili, Ramazan ayının 15, çərşənbə axşamı doğulub. Xarici görünüşü Rəsulullaha çox oxşayırdı. Ləqəbləri: Taki, Seyid, Varis.

Həzrət Həsən atası Kufədə şəhid edildikdən sonra müsəlmanların xəlifəsi oldu. Hakimiyyəti 6 ay davam etdi. Müaviyə müxtəlif hiylə ilə ona təzyiq göstərərək xəlifəlik vəzifəsini tərk etməyə məcbur etdi. Bu möhtərəm insan müsəlmanların arasında qan tökülməsini istəmədiyindən dövlət başçılığı vəzifəsini Müaviyəyə verdi.

Həzrət Hüseyn hicrin 4-cü ilində doğuldu. Haqqında saysız-hesabsız kitablar, məqalələr yazılan İmam Hüseyn Kərbəla faciəsində özünü müsəlman sayan yolun azmış bir qrup tərəfindən şəhid edildi. Bu həzrət müsəlmanların əqidə məktəbi, şəhidlik simvoludur.

Mühsin çox kiçik yaşlarında vəfat etdi.

Həzrət Fatimənin böyük qızı Zeynəbdir. Kərbəla faciəsinin canlı şahidi idi. Zeynəb Qahirədə vəfat edib, orada da dəfn olunmuşdur.

Həzrət Ümmü Gülsüm Həzrət Fatimənin ikinci qızıdır. Doğumundan az sonra anası vəfat etdiyindən yetim qaldı. Böyüyəndə Xəlifə Həzrət Ömərlə ailə qurdu. Çox keçmədi ki, Həzrət Ömər şəhid edildi.

Bundan sonra Həzrət Əli qızını başqa birinə ərə verdi. O şəxs də şəhid oldu. Beləliklə Ümmü Gülsüm bir neçə dəfə ailə qurdu.

Həzrət Fatimənin sonuncu qızı Ruqiyyədir. Ləqəbləri Sittə və Seyidədir. O da bacısı və qardaşı kimi Kərbəla faciəsini yaşayıb. Bu dəhşətli hadisədən çox təsirlənmişdi.

Çox gənc yaşda vəfat etdi.

XIDIR BABA

Rəhman və Rəhim olan Allahın adı ilə.

«Göylərdə və yerdə nə varsa, (*hamısı****) mülkün (****yer-göy mülkünün****) hökmdarı, müqəddəs, yenilməz qüvvət, hikmət sahibi olan Allahı təqdis edib, Onun şəninə tərifler deyər! Allah çox böyük mərhəmət sahibidir!»*** *Quran, «Cümə» surəsi, 1-4 ayələr*.

Bütün həyatını Allahı təqdis etməklə yaşayan övliyalardan biri də Xıdır Babadır.

Xıdır Xanməhəmməd oğlu 1918-ci ildə Göyçay rayonunun Şəkili kəndində anadan olub.

Dövrünün adamlarına nisbətən, yazıb-oxumağı bacaran savadlı bir adam olub. Ona görə də onu, Göyçay rayon hərbi komissarlığına işə götürüblər.

Xıdır Baba

1941-45-ci illərdə İkinci Dünya mühəribəsinin iştirakçısı olur. Bir qədər əsgər, bir qədər də əsirlik həyatı yaşadıqdan sonra, 1947-ci ildə Xıdır Baba vətəninə qayıdır.

Müqəddəs Quranın «Hörum-çək» surəsinin ikinci ayəsində ***Rəbbim buyurur: «İnsanlar*** *(möminlər)* ***yalnız: «İnam gətirdik!» - demələrilə onlardan əl çəkib imtahan olunmayacaqlarını sanırlar?*** *(xeyir,*

iman gətirmək şəhadət kəlməsini təkcə dillə demək deyildir. Biz onları yeri gəldikcə malları, övladları və canları ilə sınayacaq ki, hansının həqiqi, hansının yalançı mömin olduğunu ayırd edə bilək!).

Ayədən görünür ki, özünə dost-övliya seçmək üçün Allah-təala möminləri ən çox sevdikləri üç şeylə – malları, canları və övladları ilə imtahana çəkir. Bu imtahandan uğurla çıxanlar Allahla dostluq – övliyalıq mərtəbəsinə yüksəlirlər.

Xıdır Baba da övliyalıq mərtəbəsinə asan yüksəlmədi – müharibənin qanlı-qadalı günlərini (əgər buna gün demək mümkünsə), dəhşətli əsirlik həyatını başa vuran Xıdır Baba, Vətənə qayıdanda, candan əziz sevdiyi dörd övladından üçünü tapmadı. Onlar müharibə illərinin aclığına və sərtliyinə tab gətirməyərək dünyalarını dəyişmişdilər. Ata üçün bu xəbəri eşitməkdən sarsıntılı nə ola bilərdi?! Ancaq Xıdır Babanın eşitdiyi dəhştəli xəbərlər bununla bitmədi. Ona dedilər ki, həyat yoldaşın Məkkə aclıqdan xilas yolunu yaşlı bir kişiyə ərə getməkdə gördü. Xıdır Babanın qamışdan tikdiyi ev də yağışa, küləyə tab gətirməyərək dağılmışdı. Beləliklə o, əmioğlusu Haqverdi kişinin evinə gəlir və onunla birlikdə yaşamağa başlayır.

Bir müddət keçdikdən sonra Xıdır Babanın sağ qalan yeganə oğlu və evində yaşadığı Haqverdi kişi xəstələnərək, dünyalarını dəyişirlər.

Kolxozda inşaat briqadiri işləyən Xıdır Baba Haqverdi kişinin qızı Ülkərlə ailə qurur və özünə torpaq sahəsi götürərək, ev tikir.

Var – dövlət və övlad sınağından uğurla çıxan Xıdır Baba 60-70-ci illərdə can sınağına çəkilir, illərlə yataqda xəstə yatır. Onun həyatını Eyyub Peyğəmbərin həyatı ilə müqayisə etmək mümkündür. Allah-təala bu Peyğəmbəri də seçməzdən öncə, var-dövləti, övladları və canı ilə sınağa çəkmişdi.

Bir neçə il yataq xəstəsi olan Xıdır Baba, Allahdan ümidini üzmür, ibadətindən qalmır və tez-tez övliyaları ziyarət edirdi. Ülkər nənə söhbət edir ki, Xıdır Baba bir gün yatağından qalxıb, Ucar rayonunun Alpout kəndinə – Seyidağa Babanın ziyarətinə getdi. Yolda mənə dedi ki, bu gecə yuxumda Seyidi görmüşəm, ona görə də ziyarətinə gedirəm. Səhəri gün yataqdan qalxıb, məni də götürdü, yenə də Alpout kəndinə ziyarətə yola düşdük. Yolda soruşdum ki, Seyidin ziyarətinə dünən getmişdin, bu gün niyə gedirsən? Dedi Seyidağa Baba yuxuma girib, dedi ki, evimi ziyarət etdin, bəs qəbrimin üstünə niyə gəlmədin?!

Beləcə can sınağından da uğurla çıxan Xıdır Baba övliyalıq səviyyəsinə yüksəldi. Artıq onun duaları demək olar ki, Tanrı dərgahında rədd olunmurdu. Bu vəziyyət hamıya məlum olduğundan, Babanın qapısından ziyarətçilər əskik olmurdu.

… Rəbbi ondan aldıqlarını (var-dövləti, övladları və sağlamlığı) artıqlaması ilə özünə qaytarmışdı.

Artıq övliyanın ömrü başa çatmaq üzrə idi. Qohumu Valehi yanına çağırıb, vəsiyyətlərini etdi. Bu vəsiyyətlər öz qeyri-adiliklərinə görə başqalarından fərqlənirdi.

Nəhayət, 1982-ci ilin 31 avqustunda Xıdır Baba bu Fani dünya ilə vidalaşdı.

O ki, qaldı övliyanın vəsiyyətlərinə… Biri ondan ibarət idi ki, dünyasını dəyişən gün Göyçay çayının Şəki kəndindən keçən hissəsində, filan keçiddə qara bir daş qoyulacaq. Gedib, onu götürüb qəbrimin üstünə başdaşı qoyarsınız.

Xıdır Baba keçinən gün Valeh gedib həmin keçidi nə qədər axtarsa da, qara daşı tapa bilməyib kor peşiman geri qayıdır. Vəziyyəti ağsaqqallara danışır. Bir qədər məsləhətləşmədən sonra belə qərara gəlirlər ki, Valeh həmin yerə təkrar baxsın, əgər daş orada olmasa, onda başqa bir başdaşı qoyulsun. Valeh həmin keçidə təkrar baxanda, Babanın dediyi qara daşın ora qoyulduğunu görür. Maraqlıdır ki, bayaq baxanda, daş orada yox idi. Vəsiyyətinə uyğun olaraq, övliyanı qara parçaya bükdülər və vidalaşma zamanı Babanın evində sevə-sevə saxladığı iki imam rəsminin birini baş, birini də ayaq tərəfindən qoydular.

Cənazə namazını mollalar qılmadı (Bunu da özü vəsiyyət etmişdi). Kimlər qıldısa, bir Allah, bir də Xıdır Babanın ruhu bildi.

Allahın sevimli övliyalarından olan Xıdır Babanın qəbri və yaşadığı evi bu gün də insanlar tərəfindən sevilə-sevilə ziyarət olunur.

SEYİD MİR MEHDİ AĞA

Rəhman Rəhim olan Allahın adı ilə

«Allah ilə oturub-durmaq istəyən Allah dostlarının hüzurunda otursun. Allah dostlarının hüzurundan uzaq olsan, həlak olarsan. Çünki sən küll olmayan cüzsən. Məna əhli ilə oturub qalx ki, həm ehsan (*yaxşılıq)* ***əldə edəsən, həm də igid, comərd olasan».*** *Mövlana Cəlaləddin Rumi.*

Allaha yaxınlaşmaq üçün hüzuruna getdiyim Allah dostlarından biri də uca məqam sahibi Seyid Mir Mehdi ağadır.

İman, əxlaq və təqva sahibi olan Seyid Mir Mehdi ağa XIX əsrin ortalarında indiki Kürdəmir rayonunun Carrı kəndində doğulub. Gənc yaşlarında 1887-ci il

təvəllüdlü Şirinova Xatun Məşədi Səməd qızı ilə ailə qurub. Altı övlad atası olan Seyidi yaşadığı dövrdə üzü açıq gəzdiyini görən olmayıb. Yüksək əxlaqi keyfiyyətlərə sahib olan bu şəxs, naməhrəmə görünməmək üçün, həddibuluğa çatandan, ölənədək küçəyə niqabla çıxmışdır. Hətta evinə də yad adam gələndə ağa üzünə miqab salarmış. Ömrünün sonuna qədər haram tikə yeməmişdir.

Xatun nənə söhbət edərmiş ki, bir gün Kür çayının sahilindən yandırmaq üçün təzək yığıb gətirdim. Həyat yoldaşım Seyid Mir Mehdi ağa dedi mən heyvan saxlamıramsa, çöldən təzək yığıb gətirməyə haqqım yoxdur. Qaytar tök yerinə. Bir gün də Xatun nənə bağdan talaşa yığıb gətirəndə, Mir Mehdi ağa yenidən qaytarıb ki, mən Allahdan qorxuram, o bağa ağac əkməmişəmsə, oradan talaşa götürə bilmərəm.

El arasında sınanılmış bir inanc var ki, novruz bayramı gecəsində söyüd ağacı başını yerə qoyar. Bu möcüzəni görmək kimə qismət olarsa, həmin şəxs söyüdün budağından qopara bilərmişsə, qopardığı budaq İlahinin qüdrətindən qızıla çevrilərmiş.

Bu möcüzədən bəhrələnməyi Allah-təala Mir Mehdi ağaya da qismət edib. Belə ki, novruz gecəsində həyətə çıxan Seyid, başını yerə qoyan söyüddən əl boyda dörd ədəd çubuq qopara bili rvə çubuqları başının altına qoyub yatır.

Səhər ayılanda həyat yoldaşı Xatuna deyir ki, başının altındakı qızıllardan birini götür, get un al gətir.

Mir Mehti ağanın bacısı nəvəsi və gəlini, hazırda Carrı kəndində yaşayan 1930-cu il təvəllüdlü Şirinova

Tamara Məhəmməd qızı bu söhbəti danışaraq, bildirdi ki, həmin dörd qızıl çubuqdan biri onun nənəsi (Mir Mehdi ağanın bacısı) Seyid Zeybədə qalmış və 1941-45-ci illər müharibəsində aclıqdan qurtulmaq üçün satmışlar.

Haşiyə: Tamara xalanın danışdığı bu söhbət yadıma rəhmətlik anamın danışdığı bir əhvalatı saldı. Mən uşaq olanda annam nəql edirdi ki, kəndimizdən bir kişi novruz gecəsi həyətə düşəndə, söyüd ağacının başını yerə qoyduğunu görür. Ağacın kökündən qopduğunu zənn edib, buzovun başını söyüdün budağına bağlayır ki, səhərəcən yesin. Səhər duranda, buzovu ağacın başından asılmış görürlər.

Heyvanların və ağacların Allaha səcdə etməsi barədə Rəbbim Qurani-Kərimdə belə buyurur: ***«Məgər göylərdə və yerdə olanların, - Günəşin, Ayın və ulduzların, dağların, ağacların və heyvanların, insanların bir çoxunun*** *(*mömünlərin*)* ***Allaha səcdə etdiyini görmürsənmi?»*** *«Həcc surəs»i. 18-ci ayə.*

Bildiyim qədər söyüd ağacının səcdə etməsinə bir çox adamlar şahid olmuşlar. Görünür bununla Allah-Təala yuxarıdakı ayənin doğruluğunu zaman-zaman insanlara əyani şəkildə göstərmək istəyir ki, ürəklərdə şəkk (şübhə) qalmasın. Necə ki, 41-ci surədə Rəbbim buyurur: ***«Onun (****Quranın****) haqq olduğu insanlara bəlli olsun deyə, biz öz qüdrət nişanələrimizi onlara həm xarici aləmdə (****kainatda****), həm də cəmiyyətin öz daxilində zaman-zaman göstərəcəyik.*** *«Fussilət» surəsi, 53-cü ayə.*

Mir Mehdi ağanın atası **Seyid Şirin ağa** da kəramət sahibi olub. Aclıq dövründə uşaqlara verməyə çörək tapmayanda, həyat yoldaşına deyib, get təndiri yandır. Qadın deyib, evdə bir ovuc un yoxdur, təndiri boş yerə niyə yandırım? Seyid deyib sənin işin yoxdur, təndirə köz sal, ağzını ört, gəl otur evdə. Allahın qüdrəti böyükdür, balalarımı acından öldürməz.

Seyid Şirin ağa başlayıb namaz və dua ilə məşğul olmağa. Bir müddətdən sonra həyat yoldaşı təndirin qapağını açanda, heyrətdən yerindəcə donub qalır: təndirin içi qıp-qırmızı çörəklərlə dolu idi. Seyid çörəklərdən bir hissəsini kasıb qonşulara paylatdırdı, qalan hissəsini isə uzun müddət uşaqları yedi.

Bir gün yenə də qışın oğlan çağında, uşaqlara yedizdirməyə bir şey tapmayanda Seyid Şirin ağa həyat yoldaşına tapşırır ki, ayran qazanını su ilə doldurub, ocağa assın. Qadın sual verməyə cəsarət etmədən, ərinin tapşırığını yerinə yetirir. Seyid ibadət və dua ilə məşğul olur. Bir müddətdən sonra həyat yoldaşı ocaqdakı qazanın qapağını qaldıranda, heyrətdən az qala bayılacaqdı: qüdrəti - İlahidən qazanın içərisi bişmiş hədiklə dolu idi. Hədiyin bir hissəsini qonşudakı ac uşaqlara paylatdıran Seyid Şirin ağa qalan hissəsini öz uşaqlarına yedizdirərək, onları aclığın pənəsindən xilas etmişdir.

Seyid Şirinin atası Seyid Mir Adıgözəl ağa və Seyid Mir Məhəmmədtağı ağa da kəramət sahibləri olublar. Onların Kür çayının üstündən yeriyərək keçirdiklərini görənlər olub.

Seyid Mir Mehdi ağa 1928-ci ildə dünyasını dəyişib. Onun Mir Hüseyn, Mir Tağı, Mir Əlinağı, Laləzar, Seyidağa və Minayə adında altı övladı qalmışdır.

Seyid Mir Tağı ağa

Seyid Mir Mehdi ağa dünyasını dəyişəndə, yurdunda qalan altı övladdan biri də Seyid Mir Tağıdır. 1927-ci ildə Carrı kəndində doğulan Mir Tağı ağa son dərəcə imanlı və təqvalı seyid olmuşdur. Həyat yoldaşı Tamara ana söhbət edir ki, 30 il Seyidlə bir yerdə yaşadıq, bir dəfə də olsun küçəyə başıaçıq çıxdığını və yaxud süfrədə başıaçıq oturduğunu görmədim.

Seyid Mir Tağı ağa həyat yoldaşı Tamara xanımla

Ağa hələ uşaqlıqdan heyrətamiz dərəcədə həyalı olmuşdur. Belə ki, əsgərlik yaşına çatdıqda, hərbi komissarlıqda onu soyundurmaq mümkün olmamışdır. Bildirmişdir ki, bu günədək naməhrəm qarşısında soyunmamışam, bundan sonra da soyunmayacağam. Bu səbəbdən də hərbi komissar onu əsgərliyə aparmamışdır.

Seyid Mir Tağı həyalı olmaqla yanaşı, həm də son dərəcə halal insan olmuşdur. Belə ki, dəyirmanda işləməklə çörək pulu qazanan Seyid,

dəyirman sahibinin camaatdan artıq vergi aldığını görüb, buranı tərk etmişdir. Sonra kolxozda mühasib işləmiş, burada da halalla haramın qarışdığını gördükdə, bir neçə aydan sonra kolxozda işləməkdən imtina etmişdir.

Daha sonra neft buruğunda fəhlə işləməyə başlayıb. Ömrünün sonlarına yaxın xəstələnən Seyid Mir Tağını Bakı xəstəxanalarından birinə yerləşdirirlər. Erməni qızının mətbəxdə işlədiyini görüb, iki gün çörək yemir. Üçüncü gün xəstəxananı tərk edərək, evinə qayıdır.

Ola bilsin ki, Seyidin həyatında baş verən bu əhvalatlar müasir oxucular üçün qəribəi görünsün. Çünki müasir dövrümüzdə halalla haramın sərhədləri o qədər qarışıb ki, onları biri-birindən ayırmaq müşkülə çevrilib. Bəlkə elə bu səbəbdən də bu gün cəmiyyətimizdə Seyid Mir Tağı ağa kimi kəramət sahibləri daha yetişmir. Onun Allah dərgahında uca məqam qazanmasının səbəbi bu gün bizə qəribə görünən həmin o əhvalatlardır. Görünür zaman-zaman ziyarət olunmağa layiq olmaq üçün, mütləq o cür yaşanmalıdır.

Bəşər övladı üçün nümunə olacaq bir ömür yaşayan Seyid Mir Tağı ağa 1983-cü ildə dünyasını dəyişdi. Onun Tamara Məhəmməd qızı ilə nigahından Mir Heydər, Mirağa, Rəhim, Rəsul adında dörd oğlu, Laləzar, Səbinə, Saray, Ziyafət adında dörd qızı qalmışdır.

Carrı kənd məscidi

Carrı kəndində olarkən, Seyid Mir Mehdi ağanın və onun övladlarının evlərini və günbəzlərini ziyarət etdikdən sonra, kəndin yeni tikilib istifadəyə verilmiş məscidini də ziyarət etdim. Yeri gəlmişkən qeyd edim ki, məscidi kənd sakini, kiçik bizneslə məşğul olan 1974-cü il təvəllüdlü Qarabağ qazisi Hacı Ayət Məşədi Qənimət oğlu öz şəxsi vəsaiti hesabına tikdirib. Kənd ağsaqqallarının dediyinə görə, Hacı tək məscid tikdirməklə kifayətlənməyiib, kəndin yollarını daşladıb və bir neçə yerdən artezian quyusu vurdurub.

Banu nənənin qəbri. Carlı kəndi

Söhbətin bu məqamında, Allah Təalanın əməlisaleh şəxslər barəsində buyurduğu bir ayəyə nəzər salaq: ***«Mallarını Allah yolunda sərf edənlərin halı yeddi sünbül verən bir toxuma bənzəyir ki, bu sünbüllərin hər birində yüz ədəd dən vardır. Allah istədiyi***

kimsə üçün bunu qat-qat artırır. Allazhın lütfü genişdir!». *Quran.*

SEYİD MİRMƏSTAN AĞA

Rəhman Rəhim olan Allahın adı ilə

"Yaxşı əməl heç *də (ibadət vaxtı)* ***üzünüzü günçıxana və günbatana tərəf çevirməkdən ibarət deyildir. Yaxşı əməl sahibi əslində Allaha, axirət gününə, mələklərə, kitaba və peyğəmbərlərə inanan,*** *(Allaha)* ***məhəbbəti yolunda malını*** *(kasıb)* ***qohum-əqrabaya, yetimlərə, yoxsullara,*** *(pulu qurtarıb, yolda qalan)* ***müsafirlər, dilənçilərə və qulların azad olunmasına sərf edən, namaz qılıb, zəkat verən kimsələr, eləcə də əhd edəndə*** *(söz verəndə)* ***əhdinə sadiq olanlar, dar ayaqda, çətinlikdə və cihad zamanı səbr edənlərdir,*** *(imanlarında, sözlərində və əməllərində)* ***doğru olanlardır. Müttəqi olanlar da onlardır».*** *Quran, "İnək" surəsi, 177-ci ayə.*

Allahın əməlisaleh bəndələrindən biri də Seyid Mirməstan ağadır. XIX əsrdə indiki Göyçay rayonunun Qaraməryəm kəndində yaşayan və Həzrəti Peyğəmbərimizin (s.ə.s.) nəslindən olan bu kamil insan, elm, iman və təvqa cəhətdən başqalarından fərqlənirdi. Ona görə də duaları Allah dərgahında tez qəbul olunardı. Odur ki, qapısından ziyarətçiləri əskik olmazdı.

Seyidə şəkk edən mollanın ağzı əyildi

Bir gün seyid Mirməstan ağa Qarayazı kəndində bir məclisə gedir. Camaat seyidə çox böyük

ehtiram göstərir. Hamı ona nəzir verir, xahiş edirlərmiş ki, onlar üçün dua etsin. Xülasə, kəndin mollasına heç kəs fikir vermir, hamı seyidlə söhbət etmək istəyir. Molla çox pərt olur və Mirməstan ağanı acılamaq üçün deyir: "Sənin seyidliyin mənə məlum deyil". Söz seyidin xətrinə dəyir və qarşısına qoyulan nəzirləri götürmədən, məclisi tərk edir. Çıxarkən, mollaya üzünü tutub deyir ki, "İnşallah seyidliyim sənə də məlum olar".

Mirməstan ağa evə gedir və uşaqlarına tapşırır ki, Qarayazıdan molla gələcək, məni soruşsa, deyin ki, evdə yoxdur.

Həqiqətən, bir azdan uşaqlar görürlər ki, qapıda araba dayandı, içərisindən düşənlərdən biri üzüsarıqlıdır. Qonaqlar ev yiyəsini soruşduqda, uşaqlar yalan danışa bilmirlər. Seyid Mirməstan ağa da, qapıya gələni geri qaytarmağı rəva bilmir.

Üzü sarıqlı molla, seyidin qarşısında diz çöküb, deyir səndən sonra mənim ağzım əyildi. Məni cəddinə bağışla. Həddən artıq ürəyiyumşaq və rəhimli olan Mirməstan ağa, mollaya deyir, keç evdə yat, bir azdan durarsan.

Molla yuxudan ayılanda, görür ki, ağzının əyriliyi tamam düzəlib. Çıxanda, cibindən bir bükülü çıxarıb, seyidə verir və deyir məclisdə sənə verilən nəzirlərdir, mənim də nəzirim bunların üstündədir. Bir daha üzürxahlıq edib, gedirlər.

Seyidin duasıyla yağış yağdı

İsti yay günlərindən birində Qarayazıya qonaq gedən seyid Mirməstan ağaya deyirlər ki, neçə vaxtdır

yağış yağmadığından, camaatın əkini susuzluqdan yanır. Ağsaqqallar xahiş edirlər ki, yağış üçün dua eləsin. Seyid camaatın sözünü yerə salmır və kəndin kənarınadkı "Keçəl dağ" deyilən dağın üstünə çıxıb, üzü qibləyə dayanıb, dua etməyə başlayır. Bunu görən camaat, ümid və intizarla "Keçəl dağ"ın ətrafına toplaşır. Birdən görürlər, qarşıdakı dərənin tuşundan, bir topa qara bulud kəndə tərəf gəlir. Camaat kəndə çatana qədər, başda seyid olmaqla, hamının paltarından su süzülürdü.

Hədis. Allah Bəni İsrailə yeddi il qəhətlik bəxş etdi. Musa peyğəmbər yeddi min nəfərlə yağış istəmək üçün müsəllaya çıxdı. Xitab gəldi: Ey Musa, mən bunların dualarını necə qəbul edim, halbuki günahlar onların üzünə kölgə salmışdır. Batinləri isə xəbis və çirkindir. Mənə dua edirlər, lakin yəqinlikləri yoxdur. Özlərini də mənim cəzamdan amanda hesab edirlər. Mənim bəndələrimdən Bərx adlı bir nəfərin yanına qayıdıb de ki, gəlib dua etsin, Mən də qəbul edim. (Qüdsi hədislərdən).

Seyid Mirməstan ağa, Mələknisə adlı möminə bir qızla ailə qurmuş, bu nigahdan Mirəli və Soltan adlı iki oğlu dünyaya gəlmişdir.

Kərbəlayi Seyid Mirəli Seyid Mirməstan oğlu 1888-ci ildə Qaraməryəmdə doğulub.

Təhsilini atası Seyid Mrrməstandan alan Mirəli ağa, həm də kəramət sahibi seyid olub. Atası dünyasını dəyişəndən sonra, artıq dara düşən adamlar dərdlərinin çarəsi üçün Kərbəlayi seyid Mirəliyə üz tutub, ondan dua etməsitni istəyirdilər.

Kərbəlayi Seyil Mirəlinin çox gözəl avazla azan verməyi varmış. Onun Qaraməryəmdə əzan verməyini hətta ətraf kəndlərdə də çox böyük həvəslə dinləyirlərmiş.

Kərbəlayi Mirəli səxavət əhli seyidlərdən olub. Belə ki, ziyarətçilərin gətirdikləri nəzirlərin çox hissəsini müharibəyə gedib, ailəsi başsız qalan ailələrə paylayırdı ki, uşaqları aclıq keçirməsin. Seyid Mirəli bu işi Allahın rizasını qazanmaq üçün edirdi ki, Rəbbi ondan razı qalsın.

Kərbəlayi Seyid Mirəli, Şirinbəyim adlı möminə bir qızla ailə qurmuş, bu nigahdan Böyükağa adlı bir oğlu, Səfurə adlı bir qızı dünyaya gəlmişdir.

ÜVEYS ƏL-QƏRANİ

(Veyis Baba)

Rəhman Rəhim olan Allahın adı ilə

***«De: «Mən sizə ancaq bir öyüd verəcəyəm. Allah xatirinə məni dinlədikdən sonra iki-iki, bir-bir durun** (gedin)**, sonra da bir dərindən düşünün,** (görəcəksiniz ki) **sizin yoldaşınızda** (Peyğəmbərdə, yaxud carçıda) **heç bir divanəlik əsəri yoxdur. O yalnız qarşıdakı şiddətli əzabla** (yaxud fəlakətlə) **sizi qorxudan** (xəbərdar edən) **bir peyğəmbərdir!»** Quran, «Səba» surəsi, 46-cı ayə.*

Üveys əl-Qərani övliyaların böyüklərindəndir. Əslən Yəmənin Qərani kəndindən olan Üveys əl-Qərani Allahın rəsulu-səlləllahu əleyhi və səlləm-sağikən onu görmədən islamı qəbul etmişdir. Peyğəmbər əleyhissalamın *"Yəmən tərəfdən rəhmət ruzigarı əsdiyini hiss edirəm"* hədisi şərifini Veysəl Qərani barəsində xəbər kimi təfsir edirlər.

Məhəmməd əleyhissəlam vəfat edərkən xirqəsini (məsciddə namaz qılarkən geyilən libasını) Üveys Qəraniyə vəsiyyət etmişdir. Vəsiyyəti yerinə yetirmək üçün Həzrət Ömər və Həzrət Əli Küfəyə gəldilər və xütbə əsnasında Qərani kəndindən olanlardan Üveysi tanıyıb – tanımadıqlarını soruşdular. Cavab verdilər ki, bir nəfər var, amma o sizin axtardığınız adam ola bilməz, divanədir, insanlardan qaçar bir halı vardır. Ömər dedi: "Onu axtarıram, haradadır?" Dedilər ki, Ərnə vadisində bizim dəvələri otarır. Əvəzində biz ona axşam yeməyi veririk. Saçı-saqqalı pırtlaşıqdır, şəhərlərə gəlməz, kimsə ilə söhbət və yoldaşlıq etməz, insanların yediyini yeməz, üzüntü və nəşə bilməz: camaat güləndə o ağlar, başqaları ağlayanda o gülər. Həzrət Ömər və Həzrət Əli onların nişan verdikləri yerə getdilər, gördülər ki, Üveys namaz qılır. Allah təalanın əmri ilə dəvələri bir mələk qoruyurdu. Üveys həzrətləri insanların yaxınlaşdığını görəndə namazı qısa qıldı. Salam verdilər. Həzrət Ömər soruşdu ki, adın nədir? Üveys Qərani dedi: "Abdullah" (yəni Allahın qulu). Həzrət Ömər buyurdu: "Sağ əlini göstər". Üveys əlini göstərdi. Həzrəti Ömər peyğəmbərin xəbər verdiyi kimi Uveysin əlinin ağappaq olduğunu gördü və onun əlini öpdü. Sonra dedi: - Allahın rəsulunun sənə salamı var və buyurdu ki, onun ümmətinə dua edəsən.

Üveys bildirdi ki, xəlifəyə daha layiqdir ki, müsəlmanlara dua etsin.

Həzrət Ömər buyurdu:

- Mən öz vəzifəmi yerinə yetirirəm. Sən də Rəsulallahın vəsiyyətinə əməl et.

Üveys Qərani dedi:

- Ey Ömər, yaxşı bax, bəlkə sənə məndən başqasının nişanı verilmişdir.

Həzrət Ömər buyurdu:

- Rəsulallah sənin nişanını verib.

Üveys dedi:

- Rəsulallahın xirqəsini mənə verin, dua edəcəyəm.

Xirqəni verdilər. Xirqəni alıb geymədən onlardan uzaqlaşdı. Xirqəni yerə qoyub, üzünü torpağa sürtdü və belə dua etdi:

- Ya Rəbbim! Ümməti Mühəmmədin hamısını mənə bağışlamadıqca bu xirqəni geymərəm. Sənin peyğəmbərin bunu mənə həvalə etdi. Onun xəbərçiləri Həzrət Ömər və Həzrət Əlidir. Ya Rəbbim! Hər biri öz işini gördü. Sənin işin qalmışdır.

Səs gəldi ki, bir hissəni bağışladım. Xirqəni gey!

Üveys dedi:

- Xeyr, hamısını istəyirəm.

Təkrar əmr gəldi:

- Milyonlarla adamı sənə bağışladım. Xirqəni gey!

Dedi hamısın istəyirəm.

Bu yalvarış çox çəkdi. Səhabələr dözmədilər, gedib onun nə etdiyini öyrənmək istədilər. Üveys onları görüncə dedi:

- Niyə gəldiniz? Sizin bu gəlişiniz olmasaydı, bütün Mühəmməd ümməti bağışlanmadıqca bu xirqəni geyməyəcəkdim. Səbr etməli idiniz.

Üveysin çiynində dəvə yunundan bir kilim vardı. Ayağı yalın, başı açıqdı. Fəqət on səkiz min aləmin zənginliyi həmin köhnə kilim parçasının altında idi. Nəhayət, Üveys həzrətləri xirqəni geymişdi.

Veysəl Qəraniyə hədiyyə edilən xirqeyi şərifin bir parçası Van şəhəri (Türkiyə) civarındakı İrisan bəylərinə qədər gəlib çatmış və onlardan Şükrullah əfəndi onu hicrətin 1027-ci ilində (1617) Əbdül Məcid xana hədiyyə etmişdir. Əbdül Məcid bu xirqeyi-səadət üçün fatih civarında Xirqeyi-şərif camesini tikdirmişdir. Hər il bu xirqə Ramazani-Şərifin on beşindən sonra xüsusi qurğuda saxlanılmaq şərtilə xalqa nümayiş etdirilir.

Buradan belə qənaətə gəlmək olar ki, Rəsulallahın (s.ə.s) vəfatından sonra Üveys Qərani duası qəbul edilən ikinci böyük şəxsiyyət olmuşdur.

Üveys əl-Qərani həzrətləri Həzrəti Ömərin zamanında Mədinəyə gəlmiş, sonra bir müddət Bəsrədə yaşamışdır. Hicrətin 30-cu (bəzi mənbələrdə 37-ci göstərilir) ilində (miladi 650-655) Həzrəti Əlinin rəhbərliyi ilə islam ordusu Azərbaycanı fəth edərkən, Üveys də bu yerlərə gəlmiş və Suffin (Suffin sözünün mənası düzən deməkdir) döyüşündə şəhid olmuşdur. Onun ölümü barədə Yəmənə xəbər çatanda, cənazəni aparmaq üçün elçilər gəlir. Ancaq onlar gələnə qədər yerli əhali Üveys əl-Qəranini dəfn etmişdilər. Gələn elçilər cənazənin çıxarılmasını tələb etdikdə, yerli sakinlər İslam qanunlarını əsas götürüb, qəbrin açılmasına etiraz edirlər. Mübahisənin savaş həddinə çatdığını görən ağsaqallar gecə yatmağı, söhbətin davamını sabaha saxlamağı məsləhət görürlər. Qonaqlar yatmağında ikən, ev sahibləri Veyis babaya oxşar başqa bir şəhidin cənazəsini tabuta qoyub, səhər tezdən qonaqlara təqdim edirlər. Heç nə başa düşməyən elçilər tabutu götürüb, yola düşürlər. Yəməndə dəfnə toplaşanlar tabutu açırlar və.....hər şey aydın olur. Lakin baş vermiş

hadisənin Üveys Qəraniyə sevgidən və İslam qanunlarına uyğunluğunu nəzərə alaraq din xadimləri həmin şəhidi dəfn edib, məzarı müqədəs saymağı tapşırırlar. Veyis babanın həqiqi məzarı haqqında mübahisə də buradan yaranıb.

Bu əhvalatı XIX əsrin əvvəllərində Kürdəmirdən olan Şeyx Mövlanə Siracəddin Şirvani Zərdab rayonunun Bıçaqçı kənd sakini molla İsmayıl əfəndiyə danışmış və bildirmişdir ki, Veyis babanın şəhid və dəfn olunduğu Suffin indiki Ağdaş rayonunun Qaxay kəndi ərazisi ilə Zərdab rayonunun Seyidlər kəndi arasında yerləşir.

Şeyx həmin yerdə olan üstünü kol basmış təpəciyi göstərərək, buranı qazıb, övliyanın qəbrini üzə çıxarmağı tapşırıb. Əfəndi bir neçə nəfərlə həmin təpəciyi qazdıqda həqiqətən 2 metr hündürlükdə bir başdaşına və qəbirə rast gəlirlər. Həmin gündən Mövlananın tapşırığı ilə İsmayıl Əfəndi özü və nəslinin sonrakı davamçıları həmin qəbri qoruyurlar.

Üveys əl-Qərani haqqında belə rəvayət edirlər ki, Peyğəmbərin görüşünə getmək üçün anasından icazə istəyir. Anası deyir get, evdədirsə görüş, başqa yerdədirsə gözləmə, qayıt gəl evə. Veyis baba Peyğəmbərin evinə gedir. Onu həyat yoldaşı qarşılayır və Peyğəmbərin məsciddə olduğunu deyir. Üveys evin bir küncündə qabın içində diş olduğunu görür, kimin olduğunu soruşur. Gavab verirlər ki, Peyğəmbərin Uhud davasında düşən dişidir. Üveys anasına həddən artıq hörmət etdiyindən, onun tapşırığına əməl edib evə qayıdır. Peyğəmbərimiz evə qayıdan kimi deyir buradan Üveysin iyi gəlir, bəs hanı o? Deyirlər gəldi, səni soruşdu, anasından icazə almadığı üçün,

məscidə getmədi. Peyğəmbər Üveyslə görüşmədiyinə təəssüf etsə də, anasına olan hörmət onun xoşuna gəlir. Belə hədis edirlər ki, Üveys Qərani evə gələn kimi 32 dişinin hamısını çıxartdırır. Deyir əgər Allah yolunda Mühəmmədin (Səlləllahu Əleyhim və Səlləm) bir dişi düşübsə, mən ağzımda diş saxlaya bilmərəm.

Başqa bir rəvayətdə deyilir:

Üveys əl-Qərani üç gün-üç gecə heç nə yeməmişdi. Dördüncü gün səhər tezdən bayıra çıxdı. Yolda qızıl bir pul gördü. Götürmədi ki, kimdənsə düşüb. Göygöyərtidən toplayıb yemək istədi. Bir də gördü ki, bir qoyun ağzında qızıl pul ona tərəf gəlir. Qoyun gəlib onun qarşısında durdu. Üveys Qərani üzünü yana çevirdi. Qoyun dilə gəlib dedi: «Mən də sənin qul olduğun zatın quluyam, Allahın ruzisini Allahın qulundan al”» Veysəl Qərani əlini uzatdı ki, pulu götürsün. Bir də gördü qızıl əlindədir, qoyun isə qeyb oldu.

Rəbbin Heysəm belə rəvayət edir:

- Veysəl Qəranini görməyə getmişdim. Sübh namazında idi. Dedim ki, təsbihlərin sonuna qədər gözləyim, günortaya qədər namazdan durmadı. Qalxdı, günorta namazını qıldı, sonra əsr namazını qıldı. Xülasə üç gün namazdan durmadı. Yemədi, yatmadı. Dördüncü gecə ona qulaq asdım. Gözünə yuxu getmişdi. Dərhal minacata başladı və belə dua etdi: “Rəbbim! Çox yatan gözdən və çox yeyən qarından sənə pənah aparıram”. Fikirləşdim ki, bu dua da bəsimdir və halımı pozmadan durub getdim.

Veysəl Qəraniyə dedilər ki, filan yerdə bir adam var, otuz ildir ki, bir məzar qazıyıb, kəfənini geyib, o

qəbrin başında oturub, elə hey ağlayır, nə gecəsi var, nə gündüzü. Dedi ki, məni o yerə aparın. Oraya gəldilər. Həmin adamın rəngi saralmış, çöhrəsi zəifləmiş, gözləri ağlamaqdan çuxura düşmüşdür.

Veysəl Qərani həzrətləri dedi:

- Ey insan, bu qəbir və kəfən səni otuz ildir ki, Allahdan ayrı salıb. Allahı düşünməkdənsə, qəbri və kəfəni düşündün?

Həmin adam bu sözləri eşitcək fəryad etdi, yıxılıb can verdi.

Veysəl Qəranidən soruşdular ki, namazda "xuşu" nədir? Buyurdu ki, xuşu insanda elə bir haldır ki, namaz vaxtı böyrünə iynə batırsalar, duymasın. Ondan soruşdular ki, necəsən? Cavab verdi ki: "Səhərlər qalxıb, axşama sağ çıxacağını bilməyənin halı necə olar?".

Veysəl Qəraninin hikmətli kəlamlarından bəzilərini yada salaq:

- *Yanında olmayan bir kəs üçün dua etmək, ziyarət əsnasında yüzü üçün dua etməkdən daha yaxşıdır. Üz-üzə gələndə edilən duada səmimiyyət olmaz, bəlkə də riya qarışar bu duaya.*

- *Qəlbinə çox diqqət et.*

- *Allahını tanıyana heç bir şey gizli qalmaz.*

- *Yüksəklik axtardım, təvazökarlıqda tapdım. Rəislik axtardım, xalqa nəsihətdə tapdım. Əsl-nəsəb axtardım, təqvada tapdım. Rahatlıq axtardım, zühddə tapdım. Zənginlik axtardım, təvəkküldə tapdım.*

Veyis babanın qəbrini ziyarət edərkən yaşlı bir kişidən marqlı bir söhbət eşitdim:

- Sovet hökumətinin dövründə, pambıq yığımı vaxtı idi. Ziyarətə gələnlər hamısı qurbanlarını kəsib bişirirdilər. Birdən dedilər İbrahimov gəldi. Ağdaşın birinci katibi idi. Onu görən kimi hərə bir tərəfə qaçdı. Katib yüyürüb, Məhəmməd adlı bir kişini tutdu. Yaxasından yapışıb, çəkdi Veyis babanın qəbrinin yanına. Dedi yerdəki daşı götür, vur başdaşına. Kişi qorxusundan tir-tir əsirdi. Dedi vura bilmərəm. İbrahimov kişinin üstünə qışqırdı ki, vurmasan səni həbs edəcəm. Kişi əlacsız qalıb, yerdən bir daş götürüb, vurdu başdaşına. Bu vaxt dəhşətli bir mənzərə yarandı. Başdaşından bir od çıxıb, gəldi düşdü Məhəmməd kişinin gözlərinə. O qışqırdıki, ay Allah gözlərim yandı: Hamımız heyrətdən donub qalmışdıq. İbrahimov kənarda dayanan, buranın gözətçisi Ziyəddin əfəndini tutdu. Boğazından yapışıb, başladı boğmağa. Heç kəs qorxusundan yaxın durub, aralaşdırmırdı. Bu vaxt gördük başımızın üstündəki ağacın budağı àøàüû ÿéèëèð. Áóäàã ÿéèëèá, ýèðäè äöç Èáðàùèìîâëà Çèéÿääèí êèøèíèí àðàñûíà. Áóäàãäàí áèð éåêÿ èëàí äöøöá, äîëàíäû êàòèáèí áîéíóíà. Áó âàõò Èáðàùèìîâóí öðÿéè ýåäèá, òèð-òàï óçàíäû. Îíóíëà ýÿëÿíëÿð ùàìûñû ãîðõóäàí ãà÷ûá, äàüûëäûëàð. Çèéÿääèí ÿôÿíäè èëàíû àðàëàäû âÿ áèçÿ äåäè êè, áóíó ýþöðöí. Áèç êàòèáè ýþöðöá áèðòÿùÿð ìàøûíà ãîéäóã, ñöðúö äïàðäû. Ñîíðà áèçèì êÿíäèí êîëõîç ñÿäðè Ãÿùðÿìàíà òàïøûðäûëàð êè, ýåò îðàíû äàüûò. Î äà ãàðäàøëàðû èëÿ ýÿëäèëÿð áóðà. Åëÿ ùÿìèí ýöí Ãÿùðÿìàíûí åâè éàíäû, ãàðäàøû èñÿ ñàáàùû ýöíö þç ìàøûíûíäà éàíäû.

Möcüzəli fotolar

1998-úè èëäÿ ÷àï îëóíàí âÿ áþéöê þâëèéàëàðäàí áÿùñ åäÿí «Àëëàùûí äîñòëàðû”» àäëû êèòàáûìäà êàìèë èíñàí Óâåéñ ÿë-Ãÿðàíëäÿí (Veyis babadan) áÿùñ åòìèøäèì. Ùÿìèí ôÿñèëäÿ þâëèéàíûí ãÿáðèíè þç øÿõñè ôîòîàïàðàòûìëà ÷ÿêèá, øÿêëèíè 12-úè ñÿùèôÿéÿ éåðëÿøäèðìèøäèì. Êèòàá ÷àï îëóíàíäàí áèð íå÷ÿ èë ñîíðà, ùàçûðäà éàõûí äîñòóì îëàí, áÿñèðÿò ñàùèáè Õàëëä Ôÿðÿúëÿ ðàñòëàøäûì. Ñþçöýåäÿí êèòàáû ÿëèíÿ àëàí êèìè, «Bó êèòàáäà íÿ èñÿ áþéöê áèð ìþúöçÿ âàð”» - äåéèá, âÿðÿãëÿìÿéÿ áàøëàâû. 12-úè ñÿùèôÿäÿ þâëèéàíûí ãÿáðèíèí øÿêëèíè ýþðÿíäÿ ùåéðÿòèíè ýèçëÿäÿ áèëìÿéèá: “Áó êè, Âåéèñ áàáàíûí þçöíöí øÿêèëèäèð»” - äåäè.

Veyis Babanın qəbri.
Ağdaş rayonu, Qaxay kəndi.

Øÿêèëäÿêè áàøäàøûíà äèããÿòëÿ áàõäûãäà, ÿéíèíäÿêè êöðêöí éàõàñû à÷ûã, óçóí ñàããàëêû, ñà÷ëàðû ÷èéíèíÿ òþêöëìöø íóðàíè áèð êèøèíèí èáàäÿò àíûíäà îëäóüó àéäûí ýþðöíöðäö. Þçöì äÿ òÿÿúúöá åòäèì êè, íèéÿ èíäèéÿäÿê áó øÿêèëÿ äèããÿòëÿ ôèêèð âåðìÿìèøÿì. Şəkildəki hikmət övliyanın həqiqi qəbri haqqında mübahisələrə son qoymaq üçün kifayət

qədər yetərlidir. Şəkildəki digər hikmətlərin isə ictimaiyyət üçün açıqlanmasının zamanı deyildir.

SEYİD ŞAHİMƏRDAN

Rəhman Rəhim olan Allahın adı ilə

«Allah pisi yaxşıdan ayırmaq üçün möminləri sizin** (indi) **olduğunuz vəziyyətdə qoyan deyildir. Lakin Allah öz peyğəmbərlərindən istədiyi şəxsi seçər. Ona görə də Allaha və onun peyğəmbərlərinə inanın. Əgər inanıb Allahdan qorxsanız, sizi böyük bir mükafat gözləyir!» *Quran, «İmran ailəsi» surəsi, 179-cu ayə.*

Peyğəmbərimiz Məhəmməd əleyhissəlamın nəslindən olan Seyid Şahimərdan XII və yaxud XIII əsrdə İranın Gilan şəhərində anadan olmuşdur. Babası Əbdül Qadir gilani XI əsrin ən böyük övliyası sayılmışdır.

Əbdül Qadir 1077-ci ildə Gilanda anadan olmuş, sonra Bağdada köçərək orada vəfat etmişdir. Hal-hazırda qəbri Bağdad əhli tərəfindən ziyarət olunur. Gilani nəsli hazırda dünyanın bir çox ölkələrində – o cümlə-dən Əfqanıstanda və Türkiyədə yayılmışdr. «Qurtlar Vadisi» və sair filimləri ilə dünyada şöhrət qazanmış Şaşmaz ailəsi də bu nəsildəndir.

Seyid Şahmərdan Babanın qəbri. Zərdab rayonu, Yuxarı Seyidlər kəndi

Seyid Şahimərdan gənc yaşlarında ailəlikcə Gilandan Azərbaycanın Quba mahalına köçmüşdür. Bir müddət burda yaşadıqdan sonra Kür çayının sahilinə – Veyis babanın qəbrinin yaxınlığına Seyidlər kəndinə köçmüşdür. Bura köçərkən Seyid Şahimərdanla onun nəslindən olan 5 ailə gəlmişdir. Onun üçün də köçdükləri yer «Beş öylü seyidlər» adlanmışdır.

Bir müddət burada yaşadıqdan sonra vəfat edən Seyid Şahimərdan həmin yerdə də dəfn olunmuşdur. Hal-hazırda onun qəbri Zərdab rayonunun Seyidlər kəndində, Kür çayının sahilində Uveys Qəraninin qəbrinin 5 km-dədir.

Seyid Şahimərdanın nəslindən Azərbaycanda da bir çox tanınmış elm və din xadimləri yetişmişdir. Onlardan biri XIX əsrdə anadan olmuş, 30 il dini təhsil almış, İstanbulda məktəbi o dövrün deyilişinə görə iki sarıqla qurtarmış (başındakı sarıqların sayı 2 olmaq ən yüksək rütbə sayılırmış) Seyid Hacı Mustafa əfəndidir. Hacı Mustafa uzun müddət Ağdaşda qazi olmuş və Hacı Zeynalabdin Tağıyevlə dostluq etmişdir. (H.Z.Tağıyevin xatirələr kitabında bu barədə məlumat

verilir). Sovet hökuməti qurulduqdan sonra Ağdaşda Məhkəmə – Xalq hakimi təyin edilən Hacı Mustafa Qubada vəfat etmişdir. Hazırda onun qəbri Qubada ziyarətgah sayılır.

SEYİDAĞA BABA

Rəhman və Rəhim Allahın adı ilə

«**Kim İslamdan başqa bir din ardınca gedərsə, o din heç vaxt ondan qəbul olunmaz və o şəxs axirətdə zərər çəkənlərdən olar**» Quran, «İmran ailəsi» surəsi, 85-ci ayə.

Həyatını İslam dininin gözəlliklərini təbliğ etməyə sərf edən möminlərdən biri də Seyidağa Babadır. O, 1898-ci ildə indiki Ucar rayonunun Alpout kəndində doğulub. Seyidağa Mövsümov dünyaya gələndə, atası Mirmövsüm ağanın dünyadan köçməsinin 40-cı günü idi. Odur ki, o, anası Yetərin himayəsində böyümüşdür. Yüksək əxlaq, gözəl tərbiyəsi və təqvası ilə tay-tuşlarından seçilib. Çox keçməyib ki, ata-babalarında olan kəramət Seyidağa Babada da təcəlli etməyə başlayıb.

Yeri gəlmişkən qeyd edim ki, seyidağa Babanın şəcərəsi İmam Rza əleyhissəlamın oğlu Həzrət Məhəmməd Təqi vaitəsi ilə Həzrət Peyğəmbər Məhəmməd əleyhissəlama qədər gedib çıxır.

Seyidağa Babanın qəbri-şərifini imamlar da ziyarət edirlər.

Alpoit kəndində olarkən Seyidağa Babanın kəramətlərinə və qəbri-şərifi ətrafında baş verən möcüzələrə dair çox maraqlı söhbətlər eşitdim ki, onlardan bəzilərini diqqətinizə çatdırmağı lazım bildim.

Məmmədov Rövşən Arzuman oğlu – 23 yaşlı Alpout kənd sakini:

– Təxminən 14 ya 15 yaşım vardı, cüməaxşamı günü idi. Seyidağa Babanın qızı Seyid Zeynəb mənə dedi ki, ağanın qəbrini ziyarətə gedirəm, gəl mənimlə gedək. Zeynəb xalanın mənimlə həmyaşıd olan nəvəsi Rafiq də bizimlə gedirdi. Seyid Zeynəb qəbirstanlığa tək getmək istəmədiyindən, Rafiqlə məni özünə həyan götürmüşdü. Günortadan sonra idi. Ziyarət edib, üçümüz də oturmuşduq Seyidağa Babanın qəbrinin kənarında. Birdən at ayaqlarının tappıltısını eşitdik. Bura qəbiristanlığın ortası olduğundan, atlı dəstəsinin gəlməsi bizi təəccübləndirdi. Üçümüz də qalxıb ətrafa baxdıq, heç kəsi görmədikdə təəccüblə bir-birimizə baxıb, aşağı oturduq. Birdən yanımızda dörd atlının dayandığını gördük. Qılınc qalxanla yaraqlandıqlarından, görünürdü ki, qədim dövrün adamlarıdır. Onları görən kimi üçümüz də ayağa qalxdıq. Rafiqlə mən qorxduq. Seyid Zeynəb xala bizi sakitləşdirib, dedi qorxmayın, imamlarımızdandır, ziyarətə gəliblər. Onu da deyim ki, atlılardan biri - daha mötəbər görünəni qarşıda dayanmışdı. Onun sağında, solunda və arxasında dayanan üç yaraqlı atlılar ondan bir-iki addım geridə dayandıqlarından, sanki onu üç tərəfdən mühafizə edirdilər. Qarşıda dayanan mötəbər atlı dua verdi, ərəbcə nəsə oxudu, bəlkə də Quran idi. Biz üçümüz də lal-dinməz gələnlərə baxırdıq. Təxminən on dəqiqə durduqdan onra üzü qiybləyə tərəf dönüb, bir neçə addım getdikdən sonra yox oldular. Hansı ki, o istiqamətdə yol yoxdur. Onlar gedəndən sonra biz təəccüblə o yan – bu yana baxdıq,

bir şey görə bilmədik. Amma bayaq dayandıqları yerdə atların ayaq izləri hələ də qalmışdı.

Yeri gəlmişkən qeyd edim ki, Rövşənin danışdığı bu hadisəni Seyidağa Babanın qızı Zeynəb xala da mənə olduğu kimi danışdı.

Kim ki, çatmır dərdlilərin dadına, insan demək olmaz onun adına

Məmmədov Qədir Sədir oğlu, Alpoid kənd sakini, Seyidağa Babanın kürəkəni:

– Katib Cəfərovun dövründə «Kirpi» jurnalı ağanın karikaturasını çəkmişdi. Redaktoru da, rəssamı da üç günün ərzində faciəli şəkildə öldülər. Sonra Cəfərov Seyidağa Babaya pambıq sahəsi ayırdı ki, getsin becərsin. Kənd camaatı iməcilik edib, bir gündə həmin sahənin alağını təmizlədilər. Katib gəlib baxdı, bir bəhanə tapa bilmədi, başladı Seyidlə mübahisə etməyə ki, camaat niyə sənin evinə ziyarətə gəlir? Birdən necə oldusa, katib başını əyib, dedi vur başıma. Seyidağa Baba şəhadət barmağını uzadıb, dedi sənin başına ağam Həzrət Abbas vursun.

Aradan 3-4 gün keçmiş katibin ölüm xəbəri gəldi. Ölməzdən öncə yaxınlarına deyib ki, o kişi barmağını başıma tuşlayanda, başımdan sızıltı keçdi. Məni onun qarğışı tutdu.

Ağa çox insanpərvər, nəfsi tox adam idi. Gündə ziyarətinə onlarla xəstə, dərdli gəlirdi. İmkanlı adamların verdiyi nəzirlərin imkansız ziyarətçilərin cibinə basırdı ki, birdən yol pulunuz olmaz. Ondan söz düşəndə həmişə yadıma Sədi Şirazinin misraları düşür:

Adəm övladıdır hər bir adəmi,
Bütöv bir bədəndir bəşər aləmi.
Bədənin bir üzvü ağrıyan zaman
Digər üzvlər də olur pərişan.
Kim ki, çatmış dərdlilərin dadına,

İnsan demək olmaz onun adına!

Seyidağa Baba sözün həqiqi mənasında dərdlilərin ümid yeri idi. Allah ona rəhmət eləsin.



Seyidağa Baba

Sonda Qədir dayı öz yazdığı bir kuplet şeiri mənə göstərib, bunu özünün baş daşına yazdırmağı vəsiyyət etdiyini dedi. Şeirdə dərin məna və fəlsəfi fikirlər öz əksini tapdığından, oxucuların diqqətinə çatdırmağı lazım bildim:

Zərr aləmindən uçmuş bir ruh idim,
Dünya əhli deyildim.
Dünyada bədənim ruhuma qəfəs olmuş,
Etiqadım üsuli-din,
Əməlim isə firuuddin olmuş.
Şükür olsun ki, bədənim cəmadata[3] əmanət,
İmanla uçduğum aləmə düşdüm.

Qeyd edim ki, Seyidağa Baba gəncliyində Həcər adlı bir qızla ailə qurub. Üç övladı dünyaya gəldikdən sonra, Həcər xanım dünyasını dəyişib. Daha sonra Şəkər adlı dul qadınla ailə quran Seyidin bu nigahdan beş övladı olmuşdur.

Nəhayət 1961-ci ilin noyabrın 25-də bu Allah dostu dünyasını dəyişərək, Haqqa qovuşmuşdur.

[3] torpağa

Mərsiyəxan

Ucar rayonun Alpout kəndində Seyidağa Babanın qəbrini ziyarət edib qayıdarkən, yolda kənd sakini Seyid Mir Həsən Seyidəli oğlu məni öz əmisi Mir Babanın yazdığı qəzəllərdən və mərsiyələrdən danışdı. Onun gətirdiyi sitatlar əmisinin dərin təfəkkürə malik bir şair olduğunu göstərirdi. Onun evinə gedib, yaradıcılığı ilə tanış olanda, qənaətimdə yanılmadığımı gördüm. Mir Babanın yazdığı qəzəllər Azərbaycanın ədəbiyyat tarixində çox nadir hallarda rast gəlinən 32 hecalıq qəzəllər idi ki, bunlar indiyə qədər tədris olunan klassiklərimizin əsərlərindən heç də geri qalmırdı. Sadəcə müəllifin indiyədək çap olunmaq imkanı olmadığından, bu sənət nümunələri xalqın ixtiyarına verilməmişdir.

Məlumat üçün bildirim ki, bu el şairinin babası Mir Cabbar Azərbaycanda kəramətiylə məşhur olan seyidlərdən olmuşdur. Mir Cabbarın İrandan gətirdiyi və bu günədək nəslində qorunub saxlanan şəcərəsi onun Həzrəti Peyğəmbərimizin nəslindən olduğunu təsdiq edən rəsmi sənəddir.

Mir Babanın arxivindən bir mərsiyəni diqqətinizə çatdırıram.

Dəstəgir əhli-əyal isti qum üstə dolanır,
Yalın ayaqlı Səkinə yorulub çox dayanır.
Oğul nəşini görüb, Fatimənin beli sınır,
Usərada oyanır şikəstəm aşuradə bu gün.

Keçdi Şümrün əlinə bu fürsət aşuradə bu gün,
Kərbəladə qopdu tək qiyamət aşuradə bu gün,
İmamlar səkdi belə müsibət aşuradə bu gün,
Şühadadır yaralı gəl ümmət aşuradə bu gün.

Kəfəni qanə boyanmış Əli Əkbərim ölər,
Qasimin yarələrindən yerə al qan tökülər.
Ümmü Leyla boyunu çarəsiz, məzlum bükülər,
Müdamı fəğan olur bu söhbət aşuradə bu gün.

Keçdi Şümrün əlinə bu fürsət aşuradə bu gün,
Kərbəladə qopdu tək qiyamət aşuradə bu gün,
İmamlar səkdi belə müsibət aşuradə bu gün,
Şühadadır yaralı gəl ümmət aşuradə bu gün.

Pasibanım yox bu gün qardaş, ələmdarım mənim,
Şümrü dəstinə düşər Səkinə ağlarım mənim.
Köməyə gəlməyir artıq şühədalarım mənim,
Verməyir Şümür Hüseynə möhlət aşuradə bu gün.

Keçdi Şümrün əlinə bu fürsət aşuradə bu gün,
Kərbəladə qopdu tək qiyamət aşuradə bu gün,
İmamlar səkdi belə müsibət aşuradə bu gün,
Şühadadır yaralı gəl ümmət aşuradə bu gün.

ABDURAHMAN ƏFƏNDİ

Rəhman Rəhim olan Allahın adı ilə

"Əgər onlar səni yalançı sayarlarsa heç də qəmgin olma! Çünki səndən əvvəl açıq möcüzələr, səhifələr və nur saçan kitab gətirmiş peyğambərləri dəyalançı saymışlar." *Quran, "İmran ailəsi" surəsi, 184-cü ayə.*

Quran ayəsindən də göründüyü kimi Adəm övladları içindən zaman-zaman kəramət nümayiş etdirən, möcüzə göstərən şəxsiyyətlər çıxsa da, bütün dövrlərdə onlar təqiblərə məruz qalmış, hər zaman çoxluq təşkil edən cahil təbəqə tərəfindən inkar olunmuşlar. Abdurahman Əfəndi və onun atası Hacı Mirzə Əfəndi, babası Hacı Mirəli Əfəndi də bu cür kəramət sahibi övliyalardan olmuşlar. Onların dualları ilə möcüzə hasil olsa da, cahillərin şoxluq təşkil etməsini nəzərə alıb, bu möcüzələri ciddi cəhdlə insanlardan gizlətməyə çalışmışlar. Onların nəslindən olan adamlar bu möcüzələr, kəramətlər haqqında mənə danışsalar da, sonda bu kəramətləri yazmamağı xahiş edirdilər. Aradan iki-üç əsr keçməsinə baxmayaraq yenə də cəmiyyətdəki cahillərin çoxluğundan ehtiyatlanırdılar.

Düşünürəm ki, cəmiyyətdə cahilləri çoxluğu qələm əhlini qorxutmamalıdır. Müqəddəs Qurani-Kərimi oxuduqda da aydın olur ki, möcüzə göstərənlər həmişə yalançı hesab ediliblər: ***"Biz bu Quranda insanlar***

üçün hər cür məsəl çəkdik. Həqiqətən, sən onlara Musanın əsası kimi hər hansı bir möcüzə gətirsən belə, onlar mütləq: "Siz yalançısınız!" – Deyəcəklər." *Quran, "Rumlular" surəsi, 58-ci ayə.*

Bütün bunlara rəğmən mən Abdurahman Əfəndi və onun atasının kəramətlərindən bəhs etməkdən vaz keçmədim. Necə ki, Rəbbim buyurur: ***"Siz günah etməkdə həddi aşan bir qövmsünüz deyə, Biz Quranı sizə təbliğ etməkdən vaz keçməliyikmi?!"***

Yəni cəmiyyətdəki beş-on cahilə görə o böyüklükdə övliyanın kəramətini danmalıyıqmı?

Abdurahman Əfəndi Hacı Mirzə Əfəndi oğlu XVIII əsrin sonları, XIX əsrin əvvəllərində Göyçay qəzasının (indiki Zərdab rayonunun) Allahqulubağı kəndində yaşamışdır. İlk Təhsilini atası Hacı Mirzə Əfəndidən alan Abdurahman Əfəndi, daha sonra Şamaxı ruhani məktəbini bitirmişdir.

İlahiyyat elminin incəliklərini dərindən öyrənən Abdurahman Əfəndi, Allahqulubağı kəndinə molla seçilməklə, həm də bu əraziyə qazi təyin edilmişdir.

Atası elm, iman və təqva sahibi olan hacı Mirzə Əfəndi kəramət sahibi övliyalardan olmuşdur. Allahqulubağı kənd ağsaqqallarının danışdığına görə bir gün Əfəndinin körpə doğmuş inəyi ölür. Həyat yoldaşının buzova görə narahat olduğunu görən övliya, arvadına narahat olmamağı məsləhət görür. "Allah Kərimdir, bir çarə qılar." – deyir.

Hacı Mirzə Əfəndi zənnində yanılmadı. Qüdrəti-İlahidən bir ana ceyran gündə iki dəfə - səhər, axşam

övliyanın həyətinə gəlir, yetim qalmış körpə buzovu əmizdirməklə yanışı, həm də övliyanın onu sağmasına imkan verirdi.

Kənd sakinlərinin danışdığına görə, övliyanın əli dara düşəndə başının altına Qüdrəti-İlahidən ləl-cavahirat qoyularmış. Hacı Mirzə Əfəndi həmin zinət əşyasını satıb, ehtiyacını ödəyərmiş. Həyat yoldaşına tapşırarmış ki, bu möcüzə barədə heç kəsə danışmasın. Qadının sirr saxlaya bilməməsi, həmin ruzinin kəsilməsinə səbəb olmuşdur.

Müsahibim bu möcüzəni danışdıqca, yadıma Mövlanə Cəlaləddin Rumi ilə kimyaçı Bədrəddin Tirmizi arasında baş verən bir əhvəlat düşdü. Əhvalat belə olmuşdur:

Mövlana ilə bir zamanda yaşayan Bədrəddin Tirmizi müxtəlif maddələrdən qızıl düzəldən bir kimyaçı idi. Mövlana ilə görüşəndə ona belə dedi:

- Düzəltdiyim qızıllardan hər gün bir dirhəmini sənin tələbələrinə verəcəm.

Mövlana bu sözlərdən sonra, Tirmizinin mədəndən çıxardığı əşyalarını əlinə götürərək, bir-bir kimyaçıya verdi və əlinə götürdüyü hər bir əşya, Qüdrəti-İlahi ilə qızıla çevrildi. Kimyaçı heyrət və heyranlıq içində nə edəcəyini bilmirdi. Mövlana çaşqınlıq içində qalan kimyaçıya belə dedi:

- Ey Bədrəddin! Sən kimya ilə məşğul olmağı tərk et! Çünki sən axirətə gedincə, kimya dünyada qalacaqdır. Sən elə bir kimya ilə məşğul ol ki, sənin lə bərabər o da axirətə getsin və orada sənə lazım olsun.

Məhz bu kimya din elmidir. O da qəlbindən maddiyyat sevgisini çıxarıb, yerinə Allah sevgisini doldurmaqla mümkündür.”

Hacı Mirzə Əfəndinin atası Hacı Mirəli Əfəndi də kəramətiylə məşhur olan övliyalardan olmuşdur. XVII əsrin sonları XVIII əsrin əvvəllərində Allahqulubağı kəndində yaşamış bu Allah dostunun həyatı haqqında əlimizdə geniş bilgilər olmasa da, el arasında onunla bağlı dillərdə gəzən bir deyim övliyanın kəramətləri barədə bizdə təsəvvür yaradır. Belə ki, el arasında bu övliya haqqında **“Topuğu qarlı Hacı Mirəli Əfəndi”** deyimi bu günümüzə qədər gəlib çatmışdır. İsti yay günlərində övliyanın ayaqlarında tez-tez qar görünməsi, bu deyimin yaranmasına səbəb olmuşdur.

Abdurahman Əfəndi dünyasını dəyişəndə yolunu oğlu Cərullah Əfəndi davam etdirmişdir.

“Bu hekayətlərdə ağıl sahibləri üçün, sözsüz ki, bir ibrət vardır. Bu, uydurma bir söz deyildir. Ancaq özündən əvvəlkilərin təsdiqi, hər bir şeyin müfəssəl izahıdır. O, iman gətirən bir tayfa üçün hidayət və mərhəmətdir!” *Quran, “Yusif” surəsi,111-ci ayə.*

HACI ABDU ƏFƏNDİ

Rəhman və Rəhim olan Allahın adı ilə

"Biz peyğəmbərlərin xəbərlərindən *(başlarına gələnlərdən)* ***ürəyini möhkəmləndirəcək*** *(qəlbinə qüvvət verəcək)* ***nə varsa,*** *(hamısını)* ***sənə nağıl ediridk. Bu*** *(Quran)* ***sənə haqq, möminlərə isə moizə və öyüd-nəsihət olaraq gəlmişdir!"***

Hacı Abdu Əfəndi Hacı Əli Əfəndi oğlu 1825-ci ildə Şirvan əyalətinin Sərdərin mahalının (indiki Ucar rayonunun) Qaracallı kəndində anadan olmuşdur. Atası Hacı Əli Əfəndi və ata babası Bürcəli Baba kəramət sahibi övliyalardan olduqları üçün xalq tərəfindən həm sağlıqlarında həm də bu gün ziyarət olunurlar (Burcəli babanın qəbri Fizuli rayonu ərazisində, Hacı Əli Əfəndinin qəbri isə Qariçallı kəndinin köhnə qəbristanlığındadir).

Hacı Abdu Əfəndinin yeddi yaşı olanda atası rəhmətə getmiş, on yaşına çatdıqda isə anası Pəri xanım Seyid Məmməd adlı şəxsə ərə getdiyindən, əmisi Rəhimin himayəsi altında böyümüşdür.

Hacı Abdu Əfəndi ilk təhsilini on iki yaşında ikən İnçəli Məhəmməd Əfəndidən almışdır. Sonra təhsilini Müsüslü İsmayıl Əfəndinın, daha sonra isə Kərim Əfəndinin (ölüm tarixi 1857) yanında davam etdirmişdir. Qaracallı kəndinə molla seçiləndə Abdu Əfəndinin iyirmi dörd yaşı vardı.

İlk təsəvvüfü biliklərini mürşüdü, Kürdəmirlı Hacı Mahmud Babadan alan Hacı Abdu, onun icazəsi ilə elmin sirlərini daha dərindən öyrınmək üçün, Həcc ziyarətindən qayıdarkən, Amasiyaya, İstanbula getmış, bir müddət buradakı alimlərdən dərs almışdır.

1850-ci illərin əvvəllərində Qaracallıya qayıdaraq Şirvan Nəqşibəndi şeyxlərinin ənənəvi təsəvvüfü fəaliyyətindən nisbətən fərqlənən irşad məqamına keçmişdir. O, cümə gecələri keçirilən və "cəmiyyət" adlanan zikr mərasimlərində qadınların da iştirakına icazə verir.

Hacı Abdu Əfəndinin haqqında olan arxıv sənədləri arasında belə bir arayış vardır:

«O əsl tatar (azərbaycanlı) kimi ortaboylu, üzünün cizgiləri düz və zərif şəxsdir. Səsi icncə, aydın, bir qədər tutqun olub, sürətli nitqə malıkdir. Cəsarətlidir. Silahdan məharətlə istifadə edir. Ova çıxmağı xoşlayır. Qonaqpərvərdir. Yeyəcəyi xörəyi hazırlamaqdan çəkinmir. Yun köynək geyinir. Varlıdır. Xidmətçiləri var. Seçmə atlar saxlayır. Qəza şəhərlərində yüksək mənsəb sahibi ailələrlə münasibətdədir. Qaracallıda minaräli məscid tikdirmişdir. Məscidin yanıda isə qonaq qəbul etmək üçün üç otaq inşa etdirmişdir. Rəhbərliyə hörmətlə yanaşandır. Şəxsi mirzəsi vardır."

Şeyx Abdu Əfəndinin təsəvvüfi fəaləyyəti çar hökumətinin daimi nəzarəti altında olmuş və tez-tez təzyiqlərə məruz qalmışdır. Onun Xaçmaz, Qəbələ, Nuxa, Ərəş, Lahıc, Bərgüşad, Xançoban dairələrindən, Mustafaxanlı pristavlığından, Dağıstanın müxtəlif kəndlərindən çoxlu sayda müridləri vardı. Tərəfdarları

onu çox sevirlər. Bir kənddən başqa kəndə qonaq gedəndə ətrafında o qədər suvari dəstə olur ki, bunu ancaq şərq hökmdarlarının səfərləri ilə müqayisə etmək olar.»

1870-ci illərin əvvəllərində ov zamanı Şükür adlı müridinin əlində qəfil açılan tüfəng Hacı Abdu Əfəndiyə dəymiş, aldığı güllə yarasından dünyasını dəyişmişdir. Vəsiyyət etmişdir ki, oğlanlarından kim Şükürə düşmən gözü ilə baxsa, qiyamət günü yanıma üzüqara gəlsin.

Nəqşibəndi Şeyxi və Allahın sevimli dostu olan Hacı Abdu Əfəndinin on iki xəlifəsi vardı ki, onlardan səkkizinin adı məlumdur:

1. Molla Xəlil Zərdablı
2. İsgəndər Hacı Həsən oğlu Zərdablı
3. Həmid Hacı Xəlil oğlu Şilyanlı
4. Molla Əyyub Əfəndi Abdulla Əfəndi oğlu
5. Molla Qasım Haputlu
6. Molla Məmməd Əfəndi Abdulla Əfəndi oğlu Qurtqaşınlı
7. İsgəndər Əhməd oğlu
8. Molla Məmməd Rəhim oğlu Qaracallı

Hacı Abdu Əfəndi dünyasını dəyişəndə yurdunda Musa, Abdulməcid, Abdulqadir, Soltan, Hacı Veyis, Şıx Mustafa, Hacalı, Yasin, Həbibullah, Əbülfət adında on oğlu qalmışdır.

Sadıq Baba

*«**Biz istədiyimiz şəxsi dərəcə-dərəcə yüksəldirik. Şübhəsiz ki, Rəbbin hikmət, elm sahibidir**». Quran, «Davar» surəsi, 83-cü ayə.*

Allah-təalanın dərəcə-dərəcə yüksəltdiyi şəxslərdən biri də Hacı Əbdü Əfəndi nəslinin bu günkü davamçısı Sadıq Babadır. O, 1950-ci ildə doğulub. Atası Abdulla II Dünya müharibəsindən bi müddət sonra doğma kəndinə – Zərdab rayonunun Sarıqaya kəndinə köçmüşdür. Sadıq Babanın babası Soltan Baba da (1864-1944) dövrünün kəramətli övliyası kimi tanınmışdır. O, Qaracallıda doğulsa da sonralar Sarıqaya kəndinə köçərək, burada yaşamışdır. Ətraf kəndlərin əhalisi övliyanın qəbrini bu gün də sevə-sevə ziyarət edir, kəramətindən danışırlar.

Sadıq Baba

Sadiq Baba da bu nəslin davamçısıdır. O, ilk dini təhsilini kəramət sahibi olan atasından almışdır. Uşaqlığında əmiləri Nizaməddin və Cəmaləddindən, Yuxarı Seyidlər kənd sakini Molla Məhəmməddən öyrəndiyi hədis və zikirlər yaddaşında həkk olunmuşdur. Sadıq Babanın uşaqlıq və gənclik dövründə baş verən otuzdan çox möcüzəli hadisə bu gün də kənd camaatının yaddaşından silinmir. Böyük əmisi Nizaməddin Baba daim deyərmiş: «Ay Abdulla, bu uşaqda nəsə var, deyəsən babalarımızın yolunu davam etdirəcək.»

Abdulla Baba söhbət edir ki, müharibə dövrü (II Dünya müharibəsi-müəllif) Həzrəti Peyğəmbərimiz Məhəmməd əleyhissəlam yuxuma girib, dedi oğlun olacaq, adını Sadıq qoyarsan. Mən Sabir qoydum, uşaq öldü. Sonra dünyaya gələn uşağın adını Sadıq qoydum.

O, öz qəribəlikləri ilə başqalarından fərqlənirdi. Bir gün kəmkəndlisi Zəmilə adlı bir qız Sadıq Babanı söyür. Bir neçə gündən sonra sifəti əyilən Zəmiləni şəfa üçün hara aparırlarsa çarəsi tapılmır. Nizaməddin əmisigilə aparanda «Bu qız Sadığın qəzəbinə gəlib, onun yanına gedin» - deyir. Anası qızı Abdulla Babagilə aparanda gənc Sadıq Baba onlarla görüşməməkçün arxa qapıdan çıxır. Nəhayət, üçüncü gəlişlərində onu tapıb üzr istəyirlər. Baba onu bağışlayır, deyir gecəyarısı müqəddəslər ona əl çəkəcəklər. Amma o saat durub güzgüyə baxmasın, yoxsa tam düzəlməz. Amma qızın səbri tutmur, gecə durub güzgüyə baxır. Odur ki, ağzında azacıq əyrilik qalır. Səhər anası gəlir ki, Zəmilə sağalıb, indi də dua elə onun bəxti açılsın. Sadıq Baba dua edir, deyir üç gün vaxt qoyuram, amma bəlkə də tez oldu. Maraqlıdır ki, həmin söhbətin ikinci günü Zəmilə qoşulub qaçır.

Dövrünün bəsirətli adamlarından biri Sadıq Babanı cənnət meyvəsi adlandıraraq, bildirmişdi ki, çox dərdlərə mübtəla olanlar şəfalarını ondan alacaqlar.

Sadıq Baba sovetlər dönəmində sürücü işləyərkən, idarə etdiyi yük maşını 250 metr dərinliyi olan dərəyə yuvarlanır. Maşın top kimi yumurulanır. Səhər Babanın

ardınca gələn yol polisini inandırmaq olmur ki, maşının sürücüsü sağ-salamatdır və heç bir yeri cızılmayıb da.

Sadıq Baba elmə və elm adamlarına böyük qiymət verir. Bir dəfə eşidir ki, böyük maarifçi jurnalist Həsən bəy Zərdabinin ev muzeyinə onun öz əşyaları lazımdır. Tanıdığı bir ailədə Həsən bəyin və Hənifə xanımın işlətdiyi lampa-çırağı görmüşdü. Onlardan xahiş edib, həmin əşyanı aldı və muzeyə bağışladı.

O, keçmiş alimlərin və övliyaların əsərlərini diqqətlə oxuyur, həmçinin insanlara xidmət edir. Hər gün Sadıq Babanın yanına şişlərdən, qan xəstəliklərindən, baş, ayaq, bel ağrılarından, həmçinin sehr və tilsimdən, sonsuzluqdan əziyyət çəkən neçə-neçə xəstələr gəlir və şəfa tapırlar.

Sadıq Baba və onun həyat yoldaşı Firuzə xanımı cəmiyyətimizdəki neqativ hallar çox narahat edir. Onlar öz narahatçılıqlarını belə ifadə edirlər:

– Dünya dəfələrlə dolub-boşalıb. İnsan həddini aşanda, rüşvətxorluq, əxlaqsızlıq mühiti yarananda, Allah insanlar içərisindən onun əmrlərini yerinə yetirən bir insan seçir və onun vasitəsilə yaratdıqlarına bildirir ki, doğma yola dönsünlər. Onun elçisinin dediklərinə əməl etməyəndə ulu Tanrı öz qəzəbini endirib – ölümləri çoxaldıb, xəstəlikləri artırıb, şəhərlər batıb. Odur ki, insanlar hər zaman peyğəmbərlərin və övliyaların tövsiyələrinə qulaq asmalıdırlar.

Bu gün cəmiyyətimizdə sehrbazlıq, cadugərlik çox geniş yayılıb ki, bu da Allahın qəzəbinə səbəb olub – deyə Sadıq Baba söhbətini davam etdirir – bu barədə Quranın «Bəqərə» surəsinin 102-ci ayəsində Rəbbim buyurur: «***Onlar Süleymanın***

səltənətinə dair şeytanların oxuduqlarına *(sehr kitablarına)* ***uydular. Süleyman bu kitablara uymadığı üçün kafir olmadı, lakin şeytanlar sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanları xalqa öyrədərək kafir oldular. Halbuki o iki mələk: «Biz Allah tərəfindən göndərilmiş imtahanıq*** *(sınağıq)****, sən gəl kafir olma!» - deməmiş heç kəsə sehr öyrətmirdilər. Bununla belə cadugərlər yenə də ər-arvad arasına nifaq salan işləri onlardan öyrənirdilər… Onlar*** *(cadugərlər)* ***ancaq özlərinə faydası olmayan, zərər verən şeyləri öyrənirdilər. Həqiqətən onlar belə şeyləri satın alanların axirətdə payı olmadığını yaxşı bilirlər. Kaş ki, onlar özlərini nə qədər yaramaz bir şeyə satıqlarını biləydilər!***»

Bu gün vəziyyət o həddə çatıb ki, həmin o sehr, cadu kitabları mağazalarda, metrolarda satılır və Allahdan qorxmayanlar onları satın alaraq biri-birilərinə qarşı istifadə edirlər. Bizim rayonda hətta təhsilli mollalar da Allahın qadağan etdiyi bu kitabı alıb istifadə edirlər və gündə neçə-neçə adam onların qəbuluna gedir. Bütün bunlar Allahın qəzəbinə səbəb olur və cəmiyyətə bəlalar gətirir. Bu gün bizə müraciət edən xəstələrin çoxu sehrdən, cadudan əziyyət çəkənlərdir ki, onları müalicə edərkən biz də çox əziyyət çəkirik.

– Sadıq Baba, bu gün mağazalarda «Şəfa duaları» adlanan kitab da satırlar. Alanlar deyir ki, nə qədər oxuyuruq, nəticə hasil olmur.

– Bir nəfər Həzrət Əliyə yaxınlaşır ki, maddi cəhətdən mənə kömək elə. Əli əleyhissəlam yerdən bir ovuc qum götürərək, Qurandan bir surə oxuyub, quma

üfürür. Surənin təsirindən qum qızıla çevrilir və kasıbın ovcuna töküb, get doan deyir.

Həmin kasıb kişi yerdən bir ovuc qum götürərək, həmin surəni nə qədər oxusa da qum qızıla çevrilmir. Səbəbini soruşduqda, Həzrət Əli belə cavab verdi: «*Qum həmin qum, surə həmin surə olsa da, oxuyan qəlb başqadır*».

Bu əhvalatdan da göründüyü kimi, duanın qəbulu əsasən insanın qəlbindən aslıdır. Ona görə də peyğəmbərin, imamların, övliyaların duaları Allah dərgahında tez qəbul olunur. Onunçun də Quranda Rəbbim buyurur: «***Peyğəmbərlərin dualarını öz duanız kimi hesab etməyin***».

Sadıq Babanın ziyarətində olduğum vaxt Sank-Peterburq şəhərində yaşayan bir həmyerlimiz zəng edib, onu müalicə etməsini istədi. Baba təxminən 10-15 dəqiqə onunla məşğul oldu. Bu müddətdən sonra həmin həmyerlimiz zəng edib, özündə bir qədər yüngüllük hiss etdiyini dedi. Min kilometrlərlə uzaqlıqda olan bir xəstəni müalicə etməsinə təəccübləndiyimiri görüb dedi: «İnsan elmiylə hasil olan mobil telefonla dünyanın istənilən ölkəsiylə əlaqə yarada bilirsənsə, allahın elmiylə bu əlaqəni yaratmağa və kiməsə təsir etməyə niyə təəccüb edirsiniz. Allah hər şeyə qadirdir».

Firuzə xanım

«***Alah istədiyi şəxsə hikmət*** *(elm, mərifət, müdriklik)* ***bəxş edir. Kimə hikmət bəxş edilmişsə***

***ona çoxlu xeyir** (əbədi səadət) **verilmişdir. Bunu ancaq ağıllı adamlar dərk edərlər!**» Quran, «İnək» surəsi, 269-cu ayə.*

Allahın hikmət bəxş etdiyi bəndələrindən biri də Firuzə (İslamova) Soltanovadır. O, Zərdab şəhərində yaşamaqla, övliya Sadıq Babanın həyat yoldaşıdır. Bu birliyin sirrini soruşduqda Firuzə xanım belə açıqlama verdi: «Mənə gizli elmlər bəxş olunan vaxt qeyb aləmində Musa peyğəmbəri (ona Allahın salamı olsun) gördüm. Dedi qarşıda səni çətin anlar gözləyir. Sehrbazlıq, cadugərlik o qədər artacaq ki, insanların xarakteri büsbütün dəyişəcək. Sən bu cür hallara qarşı mübarizə apararsan.

Maraqlıdır ki, Musa peyğəmbərin də dövründə bu kimi neqativ hallar kütləvi hal almışdı. Sehrbazlığa qarşı mübarizə aparmaq üçün qardaşı Harunu Allah ona köməkçi verdi. Firuzə xanımla Sadıq Babanın (Hər ikisi bəsirətli adamdır) tale yollarını birləşdirməklə, cəmiyyətdəki mənfi ünsürlərə qarşı mübarizədə Allah onları biri-biri ilə möhkəmləndirmişdir.

Firuzə xanımın atası Kərəm əmi söhbət edərmiş ki, II Dünya müharibəsində yaralı halda qospitalda yatırmış. Yuxuda bir nurani şəxs qucağındakı uşağını göstərib, «Bu sənin dünyaya gələcək seyidə qızın Firuzədir. İndi sənə əl çəkəcək, sağalacaqsan – deyir.»

Uşaq əlini əsgərin yarasına çəkir. Atası deyirmiş ki, səhər oyananda

Firuzə xanım

özündə xeyli yüngüllük hiss etdim və tezliklə sağalıb qospitaldan çıxdım.

Müharibədən qayıdandan sonra Kərəm Xanpəri adlı möminə bir qızla ailə qurur və qızlarından birinin adını Firuzə qoyur. Hələ uşaqlıqdan bu qız öz ağlı, zəkası, elmi və imanı ilə öz yaşıdlarından fərqlənirdi. Onun ulu nənəsi Sara nənə imam nəslindən olan seyiddir. Balaca Firuzə 15 günlüyündən Leyla nənəsinin yanında yaşamağa başlayır. Nənəsinin verdiyi islami tərbiyə və peyğəmbərlərin, imamların, övliyaların həyatından danışdığı maraqlı əhvalatlar Firuzə xanımın yaddaşına ömürlük həkk olunur. Məhz bu ibrətamiz söhbətlər onun dünyaya baxışlarının formalaşmasında mühüm rol oynayır.

Yaşa dolduqca valideynləri onun qeyri-adi hərəkətlərindən heyrətlənirdilər. Firuzə xanım tez-tez titrədib qızdırar, bir müddət bayılarmış. Ayılanda yaxınlarına İlahi varlıqlarla görüşməsindən və aralarında olan söhbətlərdən danışarmış. Belə görüşlərdən biri də Xızır peyğəmbərlə olmuşdur. Firuzə xanım bacılarına deyib ki, Xızır peyğəmbər onu yüksək məqama çatacağı ilə müjdələdi. Bacısı Solmaz söhbət edir ki, evimizdə həmişə ilanlar olurdu. Onları hər dəfə bir rəngdə görürdük. Firuzə heç vaxt onlardan qorxmurdu. İlanlar onunla sanki oynayırdılar. Kəramət sahiblərindən biri deyib ki, bunlar mələikələrdir, sizə ilan donunda görsənir.

Firuzə xanım deyir ki, qeyb aləmində ziyarət etdiyi müqəddəslərdən biri də Hacı Abdu əfəndidir: «Əlini kürəyimə çəkib, dedi səni oxudacağıq və nəslimizə

qəbul edəcəyik. Həmin il Azərbaycan Dövlət Universitetinin jurnalistika fakultəsinə qəbul oldum. Oranı bitirdikdən sonra «Əkinçi» qəzetində işləməyə başladım. Daha sonra Hacı Abdu əfəndinin nəticəsi ilə ailə qurdum.»

Keçən əsrin 80-cı illərindən onun ziyarətinə çoxlu sayda insanlar gəlir. «Qonşu Ağcabədi rayonundan Təranə adlı xanım gəlmişdi bizə – deyə Firuzə xanım söhbət edir: – Dedi 21 ildir ailə qurmuşam, uşaq həsrətindəyəm. Yuxuda səni gördüm, kürəyimə əl çəkdin, dedin Allaha dua edəcəm övladın olsun. İndi həmin ailənin üç ya dörd uşağı var.»

Sovetlər dönəmində din adamlarına olan təzyiqlər Firuzə xanımdan da yan keçmədi. Həmin dövrlərdə başına gələn əhvalatlardan birini belə xatırlayır: «Bir gün ərazi təhlükəsizlik idarəsinin sədri öz xanımıyla bizə gəldi. Həyəcanlı olsam da özümü ələ ala bildim. Allaha dua etdim ki, mənə kömək olsun. Mənimlə sərt danışanda, dedim siz ali təsilli hüquqşünassınızsa, mən də ali təhsilli jurnalistəm. Üstəlik mən Allahın sevdiyi bəndələrdənəm. Dedi sənin əlindən nə gəlir? Dedim xəstəsinizsə, sizi müalicə edə bilərəm. Dedi qolumda ağrı var. Müalicə etdim, ağrıları çəkildi. Sonra əlindəki qovluğu açdı, dedi bu ərizələr sizdən yazılıb. Dedi davrazadan içəri girəndə hansısa bir qüvvə sanki məni itələdi. Bir qədər də irəliləyəndə yenə də itələndim. Fikrimdə tutdum ki, bu adama heç nə etməyəcəm, sadəcə tanış olmağa gedirəm. Bu niyyətlə girdim içəri. Siz doğurdan da güclü və hikmətli adamsınız.»

Yaxşı ki, sən varsan…

Şəyalı əllərinə ehtiyac duyduğumuz Sadıq Babaya

Ağrı-acı köksüm başın yaxanda,
Məngənə tək ürəyimi sıxanda–
Qəlbim işıqlandı sənə baxanda,
Sandım ki, işıqsan, nursan, ay Baba!

Qollara güc gəlir kəramətindən,
Könüllər isinir hərarətindən.
Necə danışmayım səxavətindən,
Namussan, qeyrətsən, arsan, ay Baba!

Gəlir sorağına ellər hər yandan,
Mayan yoğrulubdu dindən, imandan.
Firuzə xanıma əzəl zamandan
Layiqli sirdaşsan, yarsan, ay Baba!

Qəlbə qida verdin öz əllərinlə,
Səmimi, xeyirxah əməllərinlə.
Qəlbən güvəndiyin bu ellərinlə
Əzəl gündən bəxtiyarsan, ay Baba!

Şəfanla ötüşdü hər dərd-sərimiz,
Qondu alnımıza isti tərimiz.
Sənsən pənahımız, ümid yerimiz
Yaxşı ki, həyatda varsan, ay Baba!

Mübariz Səfiyaroğlu Mizrab

MİR YAQUB AĞA – QƏRİB SEYİD

Rəhman Rəhim olan Allahın adı ilə

***"Biz israil oğullarından əhd almış, onlara peyğəmbərlər göndərmişdik. Hər dəfə bir peyğəmbər onların yanına ürəklərinə yatmayan bir hökmlə gəldikdə** (həmin peyğəmbrlərin) **bir qismini yalançı hesab edər, bir qismini də öldürərdilər. Və belə hesab edərdilər ki, onlara heç bir bəla üz vermə-yəcəkdir".** Quran, "Süfrə" surəsi, 70-71-ci ayələr.*

Haqq yolunda öldürülən Allah qullarından biri də seyid Mir Yaqub ağadır.

El arasında «Qərib seyid"» adıyla tanınan bu Allah dostunun əsli cənubi azərbaycanın Ərdəbil şəhərindəndir. Şəcərəsi VII imamımız Musa Kazım əlehissəlam vasitəsi ilə Həzrəti peyğəmbərimiz Məhəmməd əleyhissəlama bağlanır.

Mir Yaqub ağanın ulu babası, Ərdəbildə yaşayan və kəramətiylə İslam aləmində məşhur olan Seyid Əli ağa haqqında tarixi mənbələrdə geniş məlumat verilir. Onun tarixə düşməsinin əsas səbəblərindən biri də Əmir Teymurun (Teymurləngin) Seyidi ziyarət etməsidir. Bu hadisə barədə belə məlumat verilir ki, Əmir Teymur neçə-neçə ölkələr fəth edərək, Ərdəbilə gəlib çıxır. Teymurləngin belə bir müsbət xüsusiyyəti varmış ki, fəth etdiyi ölkələrdə olan kəramət sahiblərinə toxunmazmış. Əksinə, onlara ehtiram göstərərək, məsləhətlərindən və xeyir-dualarından yararlanarmış. Əmir Ərdəbili fəth edəndə, əvvəlcə şəhəri dağıtmaq istəyir. Lakin ona məlumat verirlər ki, bu şəhərdə kəramətli bir seyid yaşayır.

Teymurləng deyir qəlbimdə tutduğum üç şeylə onun ziyarətinə gedəcəm. Əgər bu üç halı onda müşahidə etsəm, Ərdəbili onun ixtiyarına buraxacam, əks halda məhv edəcəm.

Müridləri Şeyx Əliyə xəbər verdilər ki, Şah Teymur onu görmək üçün qapısına gəlib, dursun pişvarına çıxsın. Seyid dedi xoş gəlib, bir Allah qonağı kimi buyursun içəri, mən onun pişvazına çıxmayacağam.

Teymurləng dedi: qəlbimdə tutduğum birinci halı gördüm. Keçib süfrə başında əyləşəndə, Şeyx köməkçilərinə hamının eşidə biləcəyi səslə tapşırdı ki, keçi südündən südlü aş bişirib, süfrəyə qoysunlar.

Əmir Teymur dedi: qəlbimdə tutduğum ikinci halı da gördüm.

Çörək yeyiləndən sonra, şah öz sərkərdəsini göndərdi ki, dar günü üçün saxladığı zəhəri ona gətirsinlər. Zəhər hazır olanda Teymurləng onu Seyid Əliyə verib, içməsini istədi. Şeyx zəhəri alıb, başına çəkdi. Bir qədər keçmiş, Seyidin əlləri, üzü və bütün bədəni göyərməyə başladı. Oturanlar onun bu saat öləcəyini zənn etdilər. Lakin bu vaxt Şeyxin bədənindən tər axmağa başladı ki, içdiyi zəhər də həmin tərlə xaric oldu.

Seyid Əlinin əhvalının tezliklə yaxşılaşdığını görən Əmir Teymur, üçüncü sınağının da uğurlu olduğunu görüb, Ərdəbilin ixtiyarını Şeyxə verdi və əllərini öpərək, ona dua etməsini istədi. (Bu hadisə bir çox tarixçi və yazıçıların əsərlərində, o cümlədən Fərman Kərimzadənin yazılarında öz əksini tapmışdır.)

Belə bir tarixi şəxsiyyətin - kəramətli seyidin nəvəsi olan Mir Yaqub ağa sufizmi təbliğ etmək

məqsədi ilə 1830-cu illərdə gənc yaşlarında Azərbaycana gəldi. Əvvəlcə Qazax bölgəsində dini təbliğ edən Seyid, sonralar Tovuz rayonunun Aşağı Quşcu kəndinə köçmüşdür. Görənlər onun orta boylu, qara qaşlı, qara gözlü, yanağında xal olan, nurani, gülərüz bir insan olduğunu nəql edərlərmiş. Başında əmmamə, əynində daim xirqə olarmış. Bir müddət bu ərazidə yaşayan və fəaliyyət göstərən "Qərib Seyid" qonşu Ocaqlı kəndindən olan dul qadınla ailə qurur. Bir müddət yaşadıqdan sonra, Seyid başa düşür ki, qadının əvvəlki nigahdan olan və bunlarla birlikdə yaşayan oğlu quldurlarla əlbirdir və oğurluqla dolanır.

Son dərəcə iman və təqva sahibi olan Mir Yaqub ağa duyduğu bu əhvaldan pərişan olur və başlayır oğulluğuna halallığı təbliğ etməyə. Lakin bu təbliğatın ögey oğula heç bir faydası olmur, yenə də atalığından xəlvət oğurluqla məşğul olurdu. Bu mövzuda Rəbbim belə buyurur: ***"Biz cinlərdən və insanlardan bir çoxunu Cəhənnəm üçün yaratdıq. Onların qəlbləri vardır, lakın onunla anlamazlar, onların gözləri vardır, lakin onunla*** *(haqqı)* ***görməzlər. Onların qulaqları vardır, lakin onunla*** *(öyüd-nashət)* ***eşitməzlər. Onlar heyvan kimidirər, bəlkə də*** *(ondan)* ***daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!"*** *Quran, "Əraf" surəsi, 179-cu ayə.*

Mir Yaqub ağanın da oğulluğu ayədə göstərilən zümrədən olduğu üçün heç bir təbliğat fayda vermirdi.

Nəhayət bir gecə Ağa hiss edir ki, oğulluğu yenə kiminsə evini qarət etməyə gedir. Ona mane olmaq üçün ardıyca düşür. Tovuz rayonunun Azaflı kəndinə

çatanda, oğulluğu hiss edir ki, onu izləyən var. Belindəki xəncəri çəkib, tanıyaraqmı ya tanımayaraqmı Mir Yaqub ağanı vurub öldürür və qaçır. Aradan bir neçə gün keçəndən sonra, öz oğru yoldaşları həmin qatil oğulu vurub öldürürlər və cənazəsinin də harada olması heç kəsə məlum olmur.

Haşiyə: *Bu əhvalat yadıma Nuh Peyğəmbərlə onun yol azmış oğlunun əhvalatını saldı. Həmin əhvalatı Quranda Rəbbim belə nəql edir:* ***"...Gəmi onları dağlar kimi yüksək dalğaların içi ilə apardığı zaman Nuh*** *(imandan)* ***aralı olan oğlunu haraylayıb dedi: "Oğlum! Bizimlə birlikdə gəmiyə min*** *(və yaxud islama daxil ol)****, kafirlərdən olma!" Oğlu ona belə cavab verdi: "Mən bir dağa sığınaram, o da məni sudan qoruyar". Nuh dedi: "Allahın rəhm etdiklərindən başqa, bu gün heç kəs*** *(insanları)* ***Onun əzabından qoruya bilməz!" Nəhayət, dalğa ata ilə oğulun arasına girib onları bir-birindən ayirdı və o da suda boğulanlardan oldu."***

Allahın saleh dostlarından olan Mir Yaqub ağanın nəşini Azaflı kəndinin sakinləri elə həmin gecə bir möcüzə sayəsində aşkar etdilər. Belə ki, sakinlərdən biri gecə həyətə çıxanda, həmin yerdə işıq yandığını və

oraların nura qərq olduğunu görüb, heyrət etdi və işığa doğru gəldi. Gəlib çatanda daim sevə-sevə ziyarət etdiyi Mir Yaqub ağanın nəşını al-qan içində gördü. Haray çəkib, bütün kəndi ora yığdı. Amma artıq gec idi. Seyid həyatla vidalaşmışdı. Yunus İmrə demış:

Gedər olduq DOSTUMUZA,
Yetənmədik qəsdimizə.
Namaz üçün üstümüzə
Duranlara salam olsun!

Beləcə Azaflı kəndinin sakinləri Seyidin namazını qılaraq, elə həmin nura qərq olmuş yerdə də torpağa tapşırdılar.

1870-ci ildə baş verən bu hadisədən 140 il keçməsinə baxmayaraq, bu günə qədər insanlar Qərib seyid olan Mir Yaqub ağanın nura qərq olmuş qəbrini sevə-sevə ziyarət edirlər. Bura təkcə Azərbaycandan deyil, qonşu Gürcüstan, İran, İraq, Türkiyə və s. dövlətlərdən zəvvarlar gəlir, qurbanlar kəsirlər.

Bu yazını yazarkən, bir gün bu ziyarətgahda oldum, həmin gün ərzində onlarla zəvvar bu Seyidin kəramətindən faydalanaraq, müxtəlif niyyətlərinin hasil olmasından danışdılar.

Allah-təalanın nuru Mir Yaqub ağanın üzərindən, Mir Yaqub ağanın da xeyir-duası onu sevənlərin və ziyarət edənlərin üzərindən əskik olmasın.

Mikayıl Azaflı

Azaflı kəndini dünyaya tanıdan nadir şəxsiyyətlərdən biri də 1924-1990-cı illərdə yaşamış ünlü sənətçi, böyük söz ustadı, şair Mikayıl Azaflıdır. Bir neçə kitabın müəllifi olan bu ozanın Həzrəti Peyğəmbərimizə (s.ə.s) həsr etdiyi "O qoydu getdi" və birinci imamımız Həzrət Əliyə həsr etdiyi "Ya Əli" adlı iki şerini oxuculara təqdim etməklə, onun da ruhunu şad etməyi özümə borc bildim:

Məhəmməd dünyadan köçüb gedəndə,
Tanıtdı sübhanı, o qoydu getdi.
Cahanda yaratdı İslamiyyəti,
Ayeyi-Quranı o qoydu getdi.

Övliya, Ənbiya, ərənlər tacı,
Salavat sahibi o qiblə hacı.
Ümmət deyə-deyə gəzdi mehracı
Dini-müsəlmanı o qoydu getdi.

Eşqinə yarandı aləmlər ərşdə,
Yer də, göy də, Ay da, Günəş də.
Deyir şair, alim, molla, dərviş də,
Şəriət divanı o qoydu getdi.

Nurdan təməl qoydu Şahi Heydara,
Sidqini bağladı Pərvərdigara.
Qiyam-qiyamətdə yetişən dara,
Savabı, həyanı o qoydu getdi.

Azaflı, Həbibdi Mustafa-qazı,
Haqqın Peyğəmbəri, məşhərin yazı,
İslam millətinə oruc, namazı,
İlqarı, imanı o qoydu getdi.

YA ƏLİ

Sirdən, nurdan xəlq eylədi Pərvərdigar, Ya Əli!
Haqqın şiri yaranmısan, Şahi-zəvvar, Ya Əli!
Məhəmməd, Əli, Fatimə, Həsən, Hüseyn eşqinə,
Eyləyibdir aləmləri Haqq bərqərar, Ya Əli!

Əzəl gündən- yaranandan, Haqqın ilə bir oldun,
Xudam sənə ustad dedi, Cəbrailə pir oldun,
Ərənlərə ruhi-qələm, ərşi, gurşi yer oldun,
Adəm, Həvva, Nuh övladı, səri-sərdar, Ya Əli!

Ağa, sirrin, həm söhbətin bir görünməz kəslədir,
Yüz iyrimi dörd min nəbi "Əli, Əli" səslədi.
Həbibimlə bəni-həmim qucağında bəslədi,
Haqdan gəldi Düldül atın, bir zülfüqar, Ya Əli!

Din eşqinə qılınc çaldın, çox qalalar qaladın,
Xavər, Xeybər, Bərbər kimi yüz min şəhər taladın,
Əmtər, Salsad, Cəmşid qırdın, cinlər, divlər bağladın,
Tilsimlər sındırmısan, şahi-heydər, Ya Əli!

İki dünya çırağısan, şəmsi-qəmər şam idin,
Abi-atəş xakibəndsən, ədalət divan idin.
Cənazəni özün çəkdin, eylədin pünhan özün,
Göz işığı, can dərmanı,min sirrin var, Ya Əli!

Oğlanlarnı qurban verdin, ümmətinə şəfaət,
Əmr olunar İsrəfilə, çalar suru nəhayət,
Boyunlarda kəfən gələr, qiyam olar qiyamət,
Çağırar Xatəm-ənbiya, gəl şəfakar, Ya Əli!

Ağa sənsən, bəşər dərdi, İslam dini amandı,
Sinəm üstü didik-didik, qəm düyünü, amandı.
Kərəm eylə Azaflıya məşhər günü, amandı,
Qolum bağlı, üzüm Haqda bir günahkar, Ya Əli!

İstifadə olunmuş ədəbiyyat

1. «Qurani-Kərim». Tərcüməçi– V. Məmmədəliyev.
2. Əhməd Əmin Təmiz «Həzrəti Fatimə».
3. Mövlana Cəlaləddin Rumi «Eşq pərvanəsi». Tərcüməçi Muxtar Cəfərov.
4. Məşədixanım Nemət «Azərbaycanda pirlər».
5. Məhəmməd Məhəmmədcəlil, Fariz Xəlilli «Mövlana İsmayıl Siracəddin».
6. Rəcəb Dıkıcı «Böyük övliyalar».

Mündəricat

Həzri Baba 3
Pir Hüseyn ziyarətgahı 7
Hacı Bulud Baba 14
Qara Molla . 18
Çalı piri 24
Seyid Mir Cavad ağa..... 27
Mustafa Baba 30
Seyid Mir Fazil ağa 34
Seyid Mir Sədi ağa 40
Seyid Mir Səyyaf ağa 44
Nəxşibəndilik məktəbi 46
Mövlana İsmayıl Siracəddin Şirvani 47
Mir Həmzə Seyid Nigari 53
Hacı Mahmud Əfəndi Aslanbəyli 57
Hacı Mahmud Baba Kürdəmirli 63
Şeyx Mahmud Baba 68
Əhməd Əfəndi Baba 78
Abuzər Baba..... 82
Şıx Sədi Baba 84
Kərbəlayi Seyid Mir Həbi ağa 87
Seyid Mir Əhməd ağa 91
Pircahan 93
Peyğəmbər bağçasının gülləri 99
Peyğəmbər qızı Zeynəb 100
Peyğəmbər qızı Ruqiyyə 102
Peyğəmbər qızı Ummi Gülsüm 103
Peyğəmbər qızı Fatimə. 104

Xıdır Baba 106
Seyid Mir Mehdi ağa 110
Seyid Mir Məstan ağa 116
Üveyis əl-Qərani 119
Seyid Şahimərdan…. 127
Seyid ağa Baba..... 129
Abdurəhman əfəndi.....135
Hacı Abdu əfəndi 139
İstifadə olunmuş ədəbiyyat 159

PAŞA YAQUB

DOĞRULAN ÜMİDLƏR

Mətbəənin direktoru: ***Elman Qasımov***
Kompüter dizayneri: ***Mətanət Babayeva***

Çapa imzalanmışdır: 17.11.2009
Formatı 60x84 1/16. Həcmi 10 ç.v.
Sifariş №52. Tiraj 500

«Zərdabi LTD» MMC
Nəşriyyat Poliqrafiya müəssisəsi
İş ☎ (012) 514-73-73